Azərbaycan Respublikasının
Prezidenti yanında QHT-lərə
Dövlət Dəstəyi Şurasının dəstəyi ilə

"Türk Dünyası İnfo" İB

TÜRK DÜNYASININ BİRLİYİ İDEYASI VƏ HEYDƏR ƏLİYEV

- 9100 -

«Elm və təhsil»
Bakı - 2011

63.3(5Türk)8+63.3(5Azər)-1
T 97

Elmi redaktor:

Nizami Cəfərov

Layihə rəhbəri:

Dəyanət Osmanlı

Tərtibçi redaktor: **Əkbər Qoşalı**

Redaktor: **Şahyəddin Əliyev**

Türk dünyasının birliyi ideyası və Heydər Əliyev *(Araşdırma)*
Bakı, «Elm və təhsil», 2011. 168 səh.

Kitabda Azərbaycanın, ümumən Türk Dünyasının böyük dövlət və siyasi xadimi Heydər Əliyevin həyat və fəaliyyəti əsasında türk birliyi, türk mədəni birliyinin əsasları istiqamətində görülmüş işlərə nəzər salmaraq araşdırma və ümumiləşdirmələr aparılmışdır.

$\frac{4702000000}{N098-2011}$ *qrifli nəşr*

© «Elm və təhsil», 2011

HEYDƏR ƏLİYEV – AZƏRBAYCANIN ATATÜRKÜ

Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kök–dənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çoyaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona gö–rə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb, bir-birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fudamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik.

Heydər Əliyev

Müasir Azərbaycan dövlətçiliyinin qurucusu, Azərbaycan xalqının milli lideri Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb bütövlükdə türk dünyasını (və ümumən dünyanı!) əhatə edir. Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyi ilə yanaşı, praktik perspektivliliyi ilə də böyük tarixi əhəmiyyətə malikdir.

Azərbaycan Demokratik Cümhuriyyəti Azərbaycanın nəinki tarixi coğrafiyasına, hətta onun beşdən birinə (Azərbaycanın Şimalına) nəzarət etmək, müxtəlif etnosları bir cəmiyyət halında birləşdirmək, bütöv bir sosium formalaşdırmaq gücünə malik deyildi. O, daha çox milli dövlətçilik təfəkkürünün meta-

forik təzahürü idi. Azərbaycan SSR də, əslində, həmin metaforanın davamı sayıla bilər. Lakin məsələ burasındadır ki, XX əsrin ortalarında ölkədə milli dövlətçilik təfəkkürünün çiçəklənməsi üçün yenidən tarixi şərait yetişməyə başladı. Lakin simvolik funksiya daşıyan dövlət rəhbərləri respublikada həmin prosesin lazımi intensivlikdə getməsinə, milli dövlətçilik təfəkkürü olan kadrların formalaşdırılmasına diqqət yetirmədilər. Heydər Əliyevin respublikada rəhbərliyə gəlməsi ilə Azərbaycan nəinki sovet dövlətinin – mərkəzin verdiyi imkanlar daxilində, hətta müəyyən maneələri dəf edərək müstəqil düşüncəyə meydan açdı. Ötən əsrin 70-80-ci illərində Azərbaycanda gedən milli oyanış, siyasi-ideoloji dirçəliş prosesinin nəticələri özünü 80-ci illərin sonu 90-cı illərin əvvəllərindəki xalq hərəkatında göstərdi.

Heydər Əliyev xalqın enerjisinin, milli müstəqillik hissinin təzahürünə çalışır, onu dünyanın inkişaf etmiş xalqlarının səviyyəsinə çatdırmaq istəyirdi. Və bütün bunları böyük bir cəsarətlə, gördüyü işin düzgünlüyünə tarixi bir inamla edirdi. Əgər müqayisə aparsaq, etiraf etməli olarıq ki, Azərbaycanın dövlət rəhbərləri içərisində Heydər Əliyev qədər böyük idarəçilik təcrübəsinə (və istedadına!) malik ikinci bir şəxs olmamışdır. Onun imzasına 60-cı illərin sonu 70-ci illərin əvvəllərindən Azərbaycanın hər yerində, iqtisadi, ictimai-siyasi, mənəvi-ideoloji həyatın, demək olar ki, bütün sahələrində rast gəlmək mümkündür. 70-80-ci illərin Azərbaycanını ən müxtəlif baxımlardan "Heydər Əliyevin Azərbaycanı" adlandırmaq üçün hər cür əsas vardır.

Sovet dövləti dağıldıqdan sonra Azərbaycanda ən çox xatırlanan, müstəqil respublikanın dövlətçiliyini formalaşdırmağa dəvət edilən, istedadına istinad olunan şəxs Heydər Əliyev idi.

Xalq hərəkatının, müxtəlif xarakterli münaqişələrin təşkili ilə hakimiyyətə gələn qüvvələrin dövlət idarəçiliyi sahəsində təcrübəsizliyi ortaya çıxanda isə Azərbaycanın məhz "Heydər Əliyevin Azərbaycanı" olduğu bütün aydınlığı ilə təzahür etdi. Bir sıra siyasi tarix mütəxəssisləri, publisistlər 1993-cü ilin

iyun "qiyam"ını Heydər Əliyevin hakimiyyətə gəlməsində xüsusi hadisə kimi təqdim edirlər. Lakin bununla razılaşmaq çətindir. Heydər Əliyevin hakimiyyətə gəlişi 90-cı illərin ilk aylarından artıq reallıq idi. Bir-birinin ardınca baş verən hadisələrin inersiyası, get-gedə güclənən xaos "ölkənin sahibi"ni tələb edirdi. Heydər Əliyevin yaratdıqları xalqın gözləri qarşısında dağıldıqca böyük dövlət qurucusuna, ictimai harmoniya ustasına meyl də güclənirdi. O, Azərbaycan xalqına yalnız bilavasitə idarəedici, dövlət qurucusu kimi yox, Tarix kimi də lazım idi. 80-ci illərin sonu 90-cı illərin əvvəllərində xalqın fəhmi ənənəvi olaraq istinad edəcəyi, üzərində yüksələcəyi Tarixi də axtarıldı. Həmin Tarixin xronologiyası Azərbaycan Xalq Cümhuriyyətindən başlasa da, cümhuriyyətin "praktika"dan deyil, "nəzəriyyə"dən ibarət olması ona əsaslanmağa imkan vermirdi.

1993-cü ilin ortalarında Azərbaycan cəmiyyəti artıq demokratiyanı hərc-mərclikdən xilas etmək uğrunda mübarizə aparmaq üçün özündə qüdrət tapdı. Bu isə birinci növbədə onda təzahür etdi ki, xalq uzun illər ərzində yetirmiş olduğu tarixi liderə inamım sonsuz bir enerji ilə ifadə etdi. Və həmin inam xırda "xalq qəhrəmanları"nın, heç bir tarixə söynkənməyən siyasət fəallarının "obraz"ını ictimai təfəkkürdən bütünlüklə silib atdı. Ona görə ki, bu "qəhrəman"ları, bir daha təkrar edirik ki, tarix yox, təsadüflər, mövcud ictimai-siyasi problem ortaya çıxarmışdı. Tarix onları inkar edirdi.

...Azərbaycanı Heydər Əliyev xilas etdi. Onu bir dövlət kimi məhv olmaqdan Heydər Əliyev – qurtardı, -dedikdə bizim nəzərimizdə, nə qədər qüdrətli olursa-olsun, təsadüfi bir xilaskar obrazı canlanmamalıdır; Azərbaycanın qurtuluşu Heydər Əliyevin şəxsində təzahür edən böyük bir milli, ictimai-siyasi enerjinin fəaliyyəti nəticəsində mümkün ola bilərdi. Və belə də oldu... Heydər Əliyevin Azərbaycanın xilası üçün gördüyü işlərin miqyasını müəyyənləşdirmək yox, ancaq təsəvvür etmək mümkündür. Bu, epik bir miqyasdır - bu fəaliyyət xalqın yalmz bu gününü müəyyən etmir, onun gələcəyinə əhəmiyyətli təsir göstərir ki, bu mənada Azərbaycamn qurtuluşu bu günlə məh-

dudlaşmayan, gələcəyə getdikcə, tarixi məzmunu daha yaxşı dəyərləndiriləcək bir hadisədir.

Azərbaycanın qurtuluşunun yekunu, yaxud nəticəsi qurtuluşun Azərbaycanıdır. O Azərbaycan ki, müxtəlif nəsillərdən olan azərbaycanlılar onu arzulamış, onun qurulması uğrunda mübarizə aparmışlar. Azərbaycan respublikası Milli Məclisinin 1993-cü il 15 iyun tarixli iclasındakı çıxışında Heydər Əliyev həmin mübarizənin tarixi mahiyyətini ifadə edərək demişdir: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm". Bu sözlərin deyilməsindən o qədər də böyük zaman keçmir, lakin dahi mütəfəkkir, dövlət qurucusu həqiqətən müstəqil Azərbaycan dövlətinin əsaslarını yaratmış, onun demokratik inkişaf yolunu istiqamətləndirmişdir. Heydər Əliyevin zəkası öz nuru ilə yalnız bu gün deyil, sabah da müstəqil respublikanın gələcəyini işıqlandıracaq, ona müasir dünyanın üzvi, tərkib hissəsi olmaq üçün hər cür stimul verəcəkdir. Çünki Heydər Əliyev müdrikliyi yalnız bir insanın fərdi qabiliyyətinin nəticəsi deyil, bütövlükdə mənsub olduğumuz xalqın tarixi iradəsinin ifadəsidir. Həmin iradə idi ki, milli dəyərlərin böyük daşıyıcısına 1993-cü il 15 iyun tarixli (və tarixi!) iclasda aşağıdakıları dedirtmişdi: "... Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir". Bununla belə, Heydər Əliyev bildirdi ki, Azərbaycanın müstəqilliyini sadəcə elan etmək nə qədər sevindirici hal olsa da, xalqın milli "izzəti-nəfs"ini nə qədər oxşasa da, həlledici bir şey deyil. Müstəqillik uğrunda illər boyu, tədricən, həm tələsmədən, həm də gecikmədən mübarizə

aparmaq, millətin daxilindəki "kimdənsə asılı olmaq" hissini, inersiyasını öldürmək lazımdır. Çünki xalq bəzən müstəqillik uğrunda "mübarizə" prosesində məhz müstəqilliyini itirir. Odur ki, qurtuluşun Azərbaycanı taleyin ixtiyarına buraxılmış bir dövlət təsəvvürü deyil. Dünyanın böyük dövlət qurucusunun, dahi mütəfəkkirin düşünüb müəyyənləşdirdiyi "ritm" üzrə hərəkət edən, get-gedə möhkəmlənən elə bir sosial-siyasi reallıqdır ki, bizim hər birimizin azərbaycanlı kimi vətəndaş xoşbəxtliyi ondan asılıdır. Və ona görə də biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nümayiş etdirə bilsin.

Heydər Əliyev yaxşı bilirdi ki, "Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır. Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malik olmalıdır".

Bir illik hakimiyyəti dövründə milləti yüz yerə bölənlər düşünmürdülər ki, müxtəlif etnosların, etnik maraqların önündə "reverans" edən dövlət uzun zaman yaşamaz. Və sonrakı proseslər də göstərdi ki, etnik münasibətlər sahəsində 1991-1992-ci illərdə, 1993-cü ilin birinci yarısında buraxılmış səhvlər özünü biruzə verir. Azərbaycan dövlətinin qurucusu bir neçə il məhz keçmiş səhvlərin düzəldilməsi ilə məşğul oldu. Qurtuluşun Azərbaycanı yalnız 1995-ci ildən sonra normal inkişaf yoluna düşməyə başladı ki, bunun da ilk rəsmi ifadəsi Azərbaycan Respublikasının Konstitusiyası oldu. Azərbaycan Prezidentinin bilavasitə rəhbərliyi ilə hazırlanmış Konstitusiya məhv olmaqdan xilas edilmiş, qurtulmuş Azərbaycanın "pasport"u idi.

Artıq on ildən çoxdur ki, müstəqil Azərbaycan Respublikası yaşayır, dünyanın üzvi tərkib hissəsi olmaq uğrunda mübarizə aparır. Bu mübarizənin qalibiyyətini təmin edən əsas qüvvə isə heç şübhəsiz, Heydər Əliyevin şəxsiyyətində təzahür edən milli iradə, möhtəşəm xalq ruhudur ki, Azərbaycanı hər cür iqtisadi, sosial-

siyasi problemlərdən çıxararaq gələcəyə – əbədi müstəqilliyə aparır.

Dünyaya xalqlar, millətlər, insanlar arasında nizam, harmoniya yaratmaq üçün gəldiklərinə həmişə ürəkdən inanan türklər dünyanı öz iradələrinə tabe etməyə çalışmaqdan daha çox, zamanın sosial-siyasi xarakterini müəyyənləşdirməyə, qlobal proseslərin arxasınca deyil, önündə getməyə cəhd etmişlər. Türkləri qaniçən, despot kim tanıtmaq istəyən erməni tarixçiləri indiyə qədər bir dənə də olsa əhəmiyyətli fakt, sübut göstərə bilməmiş, əvəzində isə ancaq böhtançı adını əvvəlcədən özləri üçün təmin etmişlər... Türklər əsrlər, hətta min illər boyu dünyanın müxtəlif xalqları ilə sülh şəraitində yaşamış, qurduqları nəhəng imperiyalarda bütün millətlərə yer vermiş, dünyanın vaxtaşırı pozulan harmoniyasını bərpa etmək üçün böyük ideologiyalar yaratmışlar. Onlar heç bir xalqın tarixi ilə müqayisəyə gəlməyən möhtəşəm tarixlərində dünya mədəniyyətinə heç bir xalqda müşahidə olunmayan bir səviyyədə maraq göstərmişlər. Yalnız bir faktı xatırlamaq kifayətdir ki, dünyanın əsas dinlərinin, demək olar ki, hamısı - buddizm, iudaizm, xristianlıq, İslam və s. müəyyən tarixi dövrlərdə türklər tərəfindən qəbul edilmişdir.

Və türklərin, tarixləri boyu dünyaya bu cür açıq olmalarının, dünya ilə bu cür fəal (və təmənnasız) münasibətlərinin nəticəsidir ki, zaman-zaman dünya miqyaslı mütəfəkkirlər, sənətkarlar, ictimai-siyasi xadimlər, dövlət adamları yetirə bilmişlər. Türk dünyasının fəxri olan Heydər Əliyev zəmanəmizin yetirdiyi böyük türklərdən biri, bəlkə də, birincisidir...

Heydər Əliyev hər dövrü, hər mərhələsi məktəb olan, həqiqətən, qeyri-adi bir ömür yaşamış, yalnız mənsub olduğu Azərbaycan xalqının, türk xalqlarının deyil, ümumən dünya xalqlarının təsəvvüründə özünün mükəmməl obrazını, aydın cizgiləri ilə seçilən möhtəşəm portretini yaratmışdır.

...Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsindən bir neçə il sonra Azərbaycanın iqtisadi, ictimai-siyasi, mədəni tarixində, həqiqətən, yeni bir dövr başlandı. Bakı hələ Moskva deyildi, sovet hakimiyyəti Bakıya, deyək ki,

Tbilisidən, yaxud Yerevandan çox əhəmiyyət verirdi. 1926-cı ildə Bakıda Türkoloji qurultay keçirilmişdi, burada Şərq xalqlarının məclisləri, yığıncaqları olmuşdu, buradan Şərq dünyasına tarixi yollar uzanırdı... Bakı Şərqin qapısı idi.

Heydər Əliyevin Bakıda gözlənilməyən bir sərbəstliklə respublikanı idarə etməyə başlaması nəinki Moskvada, heç Bakının özündə də rahat qarşılanmadı. Niyə? Ona görə ki, yeni dövlət başçısı gözlənilməyən bir halda neçə illərin sükunətini hərəkətə gətirdi, milləti oyatdı, türk düşüncəsini silkələdi, pozulmaqda olan ictimai əxlaqı dindirdi... Bu isə özünə möhkəm yer eləmiş, gedəni söyüb, gələni öyməklə neytrallaşdıran, müxtəlif millətlərdən ibarət məmurları təmin etmirdi; şantaja, böhtana əl atdılar, lakin bu türk o biri türklərdən deyildi...

Moskvaya gəldikdə isə... Böyük bir işə başladığını yaxşı bilən Heydər Əliyev, əvvəla, L.İ.Brejnevin şəxsində özünə möhkəm dayaq tapmışdı, ikinci tərəfdən, iqtisadiyyatı dirçəldən, "kommunizmin maddi bazası"nı hazırlayan bir respublika rəhbərinə açıq şəkildə qarşı çıxmaq üçün heç bir ciddi əsas yox idi...

Türk hökmdarlarının böyük ənənələrini davam etdirən Azərbaycan rəhbəri respublikanı nəhəng tikinti meydanına çevirdi: Bakı şəhəri görünməmiş bir sürətlə abadlaşdırıldı, Naxçıvanda, Gəncədə, Sumqayıtda, respublikanın rayon mərkəzlərində mədəniyyət evləri, məktəblər, inzibati binalar, yaşayış evləri tikildi, kanallar çəkildi, su anbarları yaradıldı və s. Heydər Əliyev bu vaxta qədər ittifaq miqyasında, demək olar ki, adı çəkilməyən respublikanı SSRİ-nin ən qabaqcıl müsəlman-türk respublikasına çevirdi; on ildən artıq müddətdə Heydər Əliyevin Azərbaycanın iqtisadi, mədəni, mənəvi yüksəlişi üçün gördüyü işləri o zaman SSRİ respublikalarından heç birinin rəhbəri görməmişdi... Heç digər görkəmli türklər D.Ə.Kunayevlə Ş.R.Rəşidov da görə bilməmişdilər... Halbuki onlara nisbətən cavan Heydər Əliyev artıq müəyyən taktiki məqsədlərlə Moskvanın gözlərini qamaşdırmaqla kifayətlənmir, mənsub olduğu millət üçün çox böyük işlər görməyə, strateji planlarını həyata keçirməyə çalışırdı.

Həmin planlardan biri, bəlkə də, birincisi xalqın özünü özünə tanıtdırmaq, onun normal etnokulturoloji həyatını bərpa etmək idi...

Heydər Əliyev Azərbaycan tarixinin ən müxtəlif problemlərinin öyrənilməsinə, milli tarixi təfəkkürün oyadılmasına xüsusi əhəmiyyət verdi, ixtisasca tarixçi olan (o, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir) Heydər Əliyev üçün tarix yalnız "üzü keçmişə siyasət" deyildi, həm də və bəlkə də, daha çox millətin öz həqiqi keçmişini dərindən öyrənib gələcəyə hazırlıqlı getməsi üçün bir məktəb, ilham mənbəyi idi. Azərbaycan xalqının mənşəyi, formalaşması, Azərbaycan millətinin təşəkkülü kimi mühüm tarixşünaslıq problemləri məhz 70-ci illərdə bütün elmi-ideoloji kəskinliyi ilə qoyuldu, müşavirələr, müzakirələr keçirildi. Və bu gərgin axtarışlar heç bir elmi adı, alimlik dərəcəsi olmayan Heydər Əliyevin bilavasitə, yaxud dolayısı ilə rəhbərliyi altında gedir, vaxtaşırı ona məlumatlar verilirdi.

...Onun üçün tarix sosial-siyasi tarixlə məhdudlaşmırdı, Heydər Əliyev milli dil, ədəbiyyat, mədəniyyət və s. tarixinin problemləri ilə də maraqlanır, mütəxəssisləri səfərbər edirdi.

Azərbaycan ədəbiyyatının, mədəniyyətinin yalnız tarixi ilə deyil, bugünü ilə də sonsuz enerji ilə məşğul olan, Azərbaycan yazıçıları, məndəniyyət, incəsənət xadimləri ilə ardıcıl görüşən, onların qurultaylarında fəal iştirak edən respublika rəhbəri millətin yaradıcı qüvvələrini əvvəlki illərin ətalətindən çıxardı, onlarla görkəmli yazıçı, incəsənət, mədəniyyət, elm xadiminin sədası məhz respublika rəhbərinin nüfuzu sayəsində qısa bir zamanda SSRİ-nin mərkəzindən gəlməyə başladı... Yəni Azərbaycan Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə təkcə nefti, pambığı, üzümü ilə deyil, mənəvi-intellektual sərvətləri ilə də ittifaq miqyasında məşhurlaşmışdı...

Respublikanın müxtəlif rayonlarında dünya mədəniyyətindən, demək olar ki, təcrid edilmiş şəkildə yaşayan, lakin zəhmətkeş, istedadlı xalqın Azərbaycanın mərkəzi ilə əlaqələrinin genişlənməsində də Heydər Əliyevin bugünə qədər dərindən araşdırılmamış (lakin araşdırılmaya ehtiyacı olan!) mühüm xidmətləri olmuşdur, məhz bu görkəmli şəxsiyyətin, böyük dövlət

xadiminin uzaqgörən siyasəti nəticəsində Bakı "beynəlmiləl" şəhərdən milli şəhərə çevrilirdi... Yeganə ümumittifaq türkologiya jurnalı da 1970-ci ildən məhz Bakıda çıxmağa başladı.

Azərbaycana rəhbərlik etdiyi illərdə yalnız Azərbaycan ictimaiyyəti deyil, ümumən sovet ictimaiyyəti gördü ki, Heydər Əliyev təkcə qorxmaz, cəsarətli, möhkəm iradəli bir rəhbər yox, həm də müdrik, ensiklopedik məlumata, güclü məntiqə malik, cəmiyyəti dərindən bilən, onu bu və ya digər məqsəd uğrunda hərəkətə səfərbər etməyi bacaran təşkilatçı dövlət xadimi, yüksək səviyyəli ideoloqdur... Belə şəxsiyyətlər L.İ.Brejnev dövründə istər Moskvada, istərsə də respublikaların rəhbərliyində çox deyildi, ölkə "rahat" yaşamağa meylli idi, tarixi problemlər, necə deyərlər, dondurulmuş, "yeni fikrin", "yeni mövqe"yin, siyasi-ideoloji axtarışların qapısı bağlanmışdı... Yaşı ötmüş, lakin təbiətən xeyirxah olan, Azərbaycana (Heydər Əliyevə!) xüsusi münasibət bəsləyən L.İ.Brejnev ayaqları dolaşa-dolaşa dünyanın müxtəlif ölkələrini gəzir, səmimi-qəlbdən sülh istəyirdi... Lakin Moskva Əfqanıstana qoşun yeritdi və uğursuz müharibəyə başladı... L.İ.Brejnev erası başa çatır, son dövrünü yaşayan sovet dövlətinin rəhbərliyində tənəzzüldən çıxış yolları axtarılırdı. Vəziyyətin mürəkkəbliyi çoxlu suallar doğurur, axtarışlara sövq edir, müxtəlif ideyalar, mülahizələr meydana çıxırdı. Və təbii ki, müxtəlif xarakterli qüvvələri həm daxildə, həm də xaricdə fəaliyyətə, aktiv hərəkətə sövq edirdi.

...80-ci illərdə sovet dövlətinin rəhbərliyində ardıcıl dəyişikliklər getdi. Baş katiblər biri digərini əvəz edir, Siyasi Büronun tərkibi dəyişirdi. Heydər Əliyev belə bir mürəkkəb dövrdə Moskvaya çağırıldı, Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini oldu. Bu, sovet dövləti yaranandan bəri türk-müsəlman dövlət xadiminin gəlib çıxdığı ən böyük vəzifə idi... Tarixi bir qədər də geniş miqyaslı götürsək, ən geci XVII əsrdən bəri türk-slavyan-sovet dövlətinin rəhbərliyində ən yüksək vəzifə əldə etmiş türk, müsəlman idi...

80-ci illərin ortalarında artıq Heydər Əliyev sovet dövləti rəhbərliyində yalnız Azərbaycan xalqının yox, ümumən türk-mü-

səlman xalqlarının lideri idi, türk dünyasının həm strateji, həm də taktiki problemlərini həll etmək yalnız onun üzərinə düşürdü. Və Heydər Əliyev döyüşürdü.

.... Heydər Əliyev Azərbaycana ölkənin ümumən məhv olmaq təhlükəsi altında olduğu zaman gəldi. Və Azərbaycanı nəinki xilas etdi, onu həm də türk dünyasının qabaqcıl məmləkətlərindən birinə çevirdi. Bu gün Azərbaycan haqqında danışmaq türk dünyası barəsində, Heydər Əliyev haqqında danışmaq isə türk bö yüklərindən biri barəsində bəhs etmək deməkdir. Müstəqillik əldə etmiş heç bir (digər) türk dövlətinin başçısı bu səviyyəyə ümumən türk dünyasının lideri olmaq səviyyəsinə gəlib çatmamışdır...

Zəngin dövlət idarəçiliyi təcrübəsi (və potensialı) olan Azərbaycan Prezidenti türk dünyasının birliyi üçün nə qədər böyük işlər görmüşdürsə, ondan da böyük işlər görmək gücünə, imkanlarına malikdir. Burada söhbət gözəl nəzəri fikirlər söyləməkdən, "Çinə türk bayrağı sancmaq"dan getmir, konkret, perspektivli işlərdən gedir. Azərbaycan rəhbərliyinə yenidən gəldikdən, siyasi hakimiyyət əldə edildikdən sonra Heydər Əliyevin fəaliyyətində bir sıra sahələr aydın cizgiləri ilə seçilir:

-Azərbaycanın iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından istifadə etmək;

-türk dünyasının qüvvələrini birləşdirmək, hər hansı türk dövlətinin (xüsusilə beynəlxalq) problemlərinin həllində türk dünyasının birgə hərəkətini təmin etmək;

-türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsinə çalışmaq, bunun üçün hər bir müstəqil türk dövlətinin imkanlarından yararlanmaq və s.

...Heydər Əliyevin türk dünyasının problemləri ilə daha ardıcıl məşğul olduğu mərhələ 1993-cü ildən, müstəqil Azərbaycan Respublikasının Prezidenti seçiləndən sonra başlayır. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində Heydər Əliyev demişdi: "İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin – Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş

zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir"... Bu müraciətdə türklük düşüncəsinin ən azı üç tarixi əlaməti əks olunur:

1) ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması;

2) türk (və ümumən müsəlman) dünyasının birliyinə çalışılması;

3) həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi ideyasının müdafiəsi.

...Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmiş, Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün tarixi fəaliyyətini dönə-dönə dəyərləndirmiş, onu "iyirminci əsrin bəşəriyyətə verdiyi böyük dühalardan" saymışdır.

Azərbaycan Respublikasının yaradıcısı Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin banisi Atatürk barədəki mülahizələri yalnız bir ictimai- siyasi xadim, milli dövlət qurucusunun tarixə qovuşmuş digər bir ictimai- siyasi xadim, milli dövlət qurucusu barədəki düşüncələrini öyrənmək baxımından deyil, həm də (və bəlkə də, daha çox) milli dövlət quruculuğunun ümumi təcrübəsini, metodologiyasının əsaslarını müəyyənləşdirmək baxımından böyük əhəmiyyətə malikdir. Müasir Azərbaycan dövlətinin qurucusunun "Türkiyə Cümhuriyyəti Atatürkün yalnız fəaliyyəti nəticəsində deyil, həm də qəhrəmanlığı nəticəsində yaranmışdır" sözləri eyni zamanda, zəmanəmizin Atatürkü Heydər Əliyevin tarixi xidmətini də ifadə edir. Və təsadüfi deyil ki, Azərbaycan Prezidenti böyük Atatürkün irsini öyrənmək, ideyalarını təbliğ etmək üçün xüsusi bir mərkəz-Atatürk Mərkəzi yaratmışdır ki, qısa bir müddətdə həmin Mərkəz xeyli işlər görmüşdür.

Atatürkün yaratdığı Türkiyə haqqında müxtəlif vaxtlarda deyilmiş aşağıdakı sözlərin hamısı Heydər Əliyevə məxsusdur: "Türkiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsir qüvvəsinə malik, ümumbəşəri dəyərləri qorumaq əzmində olan, iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli

dövlətlərdən birinə çevrilmişdir...", "Azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var...". "Türkiyə Azərbaycan üçün qardaş, dost ölkədir". "Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qədim və zəngin tarixi var". "İndi Azərbaycan Respublikası bir müstəqil dövlət kimi Türkiyə Cümhuriyyəti ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə çalışır...". "Mən bu gün bir daha Türkiyə torpağına ayaq basmağıma, Türkiyə torpağında olmağıma görə özümü çox xoşbəxt hesab edirəm...". "Yeni doğulmuş müstəqil Azərbaycan dövləti Türkiyənin köməyini, yardımını, qayğısını daim hiss edir". "Hələ gənc yaşlarımda kitablardan, qəzetlərdən Türkiyə haqqında, türk xalqı haqqında oxuyarkən Türkiyəyə həmişə həsrətlə baxır, ona böyük maraq göstərir, Böyük Millət Məclisinin işi barədə, onun qəbul etdiyi qərarlar barədə məlumatları həvəslə, diqqətlə oxuyurdum". "... Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir". "... Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir". "...Xalqlarımız bir kökdəndir... Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. İndi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik...". "Biz bir millət, iki dövlətik...". "Burada, bu salonda kimin türkiyəli, kimin azərbaycanlı olduğunu ayırmaq mümkün deyildir...". "Azərbaycanla Türkiyə arasındakı sədlər, sərhədlər, qadağalar, yasaqlar götürülmüşdür"... və s.

Heydər Əliyev 1994-cü ilin fevralında Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə rəsmi səfərdə olarkən müxtəlif görüşlər keçirmiş, bu ölkə barəsində on illərlə ürəyində, beynində daşıdığı fikirlərinin əksəriyyətini ilk dəfə söyləmişdir...

90-cı illərin əvvəllərində hələ Naxçıvanda olarkən Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəllə, Türkiyənin böyük ictimai-siyasi və dövlət xadimləri ilə tez-tez görüşmüş, sıx əlaqələr saxlamışdır... Müşahidələr göstərir ki, Süleyman Dəmirəl Azərbaycan Prezidentinin ən çox qiymətləndirdiyi, hətta özünə qardaş hesab etdiyi türk dövlət başçılarından, dünya ictimai-siyasi xadimlərindən biri (və bəlkə də, birincisi)dir. Heydər Əliyevin Süleyman Dəmirələ müraciətən dediyi aşağıdakı sözlər bunu bir

daha sübut edir: "Türkiyə Cümhuriyyətinin beynəlxalq aləmdə xarici siyasətini aparmaqda, onu beynəlxalq təşkilatlarda təmsil etməkdə, Türkiyə Cümhuriyyətinin ilbəil Dünya birliyində layiqli yer tutmasında sizin böyük xidmətləriniz var və buna görə də siz təkcə Türkiyədə yox, yalnız türk dünyasında yox, bütün dünyada məşhur bir siyasi-ictimai xadimsiniz, dövlət xadimisiniz".

Heydər Əliyev daha sonra demişdir: "Azərbaycan xalqının sizə xüsusi hörmət və məhəbbəti vardır. Çünki xalqımız sizi çox yaxşı tanıyır, siyasi fəaliyyətinizi, dövlət fəaliyyətinizi həmişə izləyir. Təsadüfi deyil ki, hələ "soyuq müharibə" vaxtı, Sovetlər İttifaqı ilə Türkiyə Respublikası arasında münasibətlərin gərgin olduğu bir dövrdə Azərbaycan respublikası, xalqımız Sovetlər İttifaqının tərkibində olduğu bir vaxtda - 25 il bundan öncə siz Türkiyənin baş naziri kimi Sovet İttifaqına ilk səfər etmisiniz. Moskvada, Sovetlər İttifaqının başqa şəhərlərində olmusunuz. Biz o zaman hiss etdik ki, qəlbiniz, ürəyiniz Azərbaycana da gəlməyi sizə əmr etmiş, Bakıya gəlməyi sizə tövsiyə etmişdir. Siz Bakıya, Azərbaycana gəldiniz".

Heydər Əliyev Süleyman Dəmirəli "böyük öndər Mustafa Kamal Atatürkün işinin etibarlı davamçısı kimi, onun böyük şagirdi kimi" qiymətləndirmiş, "türk dünyasının, türk dövlətlərinin birbirinə daha yaxın olması" yolunda hələ çox işlər görəcəyinə əminliyini ifadə etmişdir...

...Heydər Əliyev görünür, Türkiyəni bir də ona görə sevmişdir ki, bütün Türk dünyasından Türkiyəyə yollar uzandığı kimi, Türkiyədən də bütün Türk dünyası görünürdü (və bu gün də görünməkdədir). Yalnız uğurları ilə deyil, həm də qüsurları, problemləri ilə... Türkiyə təkcə həmin uğurlara sevinmir, problemlərin həllinə, mübahisələrə, dedi-qodulara da səbrlə münsiflik edir.

...Heydər Əliyevin tarixi Türküstan – Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan... ilə, həmin türk regionunun dövlət xadimləri, siyasi-ictimai liderləri ilə əlaqələri sovet dövründə sıx olmuş, sovet dövlətinin süqutundan sonra isə yeni milli-ideoloji məzmun kəsb etmişdir.

Türküstan respublikaları, həmin respublikalarla Azərbaycanın çoxtərəfli əlaqələri, əməkdaşlığı və s. barədə Heydər Əliyevin, görünür, ilk proqram əhəmiyyətli fikirləri Türk dövlətləri başçılarının İstanbulda keçirilən 2-ci zirvə toplantısında söylənmişdir. ... Azərbaycan Prezidentinin İstanbula yola düşərkən Bakıda, hava limanında jurnalistlərə dediyi aşağıdakı sözlər diqqəti cəlb edir: "Şübhəsiz ki, zirvə toplantısı bizim xalqlarımızın (türk xalqlarının – N.C.), müstəqil ölkələrimizin (türk dövlətlərinin – N.C.) bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni bizim türk mənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür. Ona görə də mən bu görüşə böyük əhəmiyyət verirəm. Orada hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin prezidentlərinin ünsiyyəti bunlar hamısı respublikamızın həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır"... Və 2-ci zirvə toplantısının açılışında Azərbaycan Prezidenti bu fikri daha da inkişaf etdirib demişdi: "Bizim toplantı xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrinin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu çox böyük əsasdır. Ona görə də bu əsasda bizim ölkələr arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə, genişləndirməyə, bütün istiqamətlərdə bu əməkdaşlığı təmin etməyə bizim böyük imkanlarımız var. Azərbaycan Respublikası belə qərara gəlib ki, bundan sonra da bu imkanlardan istifadə etsin və əməkdaşlığı genişləndirsin.

... Həmin nitqində Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin türk dövlətləri ilə əlaqələrində ümumən xarici siyasətində artıq neçə illər kölgədə qalmış bir məsələyə işıq saldı. O, ancaq dahi diplomatlara (və türk dünyasının birliyi uğrunda hər cür

mücadiləyə hazır böyük türkçülərə!) xas olan bir açıqlıqla dedi: "... Ancaq bir həqiqəti də qeyd etmək istəyirəm ki, ölkələrimiz (söhbət türkdilli ölkələrdən gedir – N.C.) müstəqillik əldə edəndən sonra, iki il bundan öncə Ankarada bizim ölkələrimizin rəhbərləri toplaşıb, görüşüb birgə bəyanat qəbul edəndən sonra, ola bilər ki, Azərbaycan tərəfinin buraxdığı səhvlər nəticəsində Azərbaycan Respublikasınm Qazaxıstanla, Özbəkistanla, Türkmənistanla, Qırğızıstanla əlaqələri çox zəif olub. Təxminən bir il bundan öncə, mən Azərbaycan Respublikasına başçılıq etməyə başladığım gündən bu qardaş respublikalarla əlaqələrin bərpa olunması üçün çox çalışmışam və bildirmək istəyirəm ki, bu əlaqələrin zəifləməsi və bəzən də qırılması səbəbləri ancaq Azərbaycandadır". Azərbaycan Prezidenti daha sonra dedi ki, "ona görə də Azərbaycan tərəfindən bu əlaqələrin uzun müddət zəiflədilməsinə görə də xüsusən 1992-ci ildə Ankara bəyannaməsindən sonra Azərbaycan tərəfindən bu dövlətlərlə əlaqələri inkişaf etdirmək üçün təşəbbüs göstərilmədiyinə görə mən dostlarımdan, qardaşlarımdan üzr istəyirəm və bunu etiraf edirəm. Eyni zamanda, bildirmək istəyirəm ki, Azərbaycan bu əlaqələrin gücləndirilməsinə çalışır və bundan sonra da çalışacaqdır...

Ümumiyyətlə, bir kökdən, bir mənşədən olan və adət-ənənələri bir olan xalqların, ölkələrin, dövlətlərin əməkdaşlığının böyük gələcəyi var və mən hesab edirəm ki, biz bu imkanlardan səmərəli istifadə etməliyik".

Türk dünyasının fəxri, yaxud böyük türklərdən biri Heydər Əliyevin portretini böyük şəxsiyyətin aşağıdakı sözləri tamamlayır: "Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir".

Türküstan respublikaları, həmin respublikalarla Azərbaycanın çoxtərəfli əlaqələri, əməkdaşlığı və s. barədə Heydər Əliyevin,

görünür, ilk proqram əhəmiyyətli fikirləri Türk dövlətləri başçılarının İstanbulda keçirilən 2-ci zirvə toplantısında söylənmişdir. ... Azərbaycan Prezidentinin İstanbula yola düşərkən Bakıda, hava limanında jurnalistlərə dediyi aşağıdakı sözlər diqqəti cəlb edir: "Şübhəsiz ki, zirvə toplantısı bizim xalqlarımızın (türk xalqlarının – N.C.), müstəqil ölkələrimizin (türk dövlətlərinin – N.C.) bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni bizim türk mənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür. Ona görə də mən bu görüşə böyük əhəmiyyət verirəm. Orada hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin prezidentlərinin ünsiyyəti bunlar hamısı respublikamızın həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır"...

Və 2-ci zirvə toplantısının açılışında Azərbaycan Prezidenti bu fikri daha da inkişaf etdirib demişdi: "Bizim toplantı xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrinin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu çox böyük əsasdır. Ona görə də bu əsasda bizim ölkələr arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə, genişləndirməyə, bütün istiqamətlərdə bu əməkdaşlığı təmin etməyə bizim böyük imkanlarımız var. Azərbaycan Respublikası belə qərara gəlib ki, bundan sonra da bu imkanlardan istifadə etsin və əməkdaşlığı genişləndirsin" (kursiv bizimdir - N.C.)...

... Həmin nitqində Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin türk dövlətləri ilə əlaqələrində ümumən xarici siyasətində artıq neçə illər kölgədə qalmış bir məsələyə işıq saldı. O ancaq dahi diplomatlara (və türk dünyasının birliyi uğrunda hər cür mücadiləyə hazır böyük türkçülərə!) xas olan bir açıqlıqla dedi: "... Ancaq bir

həqiqəti də qeyd etmək istəyirəm ki, ölkələrimiz (söhbət türkdilli ölkələrdən gedir – N.C.) müstəqillik əldə edəndən sonra, iki il bundan öncə Ankarada bizim ölkələrimizin rəhbərləri toplaşıb, görüşüb birgə bəyanat qəbul edəndən sonra, ola bilər ki, Azərbaycan tərəfinin buraxdığı səhvlər nəticəsində Azərbaycan Respublikasının Qazaxıstanla, Özbəkistanla, Türkmənistanla, Qırğızıstanla əlaqələri çox zəif olub. Təxminən bir il bundan öncə, mən Azərbaycan Respublikasına başçılıq etməyə başladığım gündən bu qardaş respublikalarla əlaqələrin bərpa olunması üçün çox çalışmışam və bildirmək istəyirəm ki, bu əlaqələrin zəifləməsi və bəzən də qırılması (kursiv bizimdir – N.C.) səbəbləri ancaq Azərbaycandadır". Azərbaycan Prezidenti daha sonra dedi ki, "ona görə də Azərbaycan tərəfindən bu əlaqələrin uzun müddət zəiflədilməsinə görə də xüsusən 1992-ci ildə Ankara bəyannaməsindən sonra Azərbaycan tərəfindən bu dövlətlərlə əlaqələri inkişaf etdirmək üçün təşəbbüs göstərilmədiyinə görə mən dostlarımdan, qardaşlarımdan üzr istəyirəm və bunu etiraf edirəm. Eyni zamanda bildirmək istəyirəm ki, Azərbaycan bu əlaqələrin gücləndirilməsinə çalışır və bundan sonra da çalışacaqdır...

Ümumiyyətlə, bir kökdən, bir mənşədən olan və adət-ənənələri bir olan xalqların, ölkələrin, dövlətlərin əməkdaşlığının böyük gələcəyi var və mən hesab edirəm ki, biz bu imkanlardan səmərəli istifadə etməliyik".

...Etiraf edək ki, Heydər Əliyev Türküstanın dövlət başçıları Nursultan Nazarbayev, İslam Kərimov, Saparmurad Niyazov (Türkmənbaşı), Əsgər Akayev ilə görüşlərində, münasibətlərində öz ağsaqqallıq missiyasını, türk dünyasının lideri vəzifəsini məharətlə yerinə yetirir. Təcrübəli dövlət adamının, müdrik ictimai-siyasi xadimin qeyri-adi nüfuzu qısa bir müddətdə Türküstana yayılmış və həmin ölkələr, onların münasibətləri, beynəlxalq mövqeləri üçün nə qədər böyük əhəmiyyətə malik olduğunu artıq göstərməkdədir. Heydər Əliyev uzaqgörəndir, qətiyyətlidir, lakin eyni zamanda səbrlidir, hadisəni mahiyyətdən, təsadüfi zərurətdən ustalıqla ayırırdı. Bu isə ona Türküstan respublikaları ilə münasibətdə çox geniş səlahiyyətlər verir... Digər tərəfdən, Mərkəzi Asiya

türklüyünün Türkiyəyə, oradan da Qərbi Avropaya yolunun ən kəsəsi Azərbaycandan keçir. Şimal-Qərbdən və Cənub-Qərbdən keçən yollar, əslində, tarixi-ənənəvi yoldan (İpək yolundan!) çıxmaq deməkdir. Bunu Azərbaycanın köhnə rəhbərliyi bilmirdi, Heydər Əliyev isə bilir.

...Son illərin müşahidəsi göstərir ki, türk dünyasının iqtisadi, siyasi, mədəni əlaqələri türk dövlətlərinin bu sahələrdəki əməkdaşlığı barədə hərdən bir "xaric" düşünən, arabir də "müxalif" hərəkət edən türk dövlət başçısı Saparmurad Niyazov (Türkmənbaşı) olmuşdur. Türk dövlət başçılarının 2-ci zirvə toplantısında mətbuat konfransında söylədiyi aşağıdakı mülahizələr Türkmənbaşının mürəkkəb tarixi proseslərə dərindən (və ümumtürk mənafeləri mövqelərindən!) yanaşmaqda çətinlik çəkdiyini göstərir: "... Prinsip etibarilə biz Azərbaycanın Qərb konsorsiumu ilə imzaladığı müqavilənin əleyhinə deyilik. Yeganə məqsəd bu olmalıdır ki, heç kim bir-birindən şübhələnməsin, heç kim fikirləşməsin ki, biri digərinin hesabına fayda götürməyə çalışır və Xəzər dənizi hansısa çəkişmə, mübahisə, qeyri-sabitlik obyektinə çevrilməsin... Xəzərlə bağlı məsələlərdə müvafiq dövlətlərin ehtiyat etməsini başa düşmək mümkündür. Bu gün bizlərdən kimsə bir iş görərkən qonşular buna həmişə şübhə ilə yanaşırlar. Bizim də Hollandiya və Argentina firmaları ilə sazişlərimiz var, onlar Xəzər dənizinin sahilində işləyirlər. Lakin biz mövcud neft mədənlərində hasilatın artırılması barədə saziş bağlamışıq və gəliri yarı böləcəyik. Xəzərin Türkmənistan sahillərindəki şelfində iş görmək barədə də danışıqlar aparacağıq"... Və Saparmurad Niyazov türk dövlətləri başçılarının məclisində yuxarıdakı sözlərin ardınca öz strateji mövqeyini belə bəyan etmişdir: "... Əgər Rusiya ilə saziş bağlamaq sərfəli olarsa onunla, İranla sərfəli olarsa onunla saziş bağlayacağıq".

"Xəzər dənizi hansısa çəkişmə, mübahisə, qeyri-sabitlik obyektinə çevrilməsin" deyən Türkmənbaşı elə bil ki, Xəzəri tarixi ənənələrə baxmadan iki daşın arasında bölüşdürüb, öz payını daha yüksək qiymətə (kim çox verdi!) satmaq istəyir. Halbuki Xəzər dənizi türk dövlətlərini məhz bölünməzliyi ilə birləşdirməlidir... Və

yeri gəlmişkən, Xəzər hövzəsi türk (eləcə də qeyri-türk!) dövlətlərindən ancaq birinin – Azərbaycanın paytaxtı Xəzər dənizinin bilavasitə sahilində yerləşir. Yalnız Azərbaycan Prezidentinin iş kabinetindən baxanda qədim türk tayfalarından birinin adını daşıyan Xəzər dənizi görünür... "Coşğun Xəzər oynar ayaqlarında..."

...1994-cü il oktyabr ayının sonlarında Heydər Əliyev Türkmənistanın müstəqillik qazanmasının 3-cü ildönümü şənliklərində iştirak etmək üçün Aşqabada gedir. Azərbaycan Prezidentinin məqsədi heç şübhəsiz, sadəcə şənliklərdə iştirak etmək deyildi, Aşqabadda jurnalistlərə verdiyi müsahibədə daha böyük (əslində, tarixi!) bir məqsəd izlədiyini etiraf etmişdi: "... Türkmənistan bizə qonşu, dilimizə və keçmişimizə görə yaxın bir ölkədir. Ona görə də mən istəyirəm ki, ölkələrimiz arasındakı əlaqələri möhkəmləndirək. Vaxtilə böyük səhvlər buraxılıb, Azərbaycanı Orta Asiya, ümumiyyətlə, Mərkəzi Asiya ölkələrindən uzaqlaşdırıblar. Mən istəyirəm ki, bu, aradan götürülsün. Güman edirəm ki, belə tədbirlər gələcəkdə keçmiş "İpək yolu"nun canlandırılmasına kömək edəcəkdir"...

Heydər Əliyevin müstəqil Türkmənistan dövlətinin 3-cü ildönümü münasibətilə dediyi aşağıdakı sözlər, bir tərəfdən, böyük türk dövlət xadiminin bir türk dövlətinin uğurlarına ürəkdən gələn sevincini ifadə edirsə, digər tərəfdən, həmin dövlətin rəhbərliyini türk birliyi mövqeyində möhkəm dayanmağa çağırır: "Mən Türkmənistanın bu üç illik müstəqillik dövründə əldə etdiyi nailiyyətləri, prezident, dostum və qardaşım Saparmurad Türkmənbaşının xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Hörmətli Prezident Saparmurad Türkmənbaşı ilə biz çox illərdir ki, dostuq, tanışıq. Vaxtilə bir yerdə də işləmişik. İndi də qonşu ölkələrə rəhbərlik edirik. Ona görə dünən də, bu gün də Türkmənistanın son dövrdə (mən əvvəllər də Türkmənistanda olmuşam), xüsusilə müstəqillik qazanandan sonra hörmətli Prezident Türkmənbaşının rəhbərliyi altında əldə etdiyi nailiyyətlər məni qəlbən çox sevindirdi... Müsəlman dövlətlərinin Pakistan, Türkiyə, Türkmənistan, İran və Azərbaycanın rəhbərlərinin burada, Türkmənistan torpağında, qədim türk torpağında toplanması çox böyük hadisədir".

...Heydər Əliyevin Türkmənistana səfəri Azərbaycan Prezidentinin müstəqillik yolları ilə addımlayan tarixi Türküstana – Orta Asiyaya ilk səfəri idi və bu səfərin nəticələri ilə əlaqədar Heydər Əliyev demişdi: "Güman edirəm ki, gələcəkdə əməkdaşlığımız üçün çox böyük imkanlar var və Saparmurad Niyazovla danışdıq ki, bu imkanlardan hər iki tərəf istifadə etməyə çalışacaqdır".

...Təbii ki, türk dünyası Türküstandan, Mərkəzi Asiyadan çox genişdir: Yakutiya, Sibir türkləri var; Volqaboyu türkləri – tatarlar, başqırdlar, çuvaşlar var; Şimali Qafqaz türkləri var... Onların hamısı sovet dövründən (və dövlətindən!) keçmişlər, indi isə Rusiyanın vətəndaşıdırlar. Heydər Əliyev onların gələcəyini necə görür? Bunu deyə bilmərik, ancaq bir məsələ aydındır ki, həmin xalqların ictimai-siyasi problemlərini ən dəqiq şəkildə, vaxtilə Sovet dövlətinin rəhbərlərindən biri olmuş Heydər Əliyev bilir...

Türk dünyasının fəxri, yaxud böyük türklərdən biri Heydər Əliyevin portretini böyük şəxsiyyətin aşağıdakı sözləri tamamlayır: "Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir".

* * *

...Müasir dünya yalnız iqtisadi, sosial-siyasi münasibətlər dünyası deyil, həm də etnik münasibətlər (və münaqişələr!) dünyasıdır. Odur ki, bu və ya digər bir xalqın millətlər yarışında öncül sıralarda getməsi üçün tarixən qazandığı etnik potensialdan tələb olunan səviyyədə istifadə etməsi lazım gəlir.

Azərbaycan xalqı – azərbaycanlılar dünyanın müxtəlif ölkələrində – Azərbaycan Respublikasmda, İranda, Rusiyada, Türkiyədə, Gürcüstanda, ABŞ-da, İngiltərədə, Almaniyada, Fransada, Skandinaviyada, Baltikyanı ölkələrdə və digər yerlərdə yaşasalar da, onları bir-birinə bağlayan olduqcə möhkəm mənəvi-ideoloji vasitələr vardır: bu, ana dilidir, ata yurdu - Vətəndir, tarixən formalaşmış

etnik-mədəni sistemdir... Və milli liderdir!.. Müşahidələr göstərir ki, Heydər Əliyevin siyasi fəaliyyətində müstəqil Azərbaycan dövlətinin daxili möhkəmliyini, xarici (beynəlxalq) nüfuzunu qorumaq nə qədər möhtəşəm yer tutursa, Azərbaycan xalqının dünya azərbaycanlılarının milli birliyi, dünya xalqları içərisində özünəlayiq mövqe qazanması uğrunda mübarizə də o qədər mühüm əhəmiyyət daşıyır. Görkəmli dövlət xadimi dəfələrlə qeyd etmişdir ki, müstəqil Azərbaycan Respublikasının inkişafında dünyanın müxtəlif ölkələrinə yayılmış azərbaycanlıların həmrəyliyi, mənəvi-ideoloji, siyasi köməyi böyük rol oynayır – bir xalq olaraq əsas vəzifələrimizdən biri həmin həmrəyliyi gücləndirməkdən, həmin köməyin daha ardıcıl, daha intensiv xarakter almasını təmin etməkdən ibarətdir. Dünyanın müxtəlif ölkələrinə səfərlərində Azərbaycan icmalarının nümayəndələri ilə görüşüb onlara hərtərəfli dəstək verən Azərbaycan Prezidenti dünya azərbaycanlılarının konsolidasiyası, milli birliyi uğrunda mübarizəni müstəqil Azərbaycan dövlətinin siyasəti səviyyəsinə qaldırmışdır.

Müasir dünya artıq ümumbəşəri dəyərlərlə yaşadığını çox tez-tez bəyan etsə də, reallıq çox zaman bunun əksini göstərir – son illərin beynəlxalq təcrübəsi dönə-dönə sübut etdi ki, milli ehtiraslar dünyanın siyasi xəritəsini dəyişməyə, böyük fəlakətlər törətməyə qadirdir. Qonşu xalqların ərazisinə göz dikən, hay-küy salaraq öz kiçik problemlərini böyük ölkələrin parlamentlərində, beynəlxalq forumlarda vaxtaşırı müzakirə etdirən, bu yolla dünyanın zəhləsini tökən "narahat" xalqların cılız etnik hissələri Yer kürəsinin normal xalqlarından ehtiyatlı olmağı tələb edir. Ümumən türk xalqlarına, xüsusilə azərbaycanlılara qarşı amansız hücuma – "səlib yürüşü"nə başlamış erməni faşistlərinin başını dumanlandıran da həmin hisslərdir. Odur ki, beynəlxalq siyasi həyatın özü dünya xalqlarının birlikdə yaratdıqları ümumbəşəri dəyərlərə hörmət etməklə yanaşı, milli birliyə nail olmağı, düşmənə qarşı birgə çıxış etməyi, birgə müdafiə olunmağı tələb edir.

Müşahidələr göstərir ki, dünya azərbaycanlılarının həmrəyliyinə təkan verən ilk hadisə də Azərbaycan dövlətini (və dövlətçiliyini) gözləyən təhlükə oldu. Erməni qəsbkarlığına qarşı

mübarizədə formalaşan həmin həmrəylik lazımi miqyas alıb tələb olunan effekti verməsə də, hər hansı milli təhlükə qarşısında birləşməyin ilk böyük təcrübəsini verdi. Lakin etiraf etmək lazımdır ki, bu, stixiyalı, inersiyalı bir həmrəylik idi, hələ ideoloji məzmun kəsb etməmişdi. Bunun üçün böyük ideologiya (və həmin ideologiya ilə silahlanmış milli lider!) lazım idi.

Heydər Əliyev dünya azərbaycanlılarının həmrəyliyi, milli birliyi uğrunda mübarizəyə respublikaya – Naxçıvana qayıtdığı ilk aylardan başladı. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qərar verdi. Həmin qərarın qəbul edilməsi Ali Məclisin sədri Heydər Əliyevin bilavasitə təşəbbüsü idi. 1991-ci ilin 31 dekabrı Naxçıvanda müxtəlif ölkələrdən, xüsusilə İrandan, Türkiyədən gəlmiş azərbaycanlıların iştirakı ilə bayram edildi. Naxçıvan MR Ali Məclisinin qərarı Azərbaycan Respublikası Ali Soveti tərəfindən rəsmən müdafiə edilsə də, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycan Respublikası miqyasında yalnız 1993-cü ildə (yenə də Heydər Əliyevin təşəbbüsü ilə) qeyd edildi.

...Azərbaycan Prezidenti bununla kifayətlənməyərək, xarici ölkələrə səfərlərində azərbaycanlılarla görüşməyə xüsusi diqqət yetirməklə, onların nəzərinə çatdırdı ki, formalaşmaqda olan Azərbaycan dövlətinin bütün azərbaycanlılara ehtiyacı var... Və bunun nəticəsi idi ki, Azərbaycan Prezidenti rəsmi səfər etdiyi ölkələrdə (hətta qonşu ölkələrdə də) yaşayan azərbaycanlılar həmişə böyük məmnunluq hissi ilə onun görüşünə gəlmiş, səfərdən sonra isə həmin azərbaycanlıların həm bir-biri, həm də Azərbaycan Respublikası ilə əlaqələri genişlənmişdir.

...Dünyada nə qədər azərbaycanlı olduğunu dəqiq demək çətindir. Təxmini hesablamalara görə, müxtəlif ölkələrdə 50 milyona qədər azərbaycanlı yaşayır ki, bunların 10 milyona qədəri azərbaycanlıların tarixi vətənindən kənarda, onlarla ölkədə məskunlaşmışdır. Həmin ölkələr içərisində əsas yeri Rusiya, Ukrayna, ABŞ, Almaniya, Fransa, Hindistan, Pakistan, İsveç, Norveç, Kanada... tutur.

Şübhəsiz, azərbaycanlıların milli həmrəyliyinin həm miqyasca, həm də keyfiyyətcə əsasını Azərbaycanın Şimalı və Cənubu arasındakı əlaqə təşkil edir. Bu olduqca mürəkkəb etnososial, etnosiyasi hadisədir... Məlum olduğu kimi, Azərbaycanın Cənubunda, yaxud İran Azərbaycanında 30 milyona yaxın azərbaycanlı yaşayır ki, onların ana dilində məktəbləri, milli düşüncələrini ifadə etmək, inkişaf etdirmək üçün sosial-siyasi təsisatları yoxdur. Onlar İran İslam Respublikasının vətəndaşıdırlar. Lakin etiraf etmək lazımdır ki, İranda – öz tarixi vətənində yaşayan on milyonlarla azərbaycanlı milli müqəddəratın təyin olunduğu XX əsrdə dəfələrlə siyasi müstəqillik uğrunda mücadiləyə qalxmışdır. Bu gün də İran azərbaycanlılarının azadlıq eşqi kifayət qədər yüksəkdir. Bununla belə, İranda azərbaycanlıların mütəşəkkillik problemi vardır – burada söhbət ondan gedir ki, milli (və demokratik!) dövlətin olmaması xalqın etnososial birliyinin siyasi-ideoloji səviyyədə özünümüdafiəsinə imkan verməmişdir. İş o yerə gəlib çıxmışdır ki, bu gün İranda hələ xalq kimi formalaşmamış, ümummilli düşüncəyə yiyələnməmiş türk-Azərbaycan tayfaları mövcuddur... Əlbəttə, beynəlxalq prinsiplərə görə, Azərbaycan dövlətinin İranın daxili işlərinə qarışmaq səlahiyyəti yoxdur (və dövlət tərəfindən həmin prinsipə ciddi əməl olunur!), lakin on milyonlarla insana öz milli müəyyənliyini, etnik xarakterini unutdurmağa çalışmaq da heç bir beynəlxalq prinsipə uyğun gəlmir... Azərbaycanın Şimalı və Cənubu arasındakı münasibətlərin inkişafına bir də ona görə ehtiyac vardır ki, bugün Qərb ölkələrində məskunlaşan azərbaycanlıların əksəriyyəti məhz Cənubdandır. Şimalla cənub arasındakı etnokulturoloji, etnosiyasi münasibətlər normal olmasa, Qərb ölkələrindəki azərbaycanlılar özlərini hər iki Azərbaycanın övladı saymağa çətinlik çəkə bilərlər. Bizim fikrimizcə, tarixi Azərbaycanda etnik-ideoloji həyatın sabitliyi İran İslam Respublikasını daha çox maraqlandırmalı, özünü doğrultmayan "milləti-İran" siyasətindən əl çəkib, İran azərbaycanlılarının öz etnokulturoloji sistemləri daxilində sivil qaydalara uyğun olaraq inkişafları üçün şərait yaratmalıdırlar.

...Azərbaycanlıların tarixi vətəni yalnız Azərbaycanın Şimalı ilə Cənubundan ibarət deyil, artıq deyildiyi kimi, həmhüdud regionlarda – Türkiyədə, Gürcüstanda, Dağıstanda, İraqda yaşayan azərbaycanlılar da öz tarixi vətənlərindədirlər. Azərbaycan Respublikası (və Azərbaycan Prezidenti) həmin azərbaycanlılara xüsusi diqqət yetirir, onların problemləri ilə daim maraqlanır. Birinci növbədə Gürcüstan, Dağıstan azərbaycanlıları ilə... Əslində, onlar da özlərini Azərbaycandan heç zaman ayrı təsəvvür etməmişlər.

Dünya azərbaycanlılarının həm mədəni, həm ideya-siyasi baxımdan fəal hissəsini Qərb ölkələrində, o cümlədən Rusiyada yaşayan azərbaycanlılar təşkil edir. Onlar xüsusilə son illər, birinci növbədə müstəqil Azərbaycan dövlətinin yüksəlişi (və Azərbaycan Prezidentinin mübarizəsi!) nəticəsində, etnik-mədəni, sosial-ideoloji baxımdan təşkilatlanmağa, hətta bu və ya digər dərəcədə lobbiçilik fəaliyyəti ilə məşğul olmağa başlamışlar. ABŞ-da, Fransada, Almaniyada, İngiltərədə, Skandinaviya ölkələrində də Azərbaycan diasporu kifayət qədər inkişaf etmiş, müxtəlif mədəniyyət mərkəzləri yaradılmışdır ki, onlar Azərbaycan dilinin, ədəbiyyatının, incəsənətinin dünyada tanınmasında, müstəqil Azərbaycan ideallarının beynəlxalq səviyyədə müdafiəsində müəyyən xidmətlər göstərirlər. Hər şeydən əvvəl, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə tarixi (və müasir!) həqiqətin dünya ictimaiyyətinə çatdırılmasında onların üzərinə böyük vəzifələr düşür.

...Azərbaycan Prezidentinin dəfələrlə qeyd etdiyi kimi, əgər Azərbaycan belə bir münaqişənin, müdaxilənin predmeti olmasaydı, indi daha sürətlə inkişaf edib, dünyanın müasir səviyyəli ölkələrindən, güclü dövlətlərindən birinə çevrilmişdi. Ermənistanın azərbaycanlılara qarşı təcavüzü artıq regional hüdudları keçib planetar səciyyə daşımağa başlamış, dünyanın müxtəlif ölkələrində məskunlaşmış, siyasi nüfuza, geniş maddi imkanlara malik ermənilər həmin məsələni vətəndaşı olduqları ölkənin dövlət orqanlarında, parlamentlərində öz xeyirlərinə həll etməyə çalışmaqla artıq xeyli siyasi tərəfdarlar tapmağa nail olmuşlar. Həmin ölkələrin gənc Azərbaycan diasporu isə heç bir məhdudiyyət, prinsip gözləməyən əxlaqsız erməni təbliğatına müqavimət göstərməkdə

çətinlik çəkir. Çox zaman erməni mövqeyinin müdafiəsi işini məhz erməni kilsəsi öz üzərinə götürdüyündən həmin mübarizə, münaqişə dini-ideoloji xarakter alır... İslam dini isə ümumbəşəri bir dünyagörüşü formasıdır, etnik, yaxud milli münaqişələrə qarışmır, daha çox mənəvi-əxlaqi problemlərlə məşğul olur. Lakin xüsusi sübuta ehtiyac yoxdur ki, İslam dini (bizim dinimiz!) bizim xalqımızı qorumalıdır; yalnız ümumi şəkildə deyil, beynəlmiləlçilik düşüncəsi ilə deyil, konkret şəkildə qorumalıdır. Və bunun üçün biz dinimizin imkanlarından istifadə etməliyik... Azərbaycan xalqının – azərbaycanlıların milli-mənəvi xarakterinin əsaslarından birincisini türkçülük təşkil edirsə, ikincisi, heç şübhəsiz, İslam dinidir.

... Dünyanı idarə etmək məsuliyyətini öz üzərinə götürmüş beynəlxalq təşkilatlar, siyasi xadimlər Qafqazdakı münaqişələrin həllində Azərbaycan Prezidentinin nüfuzuna ümid edirlər. Ona görə ki, Heydər Əliyev dünya ictimaiyyətinin nəzərində belə bir böyük siyasi nüfuzu qazanmışdır. O, dəfələrlə beynəlxalq miqyaslı problemlərin müzakirəsində iştirak etmiş, həlledici fikirlər söyləmişdir. Heydər Əliyev yalnız Azərbaycanın, ümumən azərbaycanlıların rəhbəri deyil, dünyanın gələcəyi üçün məsuliyyət daşıyan böyük ictimai-siyasi xadimlərdəndir... Lakin yer üzündə mövcud olduqları müddətdə bir nəfər də olsun normal düşüncəli dövlət xadimi yetirə bilməyən ermənilərin xarakteri, münaqişəyə qoşulma maneraları, ondan istifadə "bacarıq"ları elədir ki, normal, müasir düşüncə ilə onlara cavab vermək, prinsip etibarilə, mümkün deyil. Bu gün ermənilərlə konstruktiv söhbət aparmaq üçün heç bir şərait yoxdur. Elə bir adam, təşkilat tapmaq mümkün deyil ki, bu millətin adından danışmaq səlahiyyətinə malik olsun, özünü ermənilərin lideri olaraq sərbəst, orta əsrlərdə formalaşmış erməni mifindən azad hiss edərək ikitərəfli, yaxud çoxtərəfli danışıqlar apara bilsin. Ona görə ermənilərlə danışığın çox az şey verəcəyini nəzərə alan Heydər Əliyev bütün diqqətini müvəqqəti sülh şəraitində Azərbaycan dövlətçiliyini sürətlə inkişaf etdirməyə, düşmən üzərində taktiki yox, məhz strateji qələbə qazanmağa vermişdir. Doğrudan

da, yalnız Azərbaycanı deyil, bütövlükdə dünyanı mənfur erməni mifindən xilas etməyə artıq böyük ehtiyac vardır... Ermənilərin onlara sığınacaq vermiş, ərazilərində dövlət yaratmaq üçün şərait yaratmış azərbaycanlılara növbəti xəyanəti dünya xalqlarına, dünya "əfkari-ümumiyyə"sinə nə qədər tez çatsa, dünya onu gözləyən fəlakətdən o qədər tez qurtaracaqdır.

... Azərbaycanlıların beynəlxalq həmrəyliyi yalnız Azərbaycan xalqı (və dövlətçiliyi) üçün böyük siyasi əhəmiyyət kəsb etmir, həm də tarixi Azərbaycan regionunda, ümumən dünyada siyasi-ideoloji harmoniya yaratmaq prosesində fəal iştirak etmək üçün geniş imkanlar açır.

Azərbaycanın itirilmiş torpaqlarını müharibə yolu ilə qaytarmaq barədə son illər müxtəlif təkidli tələblər irəli sürülür... Əlbəttə, bu tələblərə yalnız ilk baxışda ciddi yanaşmaq mümkündür. Əslində isə, bu gün dünya müharibə, zor dili ilə damşmağı qəbul etmir. Və bu gün dünyada gedən müharibələr, – əlbəttə, bunları klassik mənada müharibə hesab etmək olmaz, – faktiki olaraq heç nəyi həll edə bilmir. Bunun klassik nümunəsi Çeçenistandır... Bu gün dünyada qarşısıalınmaz bir sürətlə ideoloji müharibə gedir. Və ermənilər bunu bizdən yaxşı bilirlər... Elə əvvəlcədən ciddi müharibə etməyiblər – bizim torpaqlarımızın itirilməsi Ermənistanın apardığı qalibiyyətli müharibənin nəticəsi deyil. Ermənilər qarşı tərəfin hazırsızlığından, siyasi-ictimai cəhətdən mütəşəkkil olmamasından istifadə edib qarışıqlıq saldılar, Azərbaycanın Moskvadakı düşmənlərini hərəkətə gətirdilər, dünya ictimaiyyətini aldatdılar və istədiklərinə müvəqqəti də olsa çatdılar... Azərbaycan xalqı ermənilərə ideoloji müharibə elan etməli, onların iç üzünü açıb bütün dünyaya göstərməlidir. Dünya bilməlidir ki, yalnız Qarabağ deyil, Ermənistan adı ilə tanınan ərazi də son dövrlərə qədər azərbaycanlılara məxsus olmuşdur.

Azərbaycanhların dünyadakı milli tarixi mövqelərini bərpa etmək, Azərbaycan xalqının beynəlxalq hüquqlarını qorumaq üçün

dünyanın hər yerində yaşayan azərbaycanlıların birləşməsi artıq elə bir tarixi zərurətdir ki, bunsuz milli iradəni bütün gücü ilə ifadə etmək mümkün deyil.

Dünya azərbaycanlılarının milli lideri Heydər Əliyev 2000-ci ilin 22 iyununda azərbaycanlıların Moskvada keçirilən umumrusiya konqresindəki nitqində demişdir ki, "xalqımız istedadlı, bacarıqlı xalqdır. Xalqımızın bütün tarixi buna parlaq sübutdur. Lakin mən Azərbaycanda işlədiyim əvvəlki vaxtlarda həmişə demişəm ki, öz ərazisinin hüdudları, sərhədləri daxilində qapanıb qalan heç bir xalq bütün dünya ictimaiyyətinin, bütün dünya sisteminin sürəti ilə inkişaf edə bilməz. Yəni mən həmişə milli məhdudluq hisslərinin əleyhinə olmuşam... Yeri gəlmişkən, güman edirəm, dünyada elə adamlar var ki, onlar öz genlərinə görə çox qabiliyyətli doğulurlar və öz inkişafında dahi ola bilərlər, lakin yalnız ona görə dahi olmurlar ki, doğulduqları yerin, yaxud yaşadıqları ölkənin hüdudlarından kənara çıxmırlar...". Şübhəsiz, dünyanın hər hansı nöqtəsində baş verən hadisələrin beynəlxalq səviyyədə rezonans verdiyi müasir dövrdə öz içinə qapılıb yaşamaq, özünü "Çin səddi" ilə dünyadan təcrid etmək heç bir xalqa, o cümlədən də azərbaycanlılara xeyir gətirmir. Dünyaya yayılmaq, dünya mədəniyyətinin uğurlarına yiyələnmək, genetik istedadın verdiyi imkanları reallaşdırmaq lazımdır. Bu, dünya azərbaycanlılarının liderinin (və tarixin) tələbidir...

Azərbaycanlılar müxtəlif ölkələrdəki icmaları, diasporları lobbiçilik fəaliyyətində türk xalqlarının müvafiq təşkilatları ilə sıx əlaqə saxlamalı, birgə çalışmağın metodlarına yiyələnməlidirlər. Etiraf edək ki, Türkiyə türklərinin, tatarların, özbəklərin, qazaxların... da bu sahədə o qədər böyük təcrübəsi yoxdur. Bununla belə, türk dünyası, bütün mövcud problemlərə baxmayaraq, azərbaycanlıların öz milli ideallarını həyata keçirməsində ən etibarlı kontekst, ən münasib etnososial mühitdir.

...Bu gün təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif yerlərində ulu öndərin əziz xatirəsi böyük hörmətlə anılır və bu məqsədlə müxtəlif tədbirlər keçirilir. Bütün bunlar bir daha təsdiqləyir ki, Heydər Əliyev türk dünyasının fəxridir.

Nizami CƏFƏROV,
Azərbaycanda Atatürk Mərkəzinin müdiri,
Azərbaycan MEA-nın müxbir üzvü, professor,
millət vəkili

AZƏRBAYCAN: HEYDƏR ƏLİYEVDƏN İLHAM ƏLİYEVƏ

Çağdaş Azərbaycan dövlətini qurmaq missiyasına ümummilli lider Heydər Əliyev "Öz ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" söyləməklə başlamışdı.

Azərbaycanın müstəqilliyi Tanrının xalqımızın gələcəyinə verdiyi bir şans, istək və arzularına açdığı yol idi. Və nə yaxşı ki, Heydər Əliyev kimi böyük mütəfəkkir həmin şansdan istifadə edərək xalqını da öz arxasınca bu yolla apara bildi.

Xalq seçdiyi, ümidvar olduğu Öndərin bu tarixi quruculuq missiyasından Azadlığını və Liderini qazandı. Və yeni dövlətçiliyin ən yeni tarixi də məhz həmin andan yazılmağa başlandı...Tarixi yaradan da, yazan da O özü idi. Biz ancaq müşahidələrimizi söyləyə və yaza bilirik.

Böyük Heydər Əliyev itkisi ilə barışmaq mümkün deyil. Hətta "itki" sözünün özü bu çatışmazlığı heç cür əhatə etmir. Bu gün Onun bizimlə birlikdə olmamasından nə qədər acılar duysaq da, hər halda, təssəlli də bir o qədər böyükdür. Heydər Əliyev yaratdığı müasir Azərbaycan dövlətinin özü kimi əbədidir. Bu, yalnız siyasətçilərin, toplumun düşüncəsi deyil, zamanın qənaətidir!

Azərbaycan xalqı əsrlər boyu bir-birindən ağır tarixi sınaqlardan keçib və öz müqəddəratını şərəflə həll edib. Millətin mübarizələrlə zəngin ömürlüyündə qazancı da, itkisi də azadlıq idealı kimi böyük olub. Vətənin ikinci müstəqillik dövründə isə iki milli əhəmiyyətli sınaqla üz-üzə gəldik və xalq yenə də, bu olduqca mürəkkəb məqamlarda son dərəcə müdriklik nümayiş etdirdi.

XX yüzilliyin əvvəllərində olduğu kimi, sonlarında da hadisələrin və gəlinən qərarların arxasında millətin qüruru dayanmışdı. Sovetlər birliyinin dağılması ilə bir arada Azərbaycanın qürur və qətiyyət sahibləri bütün vəziyyətlərdə reallığı nəzərə alaraq öz düşüncəsi, iradəsi ilə hərəkət edərək ürək Sözünü dedi.

Xalq 1993-cü ildə Heydər Əliyevi yenidən özünün alternativsiz rəhbəri olaraq ali hakimiyyətə tələb edəndə nə qədər ağıllı, təkidli hərəkət etmişdisə, üçüncü minilliyin üçüncü ilində İlham Əliyevin şəxsində öz yeni Prezidentini - yeni liderini seçəndə də, o səviyyədə mübarizlik göstərdi.

İlk mərhələdə Azərbaycan xalqı dövlətçiliyin xilaskarının missiyasından lazımınca bəhrələnərək öz varlığını, Vətənin müstəqilliyini qorudu və milli dövlətini qurdu.

İkinci mərhələdə isə Azərbaycan cəmiyyəti böyük zəhmətlər, ağrı-acılar bahasına yaradılmış ideoloji ənənə və dövlətçilik təcrübəsini dağılmağa, müstəqilliyi naməlum talenin oyunları ilə üz-üzə qalmağa qoymadı. Bu, müasir Azərbaycanda siyasi varislik ənənəsinin nə qədər ehtiyac duyulan həyati məsələ olduğuna mükəmməl sübut idi...

İlham Əliyev siyasi meydanda çoxdan olsa da, tam aydınlığı ilə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri qismində vətənpərvər fəaliyyəti ilə nəzərə çarpıb. Sonradan isə cəmiyyət onu Baş nazir kimi qəbul etdi. Və unutmamalıyıq ki, Avropa Şurası ölkəmiz üçün beynəlxalq aləmə açılan pəncərədir. Bununla yanaşı, Azərbaycana qarşı geniş təbliğat kampaniyası aparan erməni diasporunun bəzi iri xarici dövlətlərdə güclü təsirləri görünürdü. Belə bir zamanda ölkəmizi Avropada təmsil edəcək heyətə elə bir geniş və müasir dünyagörüşlü şəxs lazım idi ki, dünyada gedən siyasi proseslərindən düzgün baş çıxara bilsin...

Əslində, bu qədəmisayalı başlanğıc Heydər Əliyev siyasi, ictimai, əxlaqi məfkurəsi və mədəniyyəti üzərində formalaşmış, Avropa və Şərq dəyərlərinin sintezindən yaranan, monolit kökü olan özünəməxsus siyasi əxlaqın – mədəniyyətin gəlişidir. Siyasi düşərgəyə, cəmiyyətimizin idarəçiliyinə yeni ictimai ruhun gəlişi

yeni ideyaların axını deməkdir. Bütün bunların bəhrəsi isə təkcə əldə olunmuş inkişaf tempini qoruyub saxlamaq deyil, həm də qazanılacaq yeni uğurlar, yeni təcrübə deməkdir.

Prezident İlham Əliyevin keçdiyi mənəvi, mədəni, intellektual, siyasi məktəb bütöv bir tarixdir. Həmin tarixi dönəmin taleyüklü imtahanları isə Vətənin müstəqilliyinin ilk illərinə düşüb. Ölkənin ən çətin, ziddiyyətli anlarının qarışıq mənzərəsini ifadə edən 1993-cü ildə dövlətçiliyin itirilməsi təhlükəsi az qala reallığa çevriləndə, deyəsən, Tanrı dönüb Azərbaycana baxmağa macal tapmışdı. Xalqın müdrik Heydər Əliyev qüdrətinə tapınması taleyin tanıtdığı yeganə, düzgün ünvan idi.

Müharibə alovunu söndürmək – hər ocağa, ailəyə, gündəlik həyatımıza yerikən qan izini kəsmək lazım idi. Və bununla bahəm, ideoloji zəminli görüləsi – həllini gözləyən işlər çox idi. Öndə ABŞ və Qərb ölkələri ilə səmimi münasibətlər qurmaq, dünyada Azərbaycan haqqında sülhsevər bir imic yaratmaq vəzifəsi dururdu. Siyasi dövlət sisteminin əsasları qoyulmalıydı...

Gələcəyin lideri İlham Əliyev müxtəlif dövlətlərin siyasi xadimlərinin çeşidli mülahizələri ilə müşayiət olunan proseslərdə, tez-tez dəyişən olayların çevrəsində dünya şöhrətli atasının bütün fərdi və ideoloji qənaətlərini onunla birgə yaşayırdı.

Öndər Heydər Əliyev ölkəsinin, müstəqilliyinin on ili ərzində milli, dünyəvi quruluş formasiyasını seçən Azərbaycanın bu gününün və sabahının üç ana prinsipini, ideya istiqamətini müəyyənləşdirmişdir:

Azərbaycançılıq, Millilik, Demokratizm!

Xalqın Lideri düz iki müddətlik Prezidentliyi dövründə dövlətçiliyə yaradıcı münasibətini bu prinsiplər üzərində qərarlaşdıraraq bütöv bir nəslin tərbiyəsini və effektli təcrübə toplamasını reallaşdırdı. Böyük irs və zəngin ənənəli siyasi məktəb yaratdı.

Azərbaycançılıq prinsipi milli dövlətçilik ideologiyasının mərkəzi qollarındandır. Özünütanımada ilkin məqsədlərdən biri kimi, ana dilinin hüquqlarının qorunması, inkişaf etdirilməsi, gələcək nəsillərə sağlam formada ötürülməsi azərbaycançılığın özəyində dayanan amillərdən hesab olunur. Öndər Heydər Əliyev "Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola

bilməz" kəlamını söylərkən millətə öz mənəvi xəzinəsi ilə fəxr etməyi öyrədir, doğma dilin əsrlərin burulğanında itirilməməsinə, gözəlliyini saxlamasına görə gənc nəsildə əcdadlarımıza qarşı minnətdarlıq hissi aşılayırdı. Və nəticə etibarilə, bu baxımdan ötən əsrin son onillikləri Azərbaycan dilinin gərgin tarixi proseslərdən keçərək yaşamasında müstəsna rolu olan dövrlərdir.

Həyati proseslərdən birincisi, dilimizin praktik olaraq dövlət dilinə çevrilməsi prosesi isə doğrudan da imperiyanın qan-qan deyən vaxtlarının – 70-ci illərin nailiyyəti idi. Bu da unudulması çətin olan bir əlamətdar tarixdir.

Ancaq bununla belə, ana dilimizin ölkə daxilində ümumişlək səviyyəyə çatması, rəsmi, itqtisadi, beynəlxalq sistemə keçməsi – tarixi haqqını tam əldə etməsi müstəqillik dövründə məhz Heydər Əliyevin dil siyasətinin konkretliyindən və ciddiliyindən irəli gəlirdi. O, prinsipial mövqeyi ilə Azərbaycan dili məsələsini daim gündəlikdə saxlayır, onun təkmilləşdirilməsi və tətbiqi işini sürətləndirmək barədə mühüm, gələcəyə hesablanmış sənədlər imzalamışdır. Bu sənədlər müasir dövrdə milli dövlətimizin müstəqilliyinin dönməzliyinin mühüm səciyyəsindən biri olaraq, dil siyasətində əsaslı metodoloji, ideoloji məzmunu təmin etmişdir. Və müxtəlif mahiyyətə uyğun tədbirlər dilimizin coğrafiyasının genişlənməsinə, ümumtürk məkanında nüfuzunun artmasına etibarlı baza yaratmışdır.

Dövlət quruculuğunda ana dilinin gələcəyi barədə meydana çıxarılmış proqram xarakterli təməl prinsiplər və mülahizələr bu gün ideoloji keyfiyyətini elmi-kulturoloji cəhətdən durmadan təkmilləşdirməkdədir. Bilməliyik ki, elmin, mədəniyyətin, ədəbiyyatın, anadilli təhsil sisteminin təkamülünü dövlət quruculuğu prosesinin tərkib hissəsinə çevirən monolit ideyalar bizim üçün ötən onillikdən ən qiymətli mirasdır. Bu irs Azərbaycanın milli humanitar siyasətinin dünya harmoniyasına qovuşmasını gerçəkləşdirir.

Bu gün dil siyasətinin yeridilməsi prosesinə Prezident İlham Əliyev milli-mənəvi, ideoloji məsələ kimi baxır. İndi biz mövcud siyasətin müqabilində dilimizin elmi-tarixi cəhətdən perspektivini aydın təsəvvür edə bilirik.

Azərbaycançılıq ideologiyası üçün müstəqilliyin tarixi-mənəvi tələblərindən biri də dünyanın müxtəlif yerlərində yaşayan və fəaliyyət göstərən azərbaycanlıların, əsasən bu ideya ətrafında birləşməsidir. Bu istiqamət bütün dünyada yaşayan azərbaycanlıların milli-mənəvi, tarixi maraqlarını ifadə edən məsələ kimi, müasir dövlətçilikdə önəmli, halal yerini almışdır.

Vaxtilə Prezident Heydər Əliyev birmənalı şəkildə Azərbaycan insanına tövsiyə edirdi: "Hər bir azərbaycanlı milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq" -deyərkən, o, bu zaman bütöv xalqın – azərbaycanlı super-etnosun harada və hansı vəziyyətdə olmasını, şəraiti fərqləndirmədən, ümumilikdə onlarda milli duyğuların canlanması işinə bir iradəlilik, sürət impulsu verirdi.

Quruculuğun ilk mürəkkəb dönəmlərində və indiki inkişaf prosesində soydaşlarımızın keçmiş tarixi vətənlərində, eləcə də xidməti və sosial baxımdan bağlı olduqları ölkələrdə təşkilatlanması dövlətimizin qarşıya qoyduğu məqsədlərdən olmuşdur. Bu baxımdan, artıq ənənəviləşmiş effektiv həmrəylik siyasətin timsalında həmişə azərbaycanlıların diaspora şəklində formalaşması məsələsi öncül xətt olaraq ideoloji-tarixi əhəmiyyətini həyat həqiqətinə çevirmiş, qoruyub saxlamış və möhkəmləndirmişdir.

İndiki zamanda Qərb ölkələrində, Amerikada, MDB məkanında və Asiyada məskunlaşmış həmvətənlərimiz Azərbaycan dövlətinin onların üzərində sahiblik hissini gücləndirməsindən şərəf duyurlar. Bu əsnada, daha sıx birləşmək, Vətənin həyatındakı həqiqətlər, qayğılar barədə övladlıq hissilə düşünmək, ölkəmizin dünya birliyində yerinin möhkəmlənməsi uğrunda fəal mübarizə aparmaq gərəkdir.

Bu gün artıq özünü təsdiqləmiş, nəticələri ilə xalqın böyük hissəsinin etibarını əldə etmiş ideologiya Prezident İlham Əliyevin milli birlik, vətənçilik barədə məxsusi düşüncələri ilə daha çevik, yeni məcrada davam və inkişaf etdirilir. Müstəqillik dövrünün tarixi proseslərinin ictimai xarakteri onu göstərir ki, əgər Azərbaycanda Heydər Əliyevin dövlətçiliyə xilaskar baxışları,

müdaxilələri olmasaydı, bu gün dünya azərbaycanlılarının taleyi barədə şübhələr hökm sürərdi.

Azərbaycançılıq kimi böyük ideya dil, mədəniyyət, adət-ənənələrin, xalqın şərəfli tarixinin elmi cəhətdən araşdırılması, öyrənilməsi vətəndaşların həmrəylik istəyi, mütəşəkkilləşmək barədə duyğuları ilə yoğrulmuşdur. Prezident İlham Əliyev indiki və gələcək dövr üçün dövlətin və vətəndaşların, vəzifələrindən danışarkən soydaşlarımızın doğma vətənləri ilə hər cür faydalı əlaqələrdə hüquqi, mədəni, mənəvi əsasların möhkəmləndirilməsini zəruri istiqamət kimi vurğulayır. Prezident dövlətimizin inkişafı müqabilində maddi-mənəvi imkanlardan istifadə edərək dünya azərbaycanlılarının normal səviyyədə bəhrələnməsinə imkan yaratmağı, onların milli və vətəndaş hüquqlarının qorunması yolunda səyləri gücləndirməyi çağdaş dövr üçün vacib amillərdən sayır. Və sözsüz ki, bu zaman Prezident İlham Əliyev ölkəsinin beynəlxalq konvensiyalarla təsbitini tapmış insan hüquqlarının qorunmasını təmin etmək üçün müəyyən təsirli vasitələrə malik olduğunu bəyan edir. O, bu mülahizələrində, mövqeyində möhtərəm Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursa, ideyalara bütün azərbaycanlıların daim sədaqətli qalacağına arxalanır. Milli birliyin formulu da məhz bu kontekstdə real təfsirə qovuşur.

Millilik Prezident İlham Əliyevin siyasi düşüncəsinin, təfəkkürünün əsas mənbəyidir. Onun öz xalqının ruhuna uyğun, eləcə də ABŞ və Qərb təmayyüllü siyasəti Azərbaycanın əzəli milli maraqlarından mayalanır. Bu keyfiyyət bütövlükdə ümumtürk ruhunun tərbiyəsindən gələn bir xarakterdir. Türk ruhumuzun siyasi, milli, əxlaqi, mədəni dəyərləri çoxəsrlik tarixi sınaqlardan alnıaçıq çıxıb. Millətin yaşam proseslərinə qiymət verərkən, təbii ki, türk dünyasının, türk xalqlarının zaman-zaman özəlliklərini saxlayaraq hərtərəfli inkişaf meyllərinə tapınmasından dövlətin də, Prezidentin də, vətəndaşların da bugünkü qürur hissi böyük olmalıdır.

Önəmli odur ki, Azərbaycandakı siyasi, sosial, mədəni xətt doğma dəyərlərə münasibətdə millətin keçmiş dövlətçilik və yaşam təcrübəsindən istifadəyə söykənir. Bu yol müasir dövlətçilikdə vacib, impulsiv, milli strategiya sayıla bilər.

Öndər Heydər Əliyev "Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik" tövsiyəsini bütün türk insanlarına ünvanlamaqla çağdaş həyat üçün əsil milli əqidənin nədən ibarət olduğunu anladırdı. Bu ibrətli tövsiyə üzərində qərarlaşan indiki siyasi istiqamət də düzgün olaraq cəmiyyətin, ümumiyyətlə, həyatın normal səviyyədə inkişafı üçün milliliyi mənbə, zəmin kimi qəbul etmişdir. Eyni zamanda, xalqımızın dünyəvi həyat kredosu sayılan milli-mənəvi xüsusiyyətlər də bu gün müdafiə olunmaqda və daha da əhatələnməkdədir.

Əsrlərin ziddiyyətli olaylarından, maneələrdən salamat qurtulmuş milli, dini dözümlülük, tolerantlıq indi də dövlətimizin və onun rəhbərinin, bütün sağlam qüvvələrin təqdir etdiyi xüsusiyyətlərdir. Prezident İlham Əliyevin bu kontekstdə millətin dininə münasibəti isə belədir: "Biz çox təəssüf edirik ki, dünyanın bəzi dairələrində islamı terrorla eyniləşdirmək istəyirlər. Biz bu cəhdləri pisləyirik. Müsəlman ölkələri tarixdə bir neçə dəfə terrorun qurbanına çevrilmişlər. O cümlədən Azərbaycan dəfələrlə erməni terror təşkilatlarının törətdikləri terror aktlarına məruz qalmışdır. Bu cəhdlər uğursuzluğa məhkumdur. İslam sülh, qardaşlıq, dözümlülük, tolerantlıq dinidir".

Göründüyü kimi, burada dövlət başçısı insanların dini görüşlərinə, milli hisslərinə düzgün qiymət verməyin tərəfdarıdır. O, həm də öz milli-mənəvi düşüncəsinin diqtəsi ilə insanların mənəvi-ruhi baxımdan yaxınlaşmasına maneçilik törədən zərərli düşüncələrin aradan qaldırılmasının təşəbbüskarı olaraq çıxış edir.

Azərbaycanda belə bir siyasət özünü doğrultmuşdur ki, bütün vətəndaşlar dinindən, dilindən, milliyyətindən asılı olmayaraq, hər zaman bərabər hüquqlar çərçivəsində, bir-birinə ehtiram göstərərək yaşamışlar. Bu siyasətin daim möhkəm daxili və xarici dəstək alması, ümumilikdə, iqtidarın, dövlətin rəhbərinin öz millətinə sevgisindən, insanların dincliyini, bir-birinə səmimi münasibət bəsləməsini istəməsindən doğur.

Prezident İlham Əliyevin müasir azərbaycanlı təfəkküründə Vətən və Xalq təəssübkeşliyi, Şərqin müsbət ənənələri, türk mənəvi-əxlaqi dəyərləri, Qərb və Avropa modellərinə münasib

intellekt möhkəm birləşmiş özüldür. O, milli-mənəvi, ideoloji dəyərlərimizin hamısında, mədəni, elmi, etno-kulturoloji, eləcə də yaradıcılıq sahələrində irəliləyişi, mənəviyyat məsələlərinə dövlət himayəsini yalnız və yalnız iqtisadi-sosial tərəqqi ilə ayrılmaz şəkildə bağlayır. Bu, dünyanın ümumi həyatının rəhnidir və hər bir millətin gələcəyində, dövlətin qabaqcıl ölkələrlə eyni hüquqi səviyyədə yaşayıb inkişaf etməyində həlledici amildir. Biz qəlbən rahatlıq hissi keçirməli və ümidvar olmalıyıq ki, xalqın intellektual, mədəni, mənəvi perspektivi Azərbaycanın potensial iqtisadi-sosial rifahına hesablanmışdır.

Millətin ümumi daxili ruhi yüksəlişi, mənəviyyat, mədəniyyət sahəsindəki məsələlərin konseptual bir proqram çərçivəsinə, sistemə salınması da Azərbaycan cəmiyyətində İlham Əliyevin lider kimi tanınmağına əsaslı təsir göstərir.

Eyni zamanda, beynəlxalq aləmin ölkəmizə münasibətində heç vaxt unudulmamışdır ki, dünyəvi istiqamətləri öz həyat prinsipləri seçmiş Azərbaycanın etnik baxımdan möhkəm birliyi təmin olunub və mütəşəkkildir. Bu məmləkətdə yaşayan insanların hamısı, bəzi etnik azlıqlar fərqli mədəniyyətlərə mənsub olsalar da, vətəndaş olaraq Konstitusiya ilə bütün azadlıqlara, hüquqlara malikdirlər. Onlar – milliyyətindən asılı olmayaraq, bir vaxtlar ölkəni tərk edərək dünyanın müxtəlif yerlərində məskunlaşmış insanlarımızın hamısı indi Azərbaycanı özlərinə Vətən bilirlər.

Xaricdə yaşayan soydaşlarımızın mənəvi cəhətdən bağlı olduqları Vətənlə müxtəlif işgüzar, mədəni, elmi, fərdi əlaqələri vardır. Bunu bilavasitə unudulmaz Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Bakıda keçirilən Dünya Azərbaycanlılarının I qurultayı da əməli surətdə sübuta yetirmişdir. Qurultayda qonaq qismində gəlmiş xarici vətəndaşlara o da aydın oldu ki, ölkəmizdə yaşayan azsaylı xalqların hamısı bir super-etnosda vahid hala düşür, ümumi, ancaq rəngarəng bir mədəniyyəti təmsil edirlər. Bütövlükdə isə, Azərbaycan xalqı özünəxas türkçülük, türk mədəniyyəti əsasında bu birləşmənin təbii yekunudur.

Prezident İlham Əliyev idarəçiliyin elə demokratik və optimal yolunu seçmişdir ki, hər bir zəkalı ölkə vətəndaşının dövlətçiliyin inkişafında yeri vardır. Və dövlət quruculuğunda bu

yer hər kəsin məhz vətənpərvərliyinə, biliyinə, sağlam düşüncəsinə, qabiliyyətinə görə müəyyənləşmişdir.

Hələ Prezidentlikdən əvvəl cənab İlham Əliyevin gənclik maraqlarıyla uyğun olaraq Azərbaycanda idmanın intibahını qısa zamanda gerçəkləşdirməsi, mühüm məsələ kimi millətin fiziki və əqli sağlamlığına qayğı ilə yanaşması da sırf milli xarakterlidir.

Dövlət siyasətinə görə, gənclərimizin idman hərəkatına qoşulmasının həyat üçün müsbət məziyyətləri çoxdur. Təbii ki, fiziki hazırlıq həm müharibə şəraitində olan ölkənin vəziyyəti üçün vacibdir, həm də cəmiyyətin mənəvi-ruhi sağlamlığını, yeni nəsillər arasında narkomaniyanın yayılmasına qarşı mənəvi mübarzəni şərtləndirir. Ölkəmizdə müasir idman siyasəti fiziki hazırlıq çərçivəsini genişləndirərək mənəvi təbiətin güclənməsi anlamına keçmişdir və ictimai, ideoloji əhəmiyyətini ilbəil getdikcə artırır.

Olimpiya hərəkatının geniş xarakter alması, mövcud idman bazalarının bərpa olunaraq müasir standartlara uyğun səviyyədə yenidən qurulması, regionlarda yeni idman komplekslərinin tikilməsi dünya idman təşkilatlarının diqqətini Azərbaycana cəlb edə bilmişdir. Beynəlxalq yarışlarda Azərbaycan idmançılarına peşəkar münasibət formalaşmışdır. Ölkəmizin idman sistemində ab-havanın yeniləşməsi idmançılarımızın mötəbər beynəlxalq yarışlarda ürəkaçan nailiyyətlər qazanmasını reallaşdırmışdır. Bütün idman uğurları təsadüflərin deyil, məntiqi, ardıcıl dövlət proqramının ifadəsidir.

Respublikamızın bütün regionlarında möhtəşəm Olimpiya idman komplekslərinin, idman qurğularının beynəlxalq standartlar səviyyəsində tikilməsi, nəticədə yarışların müntəzəm, planlı şəkilə düşməsi dövlətimizin başçısının gəncləri çağdaş dünyanın nəfəs aldığı ideallarla yetişdirmək ideyasından irəli gəlir.

Prezident İlham Əliyevin idman sahəsindəki fəaliyyətinin nəticələrini gördükcə, bunun nə dərəcədə köklü, mənəvi-ruhi, əhəmiyyətli konsepsiya olduğunu dərk edəcəyik. Onun idman sahəsinə, gənclərə qayğısı yeritdiyi siyasətin pyedestalının, özülünün tərkib hissələrindəndir. Və bu gün İlham Əliyevi dövlət

başçısı olaraq xalqın gözündə, beynəlxalq aləmin siyasi arenasında millətin öz sağlam ruhu, zəngin mənəviyyatı yüksəldir.

Prezident İlham Əliyevi müasir insanların, ziyalıların, gənc nəslin fəal surətdə dəstəkləməsi, ona böyük ümidlər bəsləməsi nəticə etibarilə, göz qabağındakı praktik işlərin inikası, perspektivə güclü inam yaratmasıdır. Gəncliyin, xüsusən də ötən əsrin ortalarında dünyaya gələn nəslin düşüncəsində onun siyasətindəki demokratikliyin, milliliyin, intellektin güclü obrazı var. Həmin obrazı tamlaşdıran xüsusiyyətlərin sintezində şəxsiyyətin liderlik əlamətinin formalaşmasında müəyyən nəzəri-praktik amillərin rolu labüd olsa da, bu keyfiyyət əsasən irsi səciyyəlidir.

Üçüncü minilliyin astanasında Heydər Əliyev xalqımıza müraciətində milli düşüncəmizin, ideologiyamızın iç-özül maraqlarını, milli özünüdərkdə təəssübkeşliyin ən tipoloji tarixi nümunəsini ortaya qoymuşdur: "Biz nadir bir irsin varisiyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".

İctimai, idraki və iqtisadi dünya duyumunda bərabər tərəf kimi özünə yer almış millilik mənəvi keyfiyyət olaraq İlham Əliyev siyasətinin prioritetlərindəndir. Və inkişafda həyatın əsl nəbzini görüb duymaq, obyektiv nəticə çıxarmaq — qlobal, həm də milli əhəmiyyətli problemlərin açarı da elə bundadır. Bu və ya digər bütün mənalarda, millətimizin tarixi nailiyyəti olan 15 oktyabr seçimi öz öndəri Heydər Əliyev ideyalarına sədaqətinin təcəssümüdür.

İndi isə biz əminliklə deyə bilərik ki, ölkədə sosial, siyasi, ictimai ehtirasların təbii şəkildə soyumasının davamınca dirçəliş epoxasını yaşayırıq. Millət üçün zəruri odur ki, İlham Əliyev insanlarımızın ürəyində Heydər - Xalq birliyinin qarşılığında özünün milli, Vətənçi, demokratik, humanist, prinsipial obrazını artıq büruzə vermişdir. Bu əlamət xalqın ictimai sevgisini müəyyənləşdirən hazırkı sabitlik və hakimiyyət stabilliyi təqdirində ölkədə Prezidentin potensial tərəqqi vədlərini tam şəffaflığı ilə inandırıcı göstərə bilir.

Demokratizm amili dövlətçilikdə birincilərdən olmaq şərtilə, dünya üçün xüsusilə əhəmiyyət daşıyan anlayışdır. 1993-cü ilin ortalarından başlayaraq ölkədə bütün demokratik prinsiplər bərqərar edilmiş, insan hüquq və azadlıqlarına, siyasi plüralizmə geniş imkanlar açan qanunvericilik bazası yaradılmışdır. Bunu tez bir zamanda, həm də Qərbin onilliklərlə ölçülən demokratiya təcrübəsinin səviyyəsində reallaşdırmaq artıq fövqəladə bir güc deməkdir. Dövlətin rifahı və onun mövqeyinin beynəlxalq arenada qəbul olunması da elə bu problemin həllindən asılıdır.

Demokratik dəyərlərin, ümumi normaların əlamətləri dünya praktikasında real nəticələrilə yaxşı məlumdur. Belə nəticələr Azərbaycanın həm siyasətində, yəni idarə olunmasında, həm də sosial, hüquqi həyatında bir sıra islahatların aparılması, yeni təsisatların yaradılması ilə möhkəm şəkildə bağlıdır. Digər tərəfdən, siyasi plüralizm, mətbuat və söz azadlığı, insan hüquqları da üzvü surətdə demokratik dövlətin özəlliklərini və ölkədəki ictimai-siyasi ab-havanın demokratizmini şərtləndirir.

Azərbaycandakı qanunvericilik bazasının demokratikliyi günün, proseslərin gedişatı müqabilində təbii bir axarda təkmilləşməkdə, səviyyəsini artırmaqdadır. Hətta, xüsusilə vurğulamaq yerinə düşər ki, keçmiş İttifaq məkanındakı müstəqil respublikalarla müqayisədə Azərbaycanda məbuata, azad sözə verilən demokratiya imkanlar daha çoxdur. İndi əsas məsələ odur ki, təqdim olunan, gerçəkləşdirilən demokratik şəraitdən, ümdəsi isə Azərbaycanın dövlət başçısı İlham Əliyevin kifayət qədər aydın demokratizmindən xalqın, ölkənin imicinin yüksəlməsi üçün səmərəli istifadə edilsin...

Müasir Azərbaycan dövləti Heydər Əliyevin rəhbərliyi ilə müstəqil həyatının çətin, ziddiyyətli yaşantılarını çoxdan geridə qoymuşdur. Demokratik quruluşun mahiyyətini göstərən amillərin gerçəkləşməsi sayəsində dövlətimiz bu gün dünya birliyində layiqli yer tutur. Bayrağımız demək olar ki, bütün beynəlxalq təşkilatlarda ucaldılmışdır. Millətimizin daxili potensialı, ictimai düşüncəsi ona imkan verir ki, Azərbaycan demokratizmi heç də digər ölkələrin demokratizmindən geri qalmasın.

Prezident İlham Əliyevin vaxtilə Avropa Şurasında qazandığı sayğı, nüfuz – mötəbər beynəlxalq təşkilatın Parlament Assambleyasının büro üzvü və vitse-prezidenti seçilməsi birbaşa onun dünyagörüşünə, siyasi istedadına, bacarığına söykənsə də, eyni zamanda, Azərbaycan dövlətinin demokratik əsaslar üzərində təşəkkül tapması ilə əlaqədardır. Sevindirici haldır ki, bizim ölkədə də siyasi-iqtisadi sistemin dünya üçün aydın atmosferi əksər məsələlərdə, xüsusən də insan hüquqlarının ardıcıl müdafiəsində yerli demokratiyanı bütün çalarları ilə onilliklərin, hətta yüzilliklərin maneələrini adlamış Qərb demokratiyasına inteqrasiya etdirə və tanıda bilmişdir. Rişələri xalqımızın mənəvi dünyasından su içən demokratik proseslər ilbəil sosial, mədəni, hüquqi, təsərrüfat və digər münasibətlərdə öz dinamikliyini saxlayır, faydasını artırır.

Cəmiyyətin öz həyatında və idarəçiliyində demokratik meyarlara əməl olunması bu dinamikanı bütöv halda dünyanın ictimai, iqtisadi, humanitar sisteminə inteqrasiyanın ən fəal vasitəsinə çevirmişdir.

Dünya siyasətinin ən peşəkar simalarından biri, XX yüzilliyin böyük mütəfəkkir qurucusu Heydər Əliyev bütün vətəndaşlara, o cümlədən müxalifətə açıq siyasi fəaliyyət və özünütəbliğat üçün təhlükəsiz şərait yaratmışdır. İqtidar siyasi əqidəsindən asılı olmayaraq, hər bir vətəndaşa, o cümlədən də müxalifətə söz demək, mübarizə aparmaq azadlığını vermişdir. Amma təəssüf ki, müxalifətin bir hissəsi – radikal qolu dövlətçiliyi parçalamaq üsulunu seçdiyi üçün xırda mənsəb iddiaları, qeyri-mədəni, qeyri-sivil hərəkətləri ilə cəmiyyətdə özünə qarşı ikrah doğururdu.

Prezident İlham Əliyev bu gün eyni demokratizmi davam etdirərkən, bəlkə də bir qədər artırarkən sağlam, eyni zamanda, gənc intellektual düşüncənin, qabiliyyətin, milli təəssübkeşliyin yolunu fəal surətdə açıq elan etmişdir. O, müxalifətlə münasibətdə nümayiş etdirdiyi demokratik, milli, mədəni, əxlaqi səviyyə ilə Azərbaycanın maraqlarını hər şeydən üstün tutduğunu dəfələrlə açıqlamış, avantürist meyillərə əsaslanan müxalif qüvvələri millətin sabahı naminə fəaliyyət göstərməyə, iqtidarla dialoqa dəvət etmişdir.

Ancaq hadisələr göstərdi ki, ölkənin artan beynəlxalq nüfuzu, aparılan demokratik islahatlar, inkişaf tempi – xalq kütlələrində hakimiyyətə olan inamın daha da güclənməsi heç də radikalları qane etmir. Xalq və hakimiyyət arasında münasibətlərdə boşluqların aradan qaldırılması sosial bazası qohum-əqrabalarından ibarət olan müxalifət dairələrin qətiyyən ürəyincə deyil. Çünki vəziyyətin bu cür inkişafı onların nə hakimiyyət iddiasını gerçəkləşdirmir, nə də xalq arasında itirilmiş nüfuzlarını qaytarmır.

İlham Əliyev siyasətinin gücü ondadır ki, daxili dəstəkdən məhrum olan qüvvələrin iradları üçün siyasətində əl yeri belə saxlamır. *Beləliklə, qeyri-obyektiv müxalif dəstənin öz-özünə siyasi meydandan çıxması, iflasa uğraması təbii bir prosesə çevrilir.* Və bu istedad həm də dövlət maraqlarından kənar iddiaların ictimai maraqların dairəsindən çox-çox uzaq olduğunu faş edir. Axı millət özü də yaxşı dərk edir ki, hakimiyyətə can atmaq *məqsədi ilə hər hansı qüvvənin, nəyin bahasına olursa-olsun,* ölkədə sabitliyi pozmaq cəhdləri ümumilikdə cəmiyyətin həyat ritminin pozulmasına gətirib çıxara bilər. Anlaşılan odur ki, *xaosun, anormal vəziyyətin xalqın və dövlətin irəli üçün nə qədər* acınacaqlı olduğu artıq yaşanmış mərhələdir. İndi isə geri yox, irəli *getməyin vaxtıdır. Zəkanı, biliyi, Vətən təəssübkeşliyi hissini* millətin firavan güzəranı yolunda sərf etmək məqamıdır...

İlham Əliyevin *siyasi portretini onun söhbət açacağımız fərdi* obrazının əlamətdar ştrixləri tamamlayır. Və özəllik ondadır ki, həmin cizgilərin genetik qaynaqları Azərbaycan xalqının *özünüdərkində əvəzsiz rolu olmuş bir dahinin ömürlüyündən irəli* gələrək formalaşmışdır. Axı Azərbaycanın daim fəxr edəcəyi Heydər Əliyev obrazı və onun yaşam mühiti mədəni, əxlaqi, ictimai, tarixi təcrübəsilə böyük mənşədir. Belə demək mümkündür ki, bu əlamətlər təkamülə meyilliliyi ilə dövlət idarəçilik sisteminin daxili və beynəlxalq münasibətlərinə də əlavə keyfiyyətlər gətirir:

Ləyaqətlilik – xalqına da, beynəlxalq aləmə də, dosta, düşmənə də münasibətdə, onun siyasətini sevənlə də, qarşı olaraq mübarizə aparanla da davranışda bu xüsusiyyət, həm də əlavə bir təmkinlə müşahidə olunur. Bu daxili şəstin daşıyıcısı kimi, əsas

etibarilə, geniş planda Prezident seçkiləri öncəsi xalq kütlələri ilə təmaslarda, müxtəlif məsələlərə münasibətlərdə qabarıq sezilməyə başlamışdır. Bu, siyasi vəziyyətə, yerli problemlərə, hətta sabitliyi gözü götürməyənlərə münasibətlərdə bir əxlaq nümunəsidir. Halbuki İlham Əliyev xalqın Heydər Əliyevə məhəbbətindən istifadə edərək seçkidə üstünlüklərinə arın-arxayın da yanaşa bilərdi. Amma Prezidentliyə namizəd xalqın öz liderinə – Heydər Əliyevə bəslədiyi məhəbbətə şəxsi ləyaqəti və sevgisi ilə cavab verdi.

Humanistlik – bu, insanlığa məhəbbətdən irəli gələn bir keyfiyyətdir. Prezident İlham Əliyev bilir ki, insanları sevmək, onlara xeyirxahlıq, mənəvi-ruhi, hüquqi, sosial baxımdan problemlərinin həllində doğmalıq göstərmək, dayaq durmaq – layiqli rəhbər olmaqdır. Belə yanaşmanı ondan umanların hamısı, suçu əvəzində münasib cəzaya layiq olanlar da, intellekt cəmiyyət də, hətta müxalifət də görür. O, *bağışlamağı bacarır*, özü də ağır günah işlətmişləri belə – müəyyən dərəcəli ciddi səhvlərə yol vermiş *vətəndaşlara həyat haqqında* yenidən düşünməyə, özünütərbiyəyə şans verir.

Vətənpərvərlik – hələ millət vəkili olaraq Avropa Şurasında nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti onun haqqında bu imici yaratmışdı. İlham Əliyev dünyam bir həqiqətə inandırmağa çalışır ki, Ermənistan terrorçu dövlətdir, Azərbaycanın ayrılmaz hissəsi olan zəbt etdiyi Dağlıq Qarabağ ərazisindən narkotik maddələrin tranziti və biznesi məqsədilə istifadə edir. Bu isə təkcə Azərbaycan, Cənubi Qafqaz üçün deyil, bütün dünyaya təhlükə mənbəyidir. İlham Əliyev Avropa Şurası kimi mötəbər qurumun üzvü olan ölkələrin hamısına üz tutaraq bu suallara cavab istəyir: "Ermənistan Avropa Şurasının üzvü ola-ola beynəlxalq hüququn normalarına məhəl qoymaya bilərmi? Ermənistan Avropa Şurasının üzvü ola-ola digər AŞ üzvünün ərazilərini on ildən artıq bir müddətdə işğal altında saxlaya bilərmi? Ermənistan on ildən artıq müddətdə digər AŞ üzvünün qaçqın və köçkünə çevrilmiş bir milyondan artıq vətəndaşının insan haqlarını açıq-aydın poza bilərmi?"

Amma Avropa Şurası hələ də suallar ətrafında düşünməyində davam edir.

Beynəlxalq aləm bilir ki, millət, torpaq barədə, Vətənimizin işğalçı Ermənistan tərəfindən zəbt olunmuş 20 faiz ərazisinin azadlığı məsələsində Prezidentin düşüncələri sərt və haqlıdır. Ancaq, eyni zamanda, bəllidir ki, İlham Əliyev də atası kimi, ilk öncə, sülhə daha böyük üstünlük verir. Həm də bəyan edir ki, məcburiyyət qarşısında qalanda heç sülh danışıqları da yeganə vasitə deyil.

Bütün hallarda, həqiqətdə xalqa o lazımdır ki, ölkənin ərazi bütövlüyü bərpa olunsun, isti yurd-yuvasından perik düşmüş insanlarımız doğma ellərinə qayıtsınlar. Xalq istəyir ki, sabahın tələblərini yaxşı duyan, bu günün reallıqlarını dürüst qiymətləndirən iradəli və vətəninə sadiq bir insan dövləti, cəmiyyəti idarə etsin. Millətin özü də onu irəli aparan liderlə birlikdə yüksəlsin.

Qayğıkeşlik – on il deputat seçildiyi ərazi onun himayədarlığını kifayət qədər hiss etmişdir. İlham Əliyev bəlkə də onları nəinki mənəvi-sosial sıxıntılarla üz-üzə qoymamış, daim seçiciləri ilə müntəzəm görüşlər keçirərək ümumi əhval-ruhiyyənin yüksəkliyinə nail olmağa çalışmışdır. Çadır düşərgələrində yaşayan qaçqınların və məcburi köçkünlərin məişət, sığınacaq, güzəran qayğıları da İlham Əliyevin nigarançılığına səbəb olan məsələlərdəndir. Bu zavallı insanların yaşam tərzinin yüngülləşdirilməsi, normal səviyyədə istiliyi, işığı olan ev-eşiklə təminatı onun can yanğısı ilə əhatələnmişdir. O, ölkədə baş verən təbii fəlakətlər zamanı zərərçəkmiş insanların iztirablarını aradan qaldırmağı, onlara maddi-mənəvi cəhətdən dayaq durmağı, acılarını, çətinliklərini şəxsən həll etməyi özünə mənəvi borc bilir.

Səmimilik – İlham Əliyev rəsmi və ictimaiyyətlə görüşlərində siyasətçiləri, müxtəlif zümrədən olan insanları nəzakətlə, hörmətlə dinləməyi, məsələyə aydın münasibət bildirməyi ilə tərəf müqabillərini özü haqqında sayğılı düşünməyə vadar edir. O, dialoq zamanı həmsöhbətini özünün təbii səmimiyyətinə və obyektivliyinə inandırır. Mətbuat nümayəndələri ilə təmasda da sadə və konkretdir. Müxtəlif yönlü, hətta qərəzli suallara cavab-

larında, eləcə də mövqeyinin düzgünlüyünü sübuta yetirərkən dəlilləri həmişə qaneedicidir.

Dövlət xadiminin xalq içərisində və siyasi mühitdə nüfuzunun müəyyənləşməsində bu və ya başqa keyfiyyət amillərinin rolu olduqca çoxdur. Və həm də bu cəhətlər şəxsiyyətin liderliyə doğru yüksəlişində böyük təminatdır.

Müasir dövrdə İlham Əliyev liderlik yolunda cəmiyyəti də özü ilə birlikdə ucaltmağa qadir olan yeganə dövlət adamıdır. İnsanların yaxşı məlumatı var ki, o, atasının quruculuq illərində hansı vəzifə daşımasına baxmayaraq, dövlət müstəqilliyimizin qorunmasında, möhkəmlənməsində və ölkəmizin dünya birliyinə daxil olmasında, Avropanın bir üzvü kimi tanınmasında gəncliyin lideri qismində kifayət qədər bilik, bacarıq, qüvvə sərf etmiş, mübarizlik göstərmişdir. Ölkənin böyük neft strategiyasının milli maraqlar daxilində həyata keçirilməsində İlham Əliyevin əməyini, mühüm xidmətlərini heç bir siyasət adamı dana bilməz.

Prezident İlham Əliyevin geniş düşüncəsində Azərbaycanın indiki inkişaf mərhələsini dönməz prosesə çevirmək və islahatları uğurlu sonluqla tamamlamaq durur. Cəmiyyətin sağlam qüvvələrinin qəbul etdiyi siyasi kursun davamı da elə bunda – ənənələrin etibarlı səviyyədə qorunmasının özünün bir ənənəyə çevrilməsi ideyasındadır.

Bir qədər əvvəlin müstəqillik tarixinə nəzər salsaq, Azərbaycanın bu günü üçün çox mühüm təcrübələrin necə ağır zəhmət bahasına qazanıldığını dərk edər, başlıcası isə, İlham Əliyevin böyük siyasətə necə yetişməsi prosesinin şahidi olarıq.

Bu araşdırma əsasən gənc nəsil üçün vacibdir ki, səviyyəli, vətənpərvər yetişmək və müasir inkişaf yolunda qabaqcıl dünyəvi dəyərləri, mövcud potensialı qiymətləndirə-qiymətləndirə öz həyatını da inkişaf etdirə bilsin.

Ötən əsrin 90-cı illərində və bir qədər əvvəl cərəyan edən hadisələr bütün aydınlığı ilə bir həqiqəti üzə çıxardı: ənənəsi olmadan mütəşəkkilliyin və təşkilatlanmanın cəmiyyətdə özünü doğrultması, müdafiə olunması mümkün deyil. Həmin proses ictimai-iqtisadi, sosial əzablar içərisində çətinlik çəkən cəmiy-

yətdə mütləq əksəriyyətin dəstəklədiyi, qətiyyətli şəxsiyyətin rolu olmadan yalnız uğursuz eksperimentlərlə nəticələnə bilərdi.

1993-cü ilin iyun hadisələri baş verərkən o vaxtkı iqtidar da, müxalif qüvvələr də dəqiq anladılar ki, saxta cazibədar şüarlarla özlərini cəmiyyətə sırımaq olmaz. Ona görə də idarəçilik səriştəsi olmayanlar hərəkətlərinin faydasızlığını başa düşərək siyasi meydandan uzaqlaşdılar. Xalqın istəyi, tələbi belə idi – dağılmaq təhlükəsində olan dövləti iradəsi, təcrübəsi, nüfuzu böyük olan bir şəxs idarə etməlidir. Hadisələrin sonrakı davamı onu açıqca göstərdi ki, ümumiyyətlə, Heydər Əliyevdən başqa Azərbaycanı təhlükəli qovğadan qurtaracaq bir siyasətçi belə yoxmuş. Biz bu tarixi yaşamışıq və şükürlər olsun, Vətənə xidmət üçün çox lazımlı təcrübə toplaya bilmişik.

O vaxtdan illər, bir-birini tamamlayan mərhələlər keçmişdir. Dövlətin və xalqın varlığı ordunun gücündən asılıdır. Və ona görə də bu məsələ üzərində dayanmaq vacibdir. Böyük Heydər Əliyev öz siyasəti ilə olduqca bu zəruri Gücü tam mənasında təmin etmişdir. Müstəqilliyimizin ilk illərində ordudakı pərakəndəlik və başıpozuqluq bu sahədə əsaslı dönüş yaratmağı zəruri etmişdi. Ermənistanın təcavüzünə məruz qalan Azərbaycanın ağır günlərində ordunun mütəşəkkil olmaması torpaqların əldən getməsi ilə nəticələnirdi. Prezident İlham Əliyev Azərbaycanda ordu quruculuğuna başlandığı həmin dövrlərdəki mürəkkəb vəziyyəti dəqiqliyi ilə belə xarakterizə etmişdir:

1993-cü ilin ortalarınadək olan dövrdə "...Ayrı-ayrı dəstələrdən ibarət olan birləşmələr, təbii ki, ölkə qarşısında duran çox çətin vəzifələrin öhdəsindən gələ bilməzdilər. Azərbaycan çox çətin vəziyyətə düşmüşdü və bunun nəticəsində torpaqlarımız işğal olunurdu. Yalnız ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə Azərbaycana Prezident seçildikdən sonra Azərbaycanda ordu quruculuğunda dönüş yarandı. O ildən başlayaraq son on il ərzində ordumuz gücləndi, inkişaf etdi və bu gün demək olar ki, bizim ordumuz yüksək səviyyədədir. Qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir

Bu gün Azərbaycan Ordusunun beynəlxalq standartlar səviyyəsində inkişafı məsələsi dövlətimizin siyasətinin prioritet-

lərindən sayılır. Ordu quruculuğuna dair bütün mühüm tədbirlər müvəffəqiyyətlə, ardıcıl surətdə, mövcud siyasi kursun tələblərinə uyğun şəkildə yerinə yetirilir.

Ümummilli lider Heydər Əliyevin vaxtilə ordu hissələrində şəxsi heyətlə müntəzəm keçirdiyi görüşlərin nəticələri zaman keçdikcə ordunun əzmkarlığının artmasında özünü büruzə verir. Milli Öndərin mütəmadi hərbi hissələrdəki vəziyyətlə əsgər və zabitlərin problemləri, qayğıları ilə maraqlanması, hərbi təhsil sisteminin müasirləşməsinə və hərbi biliklərin tədrisinin yüksəlməsinə böyük diqqət yetirməsinin səmərəsi Milli Ordunun bugünkü səviyyəyə yüksəlməsində təzahür edir. Ölkənin Silahlı Qüvvələri yüksək döyüş hazırlığına malik və peşəkar, hərbi-texniki vərdişlərə dərindən yiyələnmiş savadlı, vətənpərvər kadrlardan ibarətdir.

Azərbaycan Ordusunun beynəlxalq əməkdaşlığı məsələsinə diqqət dövlətin xarici siyasətində xüsusilə aktuallıq kəsb etmişdir. Bu əlaqələrin yüksək səviyyədə qurulması hərbi sahədə peşəkarlığın artırılmasına və təlim-tədris sisteminin modernləşməsinə ciddi təsir göstərmişdir.

Məlum olduğu kimi, Avropada sülhün və sabitliyin bərqərar etdilməsində NATO-nun rolu danılmazdır. Bu mənada, NATO ilə əməkdaşlıq Azərbaycanın beynəlxalq nüfuzunun müəyyən olunmasında daim həlledici amillərdən sayılmışdır. Əgər 1993-cü ildən başlayaraq Azərbaycanda etibarlı sabitliyə və vətəndaş həmrəyliyinə nail olunmasaydı, nəinki dünya dövlətləri ilə bərabərhüquqlu əməkdaşlıqdan, heç Milli Ordunun bugünkü gücündən, yüksək döyüş hazırlığından danışmaq belə mümkün olmazdı.

Milli Ordunun beynəlxalq əlaqələri çərçivəsində NATO sisteminə inteqrasiya prosesinin sürətləndirilməsi Azərbaycanın dövlət siyasətində dünyanın və Cənubi Qafqazın təhlükəsizlik məsələsinə nə qədər ciddi diqqət ayrıldığını sübuta yetirir. Hərbçilərimiz dünyanın qaynar nöqtələrində digər ölkələrin Silahlı Qüvvələrin heyəti ilə yanaşı, sülhməramlı missiyanı nümunəvi surətdə həyata keçirirlər.

NATO-nun çərçivə sənədləri 1994-cü ilin mayında Brüsseldə imzalamb və bununla da ölkəmiz bu təşkilatın "Sülh

Naminə Tərəfdaşlıq Proqramına qoşulub. İndi Azərbaycan bu proqram çərçivəsində keçirilən sülh məramlı, humanitar və başqa mühüm tədbirlərin fəal iştirakçısına çevrilib. Ölkədə NATO sisteminə uyğun müasir hərbi təhsil müəssisələri, təlim mərkəzləri yaradılmış və yenidən qurulmuşdur.

Beynəlxalq aləm bilir ki, Azərbaycan dünyada sülhün daimiliyini, sabitliyi və təhlükəsizliyi təmin etmək istiqamətində fəal və ədalətli mövqe tutur. Azərbaycan NATO ilə əməkdaşlıq xəttinə münasib olaraq beynəlxalq terrorizmə qarşı mübarizəyə qoşulan ilk dövlətlərdən biridir. Ümumilikdə, ölkəmizin "Sülh Naminə Tərəfdaşlıq Proqramında fəal iştirak Silahlı Qüvvələrə yüksək təcrübə keçmək və daha da təkmilləşmək üçün gözəl imkanlar açıb.

Azərbaycan Ordusunun mütəşəkilliyi sahəsində Heydər Əliyevin ideyaları əsasında görülən irimiqyaslı işlər ictimaiyyət tərəfindən həmişə razılıqla qarşılanmışdır. Ölkə vətəndaşları, o cümlədən yurd-yuvasından didərgin düşmüş qaçqın və məcburi köçkünlər yürüdülən düzgün siyasət nəticəsində torpaqlarımızın işğaldan azad ediləcəyinə inamlıdırlar.

Milli Ordunun gücləndirilməsi işi bu gün də, yeni Prezidentin birmənalı şəkildə vurğuladığı kimi, iqtidarın siyasətinin əsas istiqamətlərindəndir və proses dönmədən aparılır. Ölkə Prezidenti öz fəaliyyətində ordu quruculuğuna müasir dövlət siyasətinin özək xətti kimi baxır:

"Siz görürsünüz ki, mənim fəaliyyətimin əsas istiqamətlərindən biri də ordunu gücləndirməkdən, onun maddi-texniki bazasını möhkəmləndirməkdən ibarətdir. Biz güclü orduya malikik, amma hər gün, hər an bu istiqamətdə daha böyük addımlar atmalıyıq. Mən şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Şübhə etmirəm ki, biz torpaqlarımızı azad edəcəyik. Amma, əlbəttə, biz istərdik, bu, sülh yolu ilə olsun".

Silahlı Qüvvələrin hissələrində ölkə rəhbəri ilə keçirilən görüşlər bir daha göstərmişdir ki, Prezidentin təbirincə, ordunun qarşısında hələ mühüm vəzifələr durur. Azərbaycan cəmiyyəti dərindən anlayır ki, "...Daim orduya qayğı göstərməliyik, diqqət

göstərməliyik, ordumuzu gücləndirməliyik. Və ölkə başçısı ordu quruculuğuna aid olan önəmli vəzifələrin həyata keçirilməsində maddi dayaqların daha da möhkəmləndiriləcəyini, hərbçilərin sosial vəziyyətinin daha da yaxşılaşacağını dəfələrlə bəyan etmişdir:

"Orduya ayrılan xərclər hər il artır. Büdcədə nəzərdə tutulan xərclər artır. Bundan sonra da orduya ayrılacaq vəsaitlər artacaqdır... Bizim ordumuz istənilən vaxtda torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Amma istəyirik ki, ordumuz daha güclü olsun. Orduda xidmət edən zabitlərin, əsgərlərin şəraiti daha yaxşı olsun ".

İlham Əliyevin Azərbaycanın müxtəlif bölgələrinə, ə cümlədən Naxçıvana və Gəncəyə səfərlərində, ayrı-ayrı vaxtlarda Silahlı Qüvvələrin şəxsi heyəti liə müntəzəm görüşüb problemləri yerindəcə həll etməsi Azərbaycan əsgərinin qəlbində Vətən, Torpaq təəssübünü daha da gücləndirir, ölkəmizin sabahına inam yaradır.

Ali Baş Komandanın qədim, doğma Naxçıvan diyarına səfəri zamanı bölgədə xidmət edən əsgər və zabitlərlə görüşərək onların ehtiyacları ilə maraqlanması sübuta yetirdi ki, dövlət və onun rəhbəri Vətənin etibarlı müdafiəsinə inanır. Naxçıvandakı ordu hissələrinin peşəkarlığının artırılması sahəsində mühüm işlər görülmüşdür. Bu uğurları müşahidə edən ölkə başçısı vəziyyəti belə qiymətləndirmişdir:

"...Naxçıvanda da bu istiqamətdə böyük işlər görülür. Naxçıvanda yerləşən hərbi hissələr muxtar respublikanı çox möhkəm qoruyurlar və mən Ali Baş Komandan kimi burada aparılan işlərdən razıyam".

Tarix sübuta yetirmişdir ki, peşəkar ordusu olan xalqın müstəqilliyi də əbədidir. Bu mənada, Prezident İlham Əliyev Naxçıvanda əsgər və zabitlərə ötən hadisələri unutmamağı tövsiyə edərək demişdir ki, ölkəmizin müstəqilliyinin ilk illərində Naxçıvan da məkrli düşmənin təcavüzünə məruz qalmışdı. O hadisələr hamının yadındadır. Amma erməni təcavüzkarları burada Vətənimizə qarşı torpaq iddialarını, çirkin niyyətlərini reallaşdıra bilmədilər. Onda müasir dövlətçiliyimizin banisi Heydər Əliyevin prinsipiallığı, qətiyyəti sayəsində Naxçıvan düşmənin həmlələrinə

sinə gərə bildi. Xalq rəhbəri ilə birlikdə muxtar diyarın bir qarışını da itirmədi, bütövlüyünü əzmlə qoruyub saxladı. Bütövlükdə Azərbaycanın müstəqilliyinin etibarlı şəkildə təmin olunması prosesi də məhz bu tarixdən başladı.

Prezident İlham Əliyev Naxçıvanda əsgər və zabitlərlə görüşü zamanı Azərbaycan Ordusunun təkmilləşdirilməsi, döyüş qabiliyyətinin artırılması məsələlərinə ciddi əhəmiyyət verdiyini vurğulamışdır. Bu sahədə iqtisadi yüksəlişin ən vacib amil olduğunu, ölkəmizin müstəqillik magistralı ilə inamla addımladığını, *bunun isə ordunun qüdrətlənməsinə böyük təsir göstərdiyini qeyd etmişdir*: "Yalnız iqtisadi cəhətdən güclü olan ölkələr güclü orduya malik olurlar. Bizim də vəzifəmiz budur. Biz ölkəmizi gücləndirəcək, zənginləşdirəcəyik. Ölkəmiz sürətlə inkişaf edəcək və yaranmış iqtisadi potensial, o cümlədən bəlkə də, ilk növbədə, ordu quruculuğuna sərf olunacaqdır. Ölkəmiz müharibə şəraitindədir. Bizim işimiz haqq işidir. Biz heç kimin torpağını işğal etməmişik, heç kəsin də torpağında gözümüz yoxdur. Bizim ərazi bütövlüyümüz pozulubdur, torpağımız işğal altındadır. Azərbaycan xalqı, Azərbaycan Ordusu hər an öz ərazi bütövlüyünü bərpa etmək üçün lazımi addımlar ata bilər. Bizim buna haqqımız çatır. Beynəlxalq hüquq normaları da bizə belə bir imkan yaradır".

Prezident İlham Əliyevin Gəncəyə səfəri və burada Vətənə xidmətdə ayıq-sayıq dayanmış əsgərlərlə görüşü də əlamətdarlığı ilə seçilir. Bu zaman toxunulan məsələlər, verilən tövsiyələr hər bir Vətən müdafiəçisinin qəlbində unudulmaz bir təəssürat oyatdı. Onların torpaq təəssübkeşliyi duyğusu bir qədər də artdı.

Azərbaycanın günbəgün təkmilləşməkdə olan ordusu böyük dövlət qurucusu Heydər Əliyevin siyasi xəttinin uğurla irəli aparılmasını, Silahlı Qüvvələrimizə diqqət və qayğı ənənəsinin davam etdirilməsini yüksək qiymətləndirir. Bütövlükdə Azərbaycan cəmiyyəti aydın dərk edir ki, qarşısında qoyulan şərəfli vəzifələri layiqincə yerinə yetirməyə qadir olan Milli Ordu var və buna görə məhz ümumilli lider Heydər Əliyevə minnətdardır.

Reallıq budur ki, ölkəmizdə hərbi xidmət ilbəil daha da mükəmməlləşir, hərbi təhsil sistemi yeniləşir, maddi-texniki təchizat daha da yaxşılaşır. Azərbaycan əsgəri öz həyatında hiss

edir ki, dövlət ordunun güclənməsi üçün bütün imkan və vasitələrdən istifadə edir. Dövlətimiz və onun rəhbəri Vətənə sədaqət andı içmiş əsgəri işğal altında olan torpaqlarımızı azad etmək üçün hazır görür. Və gənc nəslin belə döyüşkən, vətənpərvər ruhda təlim-tərbiyə almasını, lazım gələrsə, düşmənə layiqli cavab verməsini istəyir:

"Azərbaycanın qarşısında bir məsələ var – bu da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Ermənistanın təcavüzü nəticəsində torpaqlarımız işğal altındadır. Bir milyon qaçqın, köçkünümüz var. Siz bilirsiniz ki, Azərbaycan hökuməti bu məsələni sülh yolu ilə həll etmək istəyir. Amma əfsuslar olsun ki, bu günə qədər aparılmış danışıqlar heç bir nəticə vermir. Bu məsələ ilə bilavasitə məşğul olan, vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk qrupunun fəaliyyəti, təəssüflər olsun ki, heç bir nəticə vermir. Biz bir daha qeyd etmək istəyirik ki, sülh danışıqlarının aparılmasına tərəfdarıq. Amma əlbəttə ki, bunun da bir həddi olmalıdır. Azərbaycan xalqının səbri tükənməz deyildir. Mən bunu dəfələrlə, o cümlədən beynəlxalq tribunalardan bəyan etmişəm ki, Azərbaycan heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaq, nəyin bahasına olursa-olsun, doğma torpaqlarını azad edəcəkdir. Bunu etmək üçün cəmiyyətdə səfərbərlik olmalıdır. Gənclərimiz, əsgərlərimiz vətənpərvərlik ruhunda tərbiyə edilməlidirlər. Ölkəmiz hərtərəfli inkişaf etmiş ölkəyə çevrilməlidir. Bizim iqtisadi potensialımız güclənməlidir".

Prezidentə də, onu birmənalı şəkildə liderliyə ucaldan xalqa da, əsgərə də əsil nümunə, örnək Heydər Əliyev qətiyyəti, siyasi iradəsi və vətənpərvərliyidir. Bu nümunə dövlət başçısının fikirlərində bütün təfərrüatı ilə təfsirini belə tapır:

"...Naxçıvanski adına məktəbin 30 illiyi qeyd edilərkən, xalqımızın ümummilli lideri əsgərlər, zabitlər və generallar qarşısında çıxış edərkən, onun səhhətində problemlər yaranmışdı. O, iki dəfə nitqini dayandırmışdır. Amma bütün buna ciddi baxmayaraq o, iki dəfə kürsüyə qayıtmış, öz nitqini davam etdirmişdi. Budur, bizim hamımız üçün nümunə, budur, bizim hamımız üçün örnək. Bu fədakarlıq, bu cəsarət, bu siyasi iradə bizim hamımız üçün böyük örnək, nümunə olmalıdır. Biz hamımız çalışmalıyıq ki,

xalqımızın ümummilli lideri Heydər Əliyevə oxşayaq, onun yolu ilə gedək. Azərbaycan xalqı bu istiqamətdə böyük işlər görür, bu siyasəti birmənalı dəstəkləyir".

Bu fikirlər Ali Baş Komandanın Azərbaycan xalqının dəstəyinə güvəndiyini tam aydınlığı ilə göstərir. Bu gün Azərbaycanda hökm sürən sabitlik, inkişaf, xalqın Heydər Əliyev siyasi kursunun müdafiəsində möhkəm dayandığını təsdiq edir...

Azərbaycanda vəziyyət sabitliyə doğru kökündən dəyişmiş, təhlükələr sovuşmuş, xaosa son qoyulmuşdur. Ölkə hər cəhətdən seçdiyi inkişaf yolunun bəhrələrini görməkdədir. Hüquqi dövlət, demokratik cəmiyyət, bazar münasibətlərini əsas götürən iqtisadi sistem bütün atributları ilə qurulmuşdur. Bunlar ölkənin tərəqqisinə, vətəndaşların yaşayış səviyyəsinin yüksəlməsinə imkan verir.

İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan artıq böyük Heydər Əliyev istiqamətini – ideoloji, sosial, mənəvi ömür yolunu seçmiş və bu yolun bir qismini, özü də vacib hissəsini addımlayıb keçmişdir. Düşünən insanlar həmişə irəli getməyə can atırlar. Keçmişi ilə fəxr edə-edə, gələcəyə inamla, ümidlərlə ömür sürür və fəaliyyət göstərirlər...

Müdrik Heydər Əliyevin səyləri ilə xalqın çoxillik arzu və ideallarının gerçəkliyə qovuşması siyasi sabitlik və iqtisadi dirçəlişlə müşayiət olunarkən sivil dünya normalarının da ölkəyə gəlişi artıq təmin edilmişdi. İlham Əliyev məhz belə yeni tarixi şəraitdə atası Heydər Əliyevin mübarizə dünyasının təcrübəsilə öz *bioqrafiyasını daha da zənginləşdirdi.*

Ümummilli liderimiz 2003-cü ilin avqust ayında, Prezident seçkiləri öncəsi onun sağlıq durumundan narahatlıq keçirən xalqına gələcəklə bağlı tövsiyələrini verdi. "Üzümü sizə, həmvətənlərimə tutaraq qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli

övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"- deyə, xalqa İlham Əliyevi yeni lider simasında nişan verərkən sonuncu müdrik seçimini, məsləhətini edirdi. Və sözsüz ki, O, bu anda da Azərbaycanın taleyini düşünürdü. Xalq isə öz növbəsində bu seçimi qəbul etməklə liderinə sədaqətini nümayiş etdirdi.

Heydər Əliyev öz həyatından artıq sevdiyi, əziz bildiyi xalqına dünyanın hörmət bəslədiyi müstəqil Azərbaycan dövləti qoyub getmişdir. Bundan böyük irsmi var?! Əslində Öndər millətə yeni lideri tanıtmaqla, bu böyük irsi qorumağın yolunu da göstərirdi...

Ali hakimiyyətə İlham Əliyevi ucaldan yola nəzər salanda aydınlaşır ki, onun tarixi vəzifələrin həyata keçirilməsindəki təşəbbüsləri, uğurları bir-birindən çeşidli olmuşdur. Mükəmməl diplomatiya təhsilli bu siyasətçi Avropa Şurası sistemi çərçivəsində ölkəsini təmsil edərkən özünü müasir dünya problemlərini yaxşı bilən ideoloq kimi tanıdıb. O, Azərbaycanın əsas problemləri, xüsusən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranması, həllinin əngəlləri barədə Avropaya danışarkən məsələnin mahiyyətini bütün incəliklərinə qədər açıb göstərə bilmişdir. İsrarları, təkidləri ilə Avropa Şurası kimi adıbəlli böyük təşkilatda Ermənistanı işğalçı dövlət olaraq tanıdıbdır. Bu, ümumən Azərbaycanın halal haqqının qaytarılması yönümündə atılmış ən uğurlu addımlardandır.

İlham Əliyev bu ali beynəlxalq qurumda fəaliyyəti boyu ölkəmizin maraqlarının xalqın maraqları ilə eyni olduğu həqiqətini çatdıraraq, qayğılara dünyada gedən proseslərin bir tərkib hissəsi olaraq yanaşma tələb edirdi. Məhz o, xidmətləri ilə Ermənistanın işğalçı siyasətini – düşmənin ölkəmizə qarşı ərazi iddiasını, məkrli niyyətini avropalılara anlatmağa müvəffəq olmuşdur. O, AŞ PA-da fəaliyyətinə qədər də özünün Avropa təfəkkürü və düşüncəsinin praqmatikliyi ilə seçilmişdir. İnkişafın əsas meyillərini həmişə irəliçi təcrübələrdə axtarmış, bir sıra qlobal əhəmiyyətli sahələrə

rəhbərlik etməklə, idarəçilik qabiliyyətini əvvəlcədən göstərmişdir.

İlham Əliyevin böyük siyasətdə bəlli uğurları sübuta yetirdi ki, daxili, iqtisadi, xarici siyasətimizin – diplomatiya məktəbimizin gənclik potensialı çox güclüdür.

Qloballaşan dünyada ancaq konkret düşüncəli, yüksək mədəniyyətli, zəkalı, sərbəst mükalimələr yürüdən siyasətçilər nüfuz və hörmət qazana bilərlər. Bu mənada, İlham Əliyev vətəninin milli mənafeyini istənilən səviyyələrdə, aparıcı beynəlxalq əhəmiyyətli dillərdə çatdırmağa və müdafiə etməyə kifayət qədər qadir siyasətçidir.

Prezident Heydər Əliyevin Azərbaycanda qurduğu demokratik və şəffaf seçki sistemi xalqın seçim azadlığı, iradə sərbəstliyi üçün normal şərait yaratmışdır. Bu xüsusda, İlham Əliyevin seçki marafonunda ali kürsüyə yetişməsi onun millətə, Vətənə təmənnasız xidmətinin yekunu, eləcə də beynəlxalq arenada nüfuzunun sanbalıdır. O, bu mövqeyə Heydər Əliyevin oğlu olmasaydı belə, yenə də ucalacaqdı. Çünki İlham Əliyevin böyük siyasətə gəlişi həm də müstəqilliyin diqtə etdiyi ideallara xalqın sədaqətinin sonucu idi.

Bir həqiqətdir ki, 2003-cü ilin oktyabrında insanlar Azərbaycanda hakimiyyətin – indiki siyasi kursun dəyişməsi həddini qətiyyətlə dəf etdilər. Bu, zamanın sınağından çıxmış və özünü doğrultmuş siyasətin davamını istəyən əksəriyyətin iradəsidir. Çünki anlaşılandır ki, müharibə və sülh şəraitində səhv bir addım olmazın təhlükələr törədə bilər, ən əsası insanların artıq keçmişdə qalmış əzab-əziyyətlərini, qorxularını həyata qaytarardı. Sabitliyin pozulmasını isə qonşu işğalçı dövlət də, Azərbaycanı sevməyən digər qüvvələr də arzulayırdı. Amma əksinə, sarsıntılarsız inkişafı, sabitliyi arzulayanların sayı isə daha çox – 76 faizə yetmişdi. Seçkilərin bu cür sonluqla bitməyini təkcə Azərbaycanda deyil, qonşu ölkələrdə, hətta Avropada da gözləyirdilər.

Bəzi yaxın ölkələrdə isə iqtidar-müxalifət münasibətlərindəki ab-hava da müəyyən dərəcədə buradakı siyasi elitanın bir-birini əvəzləməsinin seçilmiş ən optimal prosesindən heç də az asılı deyildi.

Azərbaycandakı Prezident seçkilərindən öncəki proseslər də dünyada lazımi dəstək qazanmışdı. Yəni İlham Əliyevin siyasi varisi kimi Baş nazir təyin olunması dünyada nə qədər normal hal idisə, sonrakı məqamda dövlət başçısı seçilməsi də eləcə təbii qarşılanmışdı. Ona görə də indi ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya, Yaponiya, İtaliya kimi dünya siyasətində mühüm sayılan ölkələrin, MDB-nin siyasi və işgüzar dairələri də Azərbaycanın yeni Prezidentinin siyasi xəttini bəyənir, onu perspektivli dövlət xadimi hesab edirlər. Dünyanın görkəmli siyasi və dövlət adamları Azərbaycanda sivil bir gələcəyə inamlıdırlar.

Dünya ictimaiyyətinin ölkəmizdə baş vermiş son mühüm hadisəyə – İlham Əliyevin Prezident seçilməsinə marağı və diqqəti, sözsüz ki, indiki dövrədək yürüdülmüş dövlət siyasətinin müvəffəqiyyətinə inamdan doğan nəticədir. Ona görə də ABŞ və Qərbin əsas aparıcı dövlətləri, digər qonşu ölkələr seçkinin nəticələrindən dərhal sonra Azərbaycanın yeni Prezidenti ilə əməkdaşlığı davam etdirməyi arzuladıqlarını bildirdilər. Bu, xalqın inanıb səs verdiyi, taleyini etibar etdiyi şəxsiyyətə birbaşa beynəlxalq aləmin dəstəyi idi. Əksəriyyətin iradəsini ifadə edən düzgün seçim seçkidən qabaq Azərbaycanla yaxşı faydalı əlaqələr yaratmış ölkələrdə müşahidə olunan müəyyən narahatlığa da son qoymuşdur.

Azərbaycanın Heydər Əliyev kimi qüdrəti ilə dünyada tanınan liderinin indiki mərhələdə siyasətini davam etdirən Prezident İlham Əliyevi dost ölkələr əməkdaşlıqda uğurların varisliyini təmin edəcək bir siyasətçi kimi dəyərləndirib. Eyni zamanda, biz bu realist qüvvələrin müsbət rəy və mülahizələri ilə yanaşı, bəzən daxildə müəyyən mürtəce, inkarçı mövqe ilə rastlaşdıq. Amma bu narazı qism geniş sosial bazadan məhrumdur. Onların inkarçılığı həqiqətdən və reallıqdan kənar olduğuna, sağlam fikri əks etdirmədiyinə görə, ictimai rəyə təsir göstərmək iqtidarında deyil.

Artıq Azərbaycanda milli birlik, sabitlik, demokratiya bərqərar ediləndən sonrakı dövr üçün sivil dəyərlərə geniş miqyasda inteqrasiya olunmaq dövrü vüsət almışdır. Ölkəmizin inkişafının, dünya dövlətləri ilə əməkdaşlığının strateji tərəflərindən biri də hazırda beynəlxalq sülhün və təhlükəsizliyin qorunması mə-

sələsidir ki, Prezident İlham Əliyev bu sahədə də qətiyyətli mövqedədir. Bu mənada, beynəlxalq terrorizmlə mübarizə dünya siyasətini ciddi məşğul etdiyi kimi, Azərbaycanı da dərindən düşündürən məsələdir. Terrorizmə qarşı mübarizə prosesində aktuallıq əsasən ABŞ-da baş vermiş 11 sentyabr terror hadisələrindən sonra başlamışdır. Ona qədər dünya birliyində terrorizmə münasibətdə bəzən ikili standartlarla yanaşmalar da var idi. Bu elə bir vaxt idi ki, Azərbaycan özü də erməni terrorundan əziyyət çəkirdi.

Ancaq ABŞ-dakı sözügedən terror hadisələrindən sonra dövlətimizin gərgin səyləri sayəsində vəziyyət dəyişdi, haqq səsimizi eşitməyə başladılar. Dünyanın aparıcı dövlətləri şahid oldu ki, Azərbaycan terrorizmə qarşı mübarizəni fəal surətdə dəstəkləyir, koalisiya ilə sıx əməkdaşlıq edir.

Mübarizə hələ bitməmişdir. Antiterror koalisiyasında fəal iştirak edən Azərbaycan dünya birliyinin üzvü olaraq regional və beynəlxalq təhlükəsizliyin qorunub saxlanmasına töhfələr verməklə yanaşı, Ermənistanın Azərbaycana təcavüzkar siyasətinin acı, fəlakətli nəticələrini dünya ictimaiyyətinə çatdırmaq əzmini də davam etdirməkdədir. Qeyd etmək lazımdır ki, terrorizmə qarşı mübarizə özü ilə birlikdə ölkələr arasında yeni effektli münasibətlərin formalaşmasına xeyli müsbət təsir göstərir. Bu qlobal əhəmiyyətli prosesdə Azərbaycanın terrorizmə qarşı barışmaz münasibəti Ermənistanla müqayisədə heç də dünya birliyinin diqqətindən yayınmır. Cəmiyyətimizin fikri belədir ki, beynəlxalq terrorizmlə səmərəli savaşın nəticələri bütövlükdə dünyanın və onun sülhsevər bir parçası olan Azərbaycanın təhlükəsizliyi üçün faydalı olacaqdır.

Məhz Heydər Əliyevin bu sahədə yürütmüş olduğu siyasətin yeni məcrada davam etdirilməsi dünya birliyində belə qənaət yaradır ki, Azərbaycanın anti-terror koalisiyasında iştirakı zəruridir. Azərbaycanın yeni dövlət başçısının uğurları indi xaricdən və ölkəsinin daxilindən kifayət qədər aydın görünür. Cəmiyyətə və dövlətə, demokratik dünyaya da elə bu lazımdır.

Prezident İlham Əliyev öz açıq və dərin təfəkkürü, çevik, analitik dünya duyumu ilə insan, dövlət, milli xüsusiyyətli maraqları bəşəri formulada sintez və təqdim edə bilir. O, sülh

haqqında, yaxud sülhü müdafiə barədə konkretdir. Terrorizmə qarşı mübarizədə səmərəli fikirlərini beynəlxalq tribunalardan səsləndirərkən tələfat və dağıntıların əziyyətini çəkənlərin ilk sıralarında Azərbaycanı nümunə kimi tanıdır. Onun düşüncəsinə görə, terrorla təsirli mübarizədə vahid bir yanaşma ortaya qoymaq lazımdır. Bu mübarizədə beynəlxalq aləm birləşməli, bütün ölkələrdə terrora qarşı sistemli mübarizə aparıldığı terrorçulara ibrət dərsi olmalıdır...

Yeni əsrdə Azərbaycan öz siyasi, iqtisadi, mədəni, diplomatiya sahələrindəki uğurlarına doğru yenə də böyük Öndərinin ənənələri əsasında irəliləyir. Bir şeyi də unutmaq olmaz ki, cəmiyyətimizin sosial, mənəvi problemlərdən qurtulması, mənəvi-maddi zənginliyini daha da dolğunlaşdırması indiki siyasətin məğzidir. Eyni zamanda, Prezidentini seçən əksəriyyətin bu işlərin yoluna qoyulmasında ona mənəvi, ruhi dəstəyindən də çox şey asılıdır. Azərbaycan ictimaiyyəti öz həmrəyliyi ilə dünyaya da, dostuna, düşmənینə də sübut edir ki, İlham Əliyevin iki dönəmdə (2003, 2008) Prezident seçilməsi millətin iradəsinin ifadəsidir. Daha doğrusu, xalqın öz lideri Heydər Əliyevin ideya və prinsipləri ilə yaşamağa duyduğu milli-mənəvi ehtiyacdır. Ən önəmli odur ki, Azərbaycanın azadlıq ruhu, dövlətçilik sisteminin təməlləri etibarlı vəziyyətdə qorunsun. Daxili və xarici siyasət ölkənin reallıqlarını cəmiyyətin maraqlarını təzahür etdirsin, ümidlərini doğrultsun.

Cəmiyyətdə çoxluq İlham Əliyevi Azərbaycana Prezident seçməklə, birmənalı olaraq mövcud siyasi kursun ən münasib, ümidverici inkişaf yolu olduğu qənaətini təsdiq etdi. Müstəqilliyin ötən on ili ərzində bu tipli dövlətçilik istiqaməti sosial-iqtisadi, xarici siyasət sahəsində ölkənin inkişafına gətirdiyi uğurların hesabına qətiləşmişdi. Siyasi varis isə özü həmin quruculuğun təşəkkül və təkamül proseslərinin mərkəzində fəal bir sima kimi iştirak etmişdir. Onun milli maraqlarımızın beynəlxalq iqtisadi məkanda, xarici əməkdaşlıq məsələlərində, qlobal layihələr həyata keçirilərkən qorunması işində səyləri hamımıza məlumdur. Ona görə də Azərbaycan seçicisi kimə dəstək verdiyini, kimi özünə rəhbər seçdiyini yaxşı anlayır. İlham Əliyev siyasi rəqiblərindən nəzərə-

çarpacaq üstünlüklərlə fərqlənir. Hadisə və proseslərin gedişinə peşəkar münasibəti, yüksək siyasi mədəniyyət, prinsipiallıq nümayiş etdirməsi belə məntiqi fikrə gəlməyə vadar edir.

Heç kəs unutmamışdır ki, Heydər Əliyev dönəminə qədər Azərbaycan hərc-mərcliyin, qanunsuzluğun hökm sürdüyü bir ölkə idi. Yenicə imperiyanın əsarətindən qurtulmuş məmləkətdə dövlətçilikdən heç bir nişanə görünmürdü. Ayrı-ayrı ambisiyalı adamlara məxsus olan silahlı qruplar meydan sulayırdı. Cəmiyyətdə əmin-amanlıq və asayiş yalnız arzudan ibarət olaraq qalırdı. Təəssüflər olsun ki, Azərbaycanın inkişaf potensialını görüb qiymətləndirən bir siyasətçi yox idi. Ölkənin və millətin gələcəyi suallar doğururdu... Ziddiyyətindən baş çıxarmaq o qədər də asan olmayan həmin olayları İlham Əliyevlə onun müasirləri olan gənclik birgə görüb yaşamış və kifayət qədər ibrət almışdı. Amma İlham Əliyev üçün daha ibrətli illər, gör-götür – təcrübə məktəbi hələ bundan sonra başlayırdı. Qarşıda çətinliklə də olsa, Azərbaycanın havasının aydınlaşması, gərilmiş əsəblərinin rahatlanması, insanlarının düşüncələrinin durulması tarixi prosesi dururdu. Və yaxşı ki, biz gənclik öz lideri İlham Əliyevlə birlikdə müasir türk dünyasının öndəri Böyük Heydər Əliyevin yaratdığı bu tarixi bütün məziyyətləri ilə yaşadıq və öyrəndik. Və yaxşı ki, hadisələrdən düzgün nəticələr çıxara bildik...

Aydındır ki, o zaman müstəqilliyini bərpa edəndən sonra zəngin ehtiyatlara malik Xəzər hövzəsində yerləşən Azərbaycan dünya dövlətlərinin ciddi maraq obyektinə çevrilmişdi. Ölkədə strateji məsələlər gecikmədən həll edilməli idi. Yəni beynəlxalq əhəmiyyətli layihələr, o cümlədən Xəzər nefti və onu xaricə nəql edəcək boru kəmərləri üzərində nəzarətin həyata keçirilməsi kimi məsələlər Azərbaycan üçün ciddi sınaqlardan xəbər verirdi. Ümummilli lider Heydər Əliyev gərgin əmək sayəsində qüvvə toplamaq, rahat hərəkət etmək üçün ilk növbədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ müharibəsində atəşin dayandırılmasına nail oldu. Bununla da bütün səyləri digər təhlükələrin qarşısını almağa yönəldə bildi. O yaxşı bilirdi ki, erməni təcavüzü bölgə uğrunda geosiyasi mübarizədən az qaynaqlanmır.

Az müddətdən sonra, təzyiqlər səngiməsə də, Azərbaycan üçün əsil tarixi hadisə baş verdi. Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə istismarına dair dünyanın ən iri neft şirkətləri və Dövlət Neft Şirkəti arasında "Əsrin müqaviləsi" adı ilə dərhal məşhurlaşan iki müqavilə imzalandı. Lakin bundan bir neçə gün sonra Azərbaycanın gələcəyini öz şəxsi ambisiyalarından asılı vəziyyətə salmaq istəyən qüvvələr dövlət çevrilişinə cəhd etdilər. Yenə də Heydər Əliyevin siyasi qətiyyəti, iradəsi, xalqına olan sevgisi düşmən tərəfin silahından güclü çıxdı. Millətin azadlıq idealları çin oldu, dövlətçiliyimiz xilas edildi.

Təbii ki, bu vəziyyət xarici ölkələrin də nəzərindən yayınmırdı. Ona görə də bu gün on illik müstəqillik təcrübəsi olan Azərbaycanla faydalı əməkdaşlıq qurmuş tərəfdaşları indiki sabit şəraiti yaratmış dövlət siyasətinin davam etdirilməsini istəyirlər. Çünki ötən təcrübədən də bu siyasətin alternativinin xaos, iqtisadi tənəzzül, qeyri-sabitlik olduğunu əksəriyyət bilirdi. Təzədən eksperimentlərə qayıtmaqmı? Bu sualın səhv cavabı xalqın vaxtilə üzləşdiyi qaranlıq aqibətdən ibarət idi. Ona görə də müxtəlif ölkələrin vətəndaşları, xarici sərmayədarlar, işgüzar dairələr üçün indiyədək mövcud olan siyasətin davamlılığı aydın və danılmazdır. Meyillərində müəyyən fərqlər olan politoloqların çoxu da belə bir fikrə gəlməyə vadar oldular ki, aparıcı dünya dövlətləri İlham Əliyevi dəstəkləməklə bütövlükdə ölkədəki sabitliyi, inkişafa meydan açan vəziyyəti dəstəkləyirlər. İndiki sabit Azərbaycanın öz həyat təcrübəsi göstərmişdir ki, qeyri-sabitlik kimi qorxulu təzahürləri heç də tezliklə aradan qaldırmaq mümkün olmur və hətta bu vəziyyət digər qonşu ölkələrə də təsirsiz ötüşmür...

Prezident seçkilərinin keçirildiyi dövrün özünəxas reallıqları mövcud idi. Ölkəmizin siyasi, iqtisadi həyatında əmələ gəlmiş yeniliklər irəliləyişin sonrakı uğurlu davamiyyəti üçün xalqın məhəbbətinin kiminlə olması ilə şərtlənirdi.

Seçim öncəsi Azərbaycanda nə iqtidarda, nə də müxalifətdə olanlar şübhə etmirdilər ki, İlham Əliyev milli müstəqilliyin gələcəyi üçün mühüm siyasətçidir. Bu düşüncə kimisə qane etməyə də bilər. Ancaq kimin necə fikirləşməyindən asılı olmayan həqiqət budur ki, İlham Əliyevin gücünün miqyası böyükdür, bu güc hakimiyyət və xalq arasında həmrəyliyin ifadəsidir.

İlham Əliyevin təcrübəsinin müəyyən hissəsi gendən gəlir, qalan hissəsi isə fərdi planda qazandığı biliyin, bacarığın nəticəsidir. Ölkəmizin xarici aləmdə siyasi, ideoloji, iqtisadi müdafiəsində, yerinin möhkəmlənməsində onun rolu böyük olmuşdur. Eyni zamanda, respublika daxilində də müxtəlif siyasi-ideoloji güclərin mərkəzləşməsində yeni Prezidentin əməyi çoxdur.

İlham Əliyevin Azərbaycan ictimaiyyəti arasında dəyərləndirilən səmərəli işini, siyasi fəaliyyətini şərtləndirən bir neçə xarakterik cəhəti də qeyd etmək yerinə düşər.

İşə ciddi münasibət, proseslərin, ətraf və iç hadisələrin tənasüblərini ciddi, aydın şəkildə görmək; ciddilikdən irəli gələn analitizm.

Bu baxımdan, dövlətçilik, siyasi proseslərin gedişi, cəmiyyəti nizamlamaq yönümündə zəngin təfəkkürə, intellektual təsəvvürə malikdir.

Azərbaycanda kimin nə qədər nüfuz sahibi olduğunu öyrənmək heç də çətin məsələ deyil. Xalqın rəğbətinin kimin tərəfində olduğunu ifadə edən duyğular, emosiyalar üzdədir. Hətta xarici vətəndaşlar üçün bunu bilməyə bir neçə gün kifayət edər. Prezident İlham Əliyevin siyasətinin gücü ondadır ki, müasir və çevik texnologiyalardan istifadəni millətin özünün tarixi-ənənəvi düşüncə tərzinə, ovqatına gətirməyə üstünlük verir. Dünyada elə modern baxışlı siyasətçilər olur ki, düşüncəsindəki süniliyə görə xalq onları qəbul etmir, fikirləri də elə süni nəzəriyyə olaraq qalır. İlham Əliyevin digər üstünlüyü ondadır ki, ciddiliklə səmimiyyəti, keçmiş ənənə ilə müasirliyi birləşdirə bilir. Azərbaycanın yeni prezindentinin siyasətinə görə, cəmiyyətin marağı həyatın müəyyən hissəsinin normallaşmasında, sabitləşməsindədir. Səbəb odur ki, indi Azərbaycanda vətəndaşlıq hissləri güclənmiş və dövlətçiliyimizin görünən inkişaf yolu insanlar tərəfindən fəal müdafiə olunur.

İlham Əliyevin iqtisadi düşüncəsinin səciyyəsi də dünya praktikasına, ümumi harmoniyaya uyğun və millətin sabahına bağlı bir məsələdir. O, bütün təsərrüfat sistemini, iqtisadi münasibətləri dərindən bilir və bu sahədə Azərbaycanın yerini,

vəziyyətini düzgün müəyyənləşdirir. Öz fəaliyyəti ilə, konkret real işlə irəliləyişi vətəndaşların gün-güzərannda hiss etdirməklə, xalqın etimadını doğrultmaq niyyətində olan Prezident iqtisadi tərəqqinin gerçək nəticəsini almaq üçün qəti qərarlar qəbul etmişdir.

Bu gəlişən qərarlar onu göstərir ki, Azərbaycan dövləti öz inkişafını təkcə neft sektoru ilə bağlamır. Təsərrüfatın digər sahələrindəki potensialı da araşdıraraq yaxşı qiymətləndirir. Ölkənin bütün regionlarının iqtisadi-təsərrüfat sistemini canlandırmaq üçün mümkün variantlardan istifadə edir. Və bu gün belə bir fikrə gəlmək olar ki, Azərbaycanda yürüdülən siyasətin başlıca ideyası, gücü yüksək iqtisadi inkişafın təminatına yönəldilmişdir. Düzgün siyasət onu aydınladır ki, düşmən tapdağında əziyyət çəkən və həlli müyyən təsirlərlə səbrimizi azalda-azalda uzanan münaqişənin həlli, Dağlıq Qarabağımızın işğaldan azad olunması da elə iqtisadi qüdrətdən və bunun müqabilində reallaşan hərbi inkişafdan keçir.

Prezident İlham Əliyevin ictimaiyyətlə 2003-cü ildə seçkiqabağı görüşlərində, eləcə də sonralar irəli sürdüyü mülahizələrə diqqət yetirsək siyasətinin əsas məğzində xalqın rifahına hesablanmış istiqamətin konturlarının dayandığını açıq görmək olar. Qlobal iqtisadi-siyasi tələblər zamanında vəzifələr də böyükdür: "...600 min iş yeri açılacaqdır. Bu, çox böyük rəqəmdir. Bəzilərinə elə gələ bilər ki, bu, qeyri-realdır. Amma mən sizə deyə bilərəm ki, bütün iqtisadi hesablamalar aparılmışdır və bir daha mən bu rəqəmi sizin nəzərinizə çatdırıram. Belə olan halda, Azərbaycanda işsizlik problemi, demək olar ki, tamamilə aradan qaldırılacaqdır". Bunu Prezident deyirsə, deməli, təkcə vəd deyil və artıq hökumətin reallığa söykənən proqramlarının olduğunu göstərir və bu proqram cəmiyyətə təqdim olunub.

Yadda saxlamaq lazımdır ki, bütün islahatların nəticələrinin göstəricilərinə görə, Azərbaycan dinamik inkişaf edən ölkədir. Bu, hər hansı fərdin, yaxud dar çevrəli siyasi qrupun yox, beynəlxalq rəyin qənaətidir. Adambaşına düşən xarici sərmayənin həcminə görə MDB və Şərqi Avropa miqyasına nisbətdə ölkəmiz ön sıralardadır. Vətəndaşların həyat şəraitinin yüksəlməsi, qaçqınların

dözülməz vəziyyətdə yaşadığı çadır şəhərciklərinin ləğvi, yoxsulluğun aradan qaldırılması müasir siyasətin əsas prioritetlərindəndir.

Prezidentin müdafiə etdiyi strateji məqsədlərindən biri də özəl sektora – sahibkarlara dövlətin göstərdiyi dəstəkdir. Hamı bilir ki, neft gəlirləri iqtisadiyyatın inkişaf perspektivləri üçün böyük amildir, bununla belə, bütün təsərrüfat sahələrinin gəlişməsi işi də qəbul olunan qərarlara nəzərən yaxın gələcək üçün daha normal səviyyəyə çatmalıdır.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kimi dünya əhəmiyyətli neft boru kəmərinin tikintisi 2005-ci ildə başa tamamlanıb. Layihənin həyata keçirilməsi ideyasının yarandığı ilk gündən qarşıya çıxan maneələri Azərbaycan iqtidarı qətiyyətlə aradan qaldırmışdır. Artıq kəmərin işə düşəcəyi – neftimizi dünya bazarına çıxaracağı gün çox da uzaqda deyil. Təxminən bir ildən sonra üçüncü minilliyin ən nəhəng mühəndis qurğusu istifadəyə veriləcək. Neft hasilatı 50 milyon tona çatandan sonra daxil olan böyük məbləğdə vəsait Azərbaycanın hərtərəfli inkişafını gerçək həqiqətə çevirəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəsi, vətəndaşları, xalqının milli-mədəni irsi haqqında dünyanın tərkib hissəsi olan potensial sivilizasiyalı, intellektual cəmiyyət, fəxarətli keçmişə malik bir məkan kimi düşünür. O, müasir dünyanın dinamikasının avanqard modellərini Vətəninə gətirmək istəyən siyasətçidir.

Azadlıq, İnkişaf və Məsuliyyət İlham Əliyev siyasətinin əsas xarakteridir. Bu xarakterdə qeyri-səmimiliyə, təşəbbüssüzlüyə, tənbəlliyə qarşı barışmaz münasibət var.

Ölkəni irəli aparmaq üçün əsas şərtlər, normal baza Azərbaycanda artıq mövcuddur:

Müstəqillik dövrünün Heydər Əliyev ideologiyası bu gün üçün çalışqan, əqidəli və savadlı kadrlar meydana çıxarmışdır;

Dövlət başçısı tərəfindən regional siyasət proqramı lazımi müasir tələblər səviyyəsində hazırlanmışdır, sadəcə, ondan diqqətlə istifadə etmək lazımdır;

Ən mühümü isə odur ki, Prezidentlə xalqın həmrəyliyini hamı görür və hiss edir. Bu etimadı o öz demokratik, vətənpərvər, milli düşüncəsi ilə qazanmışdır!

Müstəqillik illəri Azərbaycanı, onun insanlarını daha düşüncəli və müdrik etmişdir. Son illər yeridilən qlobal, dünyanın realhqlarını əks etdirən xarici siyasətdə İlham Əliyevin xidmətləri həmişə göz qabağında olmuşdur. Uğurlu xarici siyasətimiz onun iştirakı ilə beynəlxalq aləmdəki mövqeyini dünyanın siyasi dairələrinin bəyəndiyi tərzdə möhkəmləndirmişdir. Burada önəmlisi müstəqil dəst-xəttin olmasıdır. Bu mənada, iri ölkələrin, o cümlədən Amerika Birləşmiş Ştatlarının Azərbaycanı tərəfdaş kimi seçməsinin mənası və faydası böyükdür, anlaşılandır, dövlətimizin demokratik imicinin səmərəsidir.

Artıq bir neçə ildir ki, ölkəmiz Avropa Şurasının üzvüdür. Bu mötəbər təşkilatda fəal iştirakı ona xeyli hörmət və izzət gətirmişdir. İnsan hüquqlarının təminatına və demokratik cəmiyyət quruculuğu sahəsinə dövlətimizin birinci dərəcəli məsələ kimi yanaşması, beynəlxalq prinsiplərə, dəyərlərə lazımi səviyyədə əməl etməsi Avropada izlənilir və dəyərləndirilir.

İlham Əliyevin Prezident kimi Strasburqa ilk səfəri və bu nüfuzlu təşkilatda dostcasına, böyük ehtiramla qarşılanması təsadüfi deyildir. Çünki dövlətimizin başçısı ötənlərdə təşkilatdakı uğurlu fəaliyyəti, siyasi qabiliyyəti, obyektiv mövqeyi ilə bu imici qazanmışdı, AŞ PA-nın yüksək vəzifə kürsüsünə ucalmışdı. İndi isə o, Azərbaycanın Prezidentidir. Dünyada yaşayan bütün azərbaycanlıların lideri olmaq amacındadır. Cənab İlham Əliyevin Avropa Şurasında keçirdiyi görüşlər, dərin məzmunlu nitqi, insan haqları, dövlətlərin ərazi bütövlüyü, təhlükəsizlik prinsipləri, müasir inkişafın mahiyyəti və digər gerçək demokratik amillər haqqında mülahizələri onun təfəkkürünün miqyasını bir daha dünyaya göstərdi.

Prezidentə AŞ PA-nın fəxri üzv diplomu və medalının verilməsi vaxtilə bu təşkilatda işgüzarlığı ilə seçilən, Azərbaycanın Avropaya fəal inteqrasiyasında böyük xidmətləri olan insanın əməyinə verilən yüksək qiymətdir. Bütövlükdə isə, bu hamımızın uğurudur. Prezident İlham Əliyevin bu münasibətlə Assambleyadakı çıxışı, mətbuat işçiləri ilə görüşləri ölkəmiz, xalqımız, burada gedən irimiqyaslı inkişaf prosesləri barədə avropalı siyasətçilərdə aydın təsəvvür yaratdı. Eyni zamanda, Ermənistanın torpaqlarımıza təcavüzünün ağır, acı mənzərələri, ermənilər

tərəfindən işğal olunmuş əzəli doğma ərazilərimizin, qaçqın düşmüş bir milyondan çox insanın ümumi vəziyyəti haqqında dövlət başçısının səsləndirdiyi fikirlər, göstərdiyi dəlillər avropalılarda məsələlərə dair obyektiv rəylərin, ədalətli mövqenin formalaşmasına istiqamətlənmişdir.

Səfərin nəticələri belə bir qənaət hasil edir ki, dünyada Azərbaycana tərəqqi və demokratiya yolunda olan ölkə kimi baxırlar. Bu, beynəlxalq aləmdə mövqelərimizin möhkəmlənməsi faktıdır. Beynəlxalq əlaqələrimizdə cəmiyyət həyatının bütün sahələrində bir-birini tamamlayan zəruri anlaşma və əməkdaşlığın ölkələrimizin durumuna bəxş etdiyi inkişafın, maddi-mənəvi dəstəyin miqyası çox böyükdür.

Beynəlxalq əlaqələrimizdə Türk dünyası faktoruna da böyük önəm verilir. Türk dünyası və Türkiyənin timsalında münasibətlərimiz xalqlarımızın qardaşlıq mənşəyi üzərində təşəkkül tapmaqla ümummilli lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" milli-ideoloji məzmunu böyük olan tarixi kəlamı anlamında və formasındadır.

Prezident İlham Əliyev tarixi bağlılığı möhkəm olan xalqlarımızın çağdaş əlaqələrinə milli aspektdən, özü də əvvəlki siyasətə sədaqət nümayiş etdirərək diqqətini müəyyənləşdirir. "Biz ümumi kökləri olan bir xalqıq, bir dilimiz, bir dinimiz var. Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər həmişə dostluq və qardaşlıq kimi səciyyələndirilmişdir. Əsrlər boyu bizi ayırmaq istəsələr də, bu cəhdlər nəticə verməmişdir. İndi də heç bir qüvvə bizi ayırmaq iqtidarında deyil. Azərbaycanın dost və qardaş münasibətinə daha böyük ehtiyacı var".

Bir qədər geniş, həm də konkret anlamda, bu, Prezident İlham Əliyevin Türkiyə ilə birlikdə Türk dünyasına, türk xalqlarına, ümumi etnik-mədəni dəyərlərimizə doğma münasibətidir.

Möhkəm təməllər üzərində yeridilən siyasətdə türkoloji yönümlülük, türk xalqları arasında müasir əlaqələrin ən effektiv başlanğıcı 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən qoyulub. Prezident İlham Əliyev isə siyasətində bu möhkəm ənənələri layiqincə qiymətləndirməklə yanaşı, həm də onun

inkişafı və modernləşməsi üçün öz düşüncəsini, məharətini sərf edir.

Prezident İlham Əliyevin Türkiyəyə, ondan əvvəl isə Qazaxıstana və Özbəkistana ilk rəsmi səfərləri qardaş ölkələrimiz arasında müttəfiqlik münasibətlərinin əsaslarının dönməzliyini bir daha dünyaya göstərdi. Türk dünyasının, Azərbaycanın bundan sonrakı dövr üçün Avrasiya məkanında yerinin və rolunun müəyyənləşdirilməsi kimi səciyyələndi. Eyni zamanda, türkdilli ölkələrin rəhbərləri ilə görüş və danışıqların ovqatı əlaqələrin yeni inkişaf mərhələsinə başlamağa bir stimuldur. Və bu stimulun özəyində dünya siyasətinin ehtiyacları baxımından bütün meyarlara münasib yeni dünyagörüşlü bir siyasi simanın getdikcə artan nüfuzu dayanır.

Əlbəttə, İlham Əliyevin mükəmməl alt yapı üzərində formalaşmış liderlik xüsusiyyəti nüfuzunun ilk konturlarını xalq arasında müyyənləşdirdikdən sonra məhz Avropada və Türk dünyasında özəl, dünyəvi xarakter alır.

Böyük türk aləminə İlham Əliyev Prezident kimi ilk səfərindəncə təbii bir doğmalıq, hörmət və ehtiram gördü. Türk ictimaiyyəti, türk xalqı onun şəxsiyyətinin, gendən gələn siyasi istedadının, mənəviyyatındakı sadəliyinin və yüksəkliyin şahidi oldu, fəxr edəcəyi dövlət xadimini yaxından duydu.

Türkiyə Azərbaycanla strateji tərəfdaşdır. Xalqlarımız və müstəqil dövlətlərimiz sevinci də, acını da bölməyi bacarır. Bütün yönlərdə, o cümlədən humanitar sahələrdəki əlaqələr də kifayət qədər normal səviyyədə, xalqlarımızın istəyincə qurulmuşdur. Müasir mədəniyyətlərimizin təmaslarında 70 ilin ayrılığından, sovet qadağalarından sonra bir etap yaranıb və mənəvi-ruhi əhəmiyyət daşıyan əməkdaşlıqda yeni-yeni nüanslar özünə yer tapmaqdadır. Habelə, 10 il ərzində birgə səylərlə müxtəlif bölgələrimizdə açılan özəl təhsil müəssisələrinin müasir şəraiti, mədəni, iqtisadi-ticari əməkdaşlığı həyata keçirən ayrı-ayrı birgə müəssisələrin quruluşu bütün beynəlxalq standartlara tam cavab verir. Maarifçilik işində də ümumi dəyərlərimiz əsas götürülür.

Ümummilli lider Heydər Əliyevin düşüncəsində türk dünyasının görkəmli dövlət xadimlərinə, unudulmaz şəxsiyyətlərə, mütəfəkkirlərə xüsusi bir ehtiram var idi. O, böyük Atatürkün

şəxsiyyətinə və irsinə, xidmətlərinə də yüksək sayğılar bəsləyirdi. Bu münasibətin ifadəsi olaraq ümummilli lider 2001-ci ildə milli-mənəvi, mədəni bağlılığımızın inkişafı üçün mühüm əhəmiyyət daşıyan bir təsisat – Azərbaycanda Atatürk Mərkəzini yaratmışdır.

Eynilə Türkiyədə də Türk dünyasının çağdaş lideri Heydər Əliyev şəxsiyyətinə böyük sevgilər hər zaman duyulur. Bu qarşılıqlı münasibətlər milli azadlıq mübarizləri Atatürk və Heydər Əliyev ideyalarına xalq və dövlət səviyyəsində məhəbbətin bütün türk dünyası üçün örnək təzahürüdür.

Çağdaş müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yerin yüksək olduğunu milli dövlət quruculuğu prosesində daim xatırlamışdır. Azərbaycanda Atatürk Mərkəzini yaratmaq fikri də bütün türklərin mütəfəkkir insanına zamanında gördüyü işlərə görə cəmiyyətimizdə minnətdarlıq hissinin ifadəsidir. Yarandığı vaxtdan etibarən mərkəz məqsədləri çərçivəsində bir sıra ürəkaçan işlər görmüşdür.

Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Mərkəzin təntənəli açılış mərasimi göstərdi ki, bu institutun yaradılması ideyası, fəaliyyəti türkçülük amallarına nəzərən Türk dünyasının birliyi istiqamətində mühümdür. Bu mənada, Heydər Əliyev Atatürkün tarixi, mədəni irsinin öyrənilməsi zərurətini duyaraq ölkəmizdə belə bir mərkəzin olmasını milli təəssübkeşlik hissindən çıxış edərək irəli sürmüşdür. İdeya gerçəkləşənə qədər də öndərimiz müxtəlif məqamlarda Atatürk haqqında özünün çox maraqlı, dəqiq və aydın mülahizələrini söyləmişdir. Bu, Azərbaycanın milli dövlətçilik tarixində bərkimiş ana ideologiyada türkoloji mühitin meydanının genişlənməsi kimi nəzərdə saxlanılmalıdır.

Türkiyə dövlətinin qurulması prosesində Atatürkün mübarizəsinin əsasları Heydər Əliyev xarakterli dövlət qurucusunun və onun davamçısı Prezident İlham Əliyevin təfsirində daha sistemli şəkildə şərh olunur. Milli liderimiz həmişə Atatürkün türk dünyası tarixində fəaliyyətinə yüksək qiymət verir və onun təcrübəsindən Azərbaycanda istifadə edirdi.

Atatürk Azərbaycan üçün də əziz bir şəxsiyyət olmuşdur. Ona görə də mərkəzin yaradılması məqsədi Türk dünyasının

böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk Prezidenti Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yerə münasibətdə onun irsinin, o cümlədən doğma türk tarixinin və mədəniyyətinin Azərbaycanda layiqincə öyrənilməsi və təbliğatına əsaslanırdı. Burada türk dünyasının tarixi, mədəniyyəti və bu sferaya daxil ola biləcək digər məsələləri araşdırmaq da nəzərdə tutulmuşdur. Mərkəzin fəaliyyəti də ictimai fikri Türk dünyası və Atatürklə bağlı tarixi hadisələrə, araşdırmalara, münasibətlərə yenidən yönəltməyi istiqamət olaraq seçmişdir.

Mərkəzin açılışında Azərbaycan Prezidenti İlham Əliyev türk dünyasının dövlətləri arasında əlaqələrin inkişafı, ölkəmizdə Atatürk irsinin öyrənilməsinin zəruriliyi barədə fikirlərini söylədi. Bu fikirlərdə millətin öz dəyərlərinə hörməti şəffaf ifadəsini tapmışdır. Taleyin işidir – Heydər Əliyev bu mərkəzi yaratdı, vəzifə və prinsiplərini müəyyənləşdirdi. Amma mərkəzin açılışı Azərbaycanın yeni Prezidenti İlham Əliyevə nəsib oldu...

Mərkəzə qayğı məsələsində, ümümən türk xalqlarının daha da yaxınlaşması siyasətində bu gün Heydər Əliyevsizlik duyğusu olsa da, onun ideyalarının öz axarında həyata keçirilməsi Prezident İlham Əliyevin həmişə diqqətində olacaq bir xəttdir. Bu mənada, dövlətimizin başçısının türkdilli ölkələrə – Qazaxıstana, Özbəkistana, Türkiyəyə xüsusi maraq doğuran səfərləri, əhatəli görüşləri Azərbaycanın Türk dünyasında yerinin, nüfuzunun gələcəkdə də möhkəmlənməsi ilə bağlı çox böyük vədlər verir. Hadisələr və çağdaş ideologiya diqtə edir ki, müasir türk dünyasında gedən proseslər də qarşılıqlı surətdə öyrənilməlidir. Yəni millət öz öndərlərinin mübarizə təcrübəsindən bəhrələnməlidir.

Ümumtürk məkanındakı münasibətlərdən belə nəticə çıxarmaq daha düzgün olar ki, Prezident İlham Əliyevin dövlətçilik düşüncəsində türk dünyasının, xalqlarımızın hərtərəfli əlaqələrində Atatürkün və Heydər Əliyevin təcrübələri əsasında zənginliyi təmin etmək missiyası da vardır.

Aydın müşahidə olunur ki, Azərbaycan Prezidenti fəaliyyəti ilə türk dünyasının birliyi, sıx əməkdaşlığı uğrunda müqəddəs ideallara xidmət edir. Bu mənada, Prezidentimizin Türk dünyasına – Qazaxıstana, Özbəkistana və Türkiyəyə səfərləri tam dol-

ğunluğu, sistemliliyi ilə cəmiyyətin içində xüsusi maraq dairəsi yaradır. Bununla yanaşı, cəmiyyətin intellektual – ziyalı hissəsi dövlətimizin siyasətini, müstəqillik və inkişaf uğrunda mübarizəsini, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ənənələrini təbliğ etmək, Azərbaycanın beynəlxalq aləmdə, eləcə də türk dünyasında yerini müəyyənləşdirmək yönümündə rəhbərinə öz köməyini göstərməlidir. Çünki dünyanın problemləri getdikcə qloballaşır, bir-birinə inteqrasiya olunur, eyni zamanda, rəqabətlər də artır. Müasir siyasət onu öyrədir ki, biz bu proseslərdə dünya birliyinin üzvü kimi, Azərbaycanın təcrübəsinə uyğun olaraq iştirak etməliyik.

Azərbaycan Prezidenti ölkəsi, vətəndaşları, milli-mədəni irsi haqqında dünyanın tərkib hissəsi olan potensial sivilizasiyalı, intellektual cəmiyyət, fəxarətli keçmişə malik bir xalq, məkan kimi düşünür. O, müasir dünyanın dinamikasının avanqard modellərini Vətəninə gətirmək istəyən siyasətçidir.

Mədəni-mənəvi siyasət də ölkəmizin gələcək həyatı, yeni nəsillərin mənəvi xəzinəmizin dəyərləri, ənənələri üzərində maariflənməsi və yetişməsi üçün əvəzsiz istiqamətdir. Bu diqqət tələb edən məsələ dövlət quruculuğunda bütün əlamətləri ilə daim nəzərdə saxlanılmışdır.

Azərbaycanın müstəqillik əldə etməsi tarixi çoxspektrli bir prosesdir. Quruculuq təcrübəsi göstərir ki, bu prosesdə siyasi, iqtisadi, beynəxalq hüquqla yanaşı, mənəviyyat, mədəniyyət məsələsi də önəmli cəhətlərdən sayılmışdır.

İndiki zamanda mənəvi-ruhi əhəmiyyəti böyük olan məsələlər içərisində latın qrafikası ilə ana dilində kütləvi nəşrlərin həyata keçirilməsi və Milli Ensiklopediyanın nəşri daha aktualdır. Bu baxımdan, uyğun işlərin təşkili ilə bağlı Prezident sərəncamları böyük milli-mənəvi səciyyə daşıyır.

Vaxtilə Prezident Heydər Əliyevin bütün ölkə miqyasında latın qrafikalı Azərbaycan əlifbasına keçidi qərarlaşdıran sərəncamı tarixi hadisə idisə, sonrakı mərhələdə yeni nəslin formalaşmasında vacib olan bədii əsərlərin çapına da eyni dərəcədə mənəvi ehtiyac yaranmışdı. Ona görə də latın əlifbasında kütləvi nəşrlərin həyata keçirilməsi kimi sanballı bir kampaniya cəmiy-

yətin ruhi ehtiyaclarının aradan qaldırılmasında ən vacib yol hesab edilməlidir...

Xatirimizdədir ki, mənəviyyat məsələsi ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəllərində həddən artıq qeyri-mükəmməl ideoloji və köksüz şəkildə qoyulmuşdu. Həmin proses ona görə uğur qazanmadı ki, mükəmməl ideologiya və ideoloq yox idi. İdeologiyanı formalaşdıran milli mənəviyyatın özündə bir canlanma sezilmirdi. Tarixi keçmişdən qalan zəngin irsi, mədəni varisliyi lazımi səviyyədə dərk etmək lazım idi. Bir az kökümüz qədim türklərdən, bir az da islam-müsəlman mədəniyyətindən götürməklə müasir mənəviyyatı təsəvvür etmək mümkün deyil. Şübhəsiz, yalnız mənəviyyatın nədən ibarət olduğunu bildikdən sonra onun üzərində sağlam ideologiya qurmaq olar.

Müstəqil dövlət quruculuğu ilə bir arada Heydər Əliyev ardıcıl surətdə milli mənəviyyat məsələləri barəsində çox ciddi düşünmüş və tədricən indiki böyük ideologiyanı yaratmışdır. Həyat göstərdi ki, mənəviyyat ideologiyasının başlıca istiqamətlərindən biri latın qrafikalı Azərbaycan əlifbasına keçid məsələsidir. Bu, sadəcə, texniki bir proses deyil, xalqımızın mənəviyyatının əsas daşıyıcısını özündə ehtiva edən siyasətdir.

Latın əlifbasına keçidin cəmiyyətin həyatında mənəvi-ideoloji məsələ olduğunu Prezident Heydər Əliyev dövlətçilik şüurunun mükəmməlliyi ilə dərindən duyurdu.

Latın əlifbasına keçid Azərbaycanda kifayət qədər normal məntiqi əsaslarla üç mərhələdə gedib. Birincisi, gənc nəsil yeni əlifbam öyrənməyə 90-cı illərin əvvəllərindən başlasa da, bu işdə bir pərakəndəlik, sistemsizlik var idi. Ona görə də uğurlu nəticələr alınmadı. İkincisi, yalnız Heydər Əliyevin milli dövlət quruculuğuna başlamasından sonra bu sahədə bir sistem yaradıldı. Yəni cəmiyyətə qəfil təzyiq göstərilmədən, təbii surətdə on il ərzində bütün təhsil sistemi, orta məktəblərimiz, mərkəzi dövlət idarələri latın əlifbasına keçmişdir. Bu mərhələ 2001-ci il 18 iyun tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında Prezident fərmanı ilə gerçəkliyə qovuşmuşdur.

Üçüncü mərhələyə isə Heydər Əliyevin irəli sürdüyü proqram əsasında yenicə qədəm qoymuşuq. Prosesin həyata keçirilməsi Azərbaycanın yeni Prezidenti İlham Əliyevin öhdəsinə

düşür və onun dövləti fəaliyyətində milli mənəviyyatın təməllərinə nə qədər qayğıkeş yanaşdığı göz qabağındadır.

Prezidentin latın qrafikalı əlifbada bədii, elmi ədəbiyyatların nəşrinə başlamaq qərarı mədəni, ideoloji məzmunu ilə yanaşı, daha geniş məsələləri də özündə ehtiva edir. Latın qrafikalı əlifba ilə kütləvi nəşrlərin həyata keçirilməsi Azərbaycan dövlətinin mədəniyyət, mənəviyyat sahəsindəki müasir siyasətini ifadə edir və möhkəm əsaslara malikdir. Ona görə də bu sahədə heç bir problem görünmür və problem axtarmaq da lazım gəlmir. Artıq müəyyən təcrübə vardır. Bəzi görkəmli sənətkarlarımızın əsərləri latın əlifbasında nəşr olunub. Amma bunların tirajı cəmiyyətin tələbatını ödəyəcək səviyyədə deyil. Deməli, geniş kampaniyaya keçmək vaxtı gəlib çatmışdır.

Mənəviyyat sahəsində intibahın yolu qarşımızdadır. Dövlətimiz milləti mənəvi baxımdan yüksəltmək üçün öz siyasətini bütün imkanlardan istifadəyə yönəltmişdir.

Müasir dövlətçiliyimizin yaradıcısı Heydər Əliyev qeyd edirdi ki, dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı Azərbaycana Ata Evi kimi baxmalıdır. Bu gün isə Ata Evi funksiyasında milli ədəbiyyatın, azərbaycanlı düşüncəsinin məhsulu olan əsas əsərlərin yeni əlifbada nəşr olunması, yeni nəslin milli meyarlar əsasında maariflənməsi başlıca vəzifədir.

Göstərilən xüsusi siyahıdakı əsərlərin nəşri hətta 2-3 il ərzində həyata keçirilsə belə, yenə də Azərbaycanın mədəni-mənəvi həyatında bir intibah olacaqdır. Praktika belədir ki, həmişə elmi, bədii ədəbiyyatların nəşrində ideoloji prinsiplər gözlənilməlidir. İndinin özündə də buna yalnız ideoloji yox, həm də milli məsələ kimi baxılmalıdır.

Burada hər hansı siyasi-ideoloji məqsəddən çox, xalqın səviyyəsinin qalxması, mənəvi cəhətdən zənginləşməsi amah durur. Bundan önəmlisi varmı?! Azərbaycan xalqının indiyədək yaratdığı yaxşı nə mövcuddursa, hamısının cəmiyyətə təqdim olunması ideyası reallaşmalıdır. Göründüyü kimi, ölkəmizin maddi imkanları çoxaldıqca mədəniyyətə qayğı artır, daha da stimullaşır. Yəni dövlətimizin başçısı İlham Əliyev siyasətinin əsas istiqamətlərindən biri xalqımızın qazandığı maddi nemətləri

mənəvi sərvətlərə çevirməkdir. Bu məsələ xalqımızın şərəfli mədəniyyət tarixində təqdirəlayiq əhəmiyyət kəsb edir. Azərbaycan dövlətinin çağdaş siyasətinin səviyyəsi maddi nemətləri mənəvi nemətlərə çevirməyə qadirdir. Maddi nemətlərin çoxluğunu təmin edib, səviyyəsiz bir kütlə yetişdirməyin özü mənəviyyatsızlıqdır.

Prezident Heydər Əliyevin milli dövlət quruculuğu ideologiyası yeni Prezidentin ideoloji söykənəcəyi, daim siyasi enerji götürəcəyi böyük mənbədir. İlham Əliyevin siyasətinin əsas özəlliyi də Azərbaycanı sivil məkana çevirmək, xalqı mənəvi cəhətdən ruhlandırmaq, təşkil etmək, dünyada bir millət kimi qürurla yaşamağımıza ideoloji-mədəni təminat yaratmaqdır. Azərbaycanda elmin, ictimai şüurun, mədəni-mənəvi ideologiyanın inkişaf etdirilməsi də bu işlərin əhatə dairəsinə daxildir.

Ümumiyyətlə, yeni əlifbaya keçidin mürəkkəb məsələ olduğunu hamı anlamalıdır. Bunun bir-birindən fərqli cəhətləri var. Bu gün kimsə keçmiş kiril əlifbasının Azərbaycan dilinin fonetik quruluşunu əks etdirmədiyini deyirsə, bu, elmi baxımdan heç də düzgün deyil. Qüsurlara baxmayaraq, kiril əlifbası 50-ci illərdən bəri Azərbaycan dilinin xüsusiyyətlərini normal səviyyədə əks etdirirdi.

Kirildən imtina etməyimizin ideoloji səbəblərindən biri odur ki, bu əlifba bizim yadımıza müstəqil olmamağımızı salırdı. İmperialist siyasət onu bizə hansı ideoloji əsaslarla qəbul etdirmişdisə, biz də o şəkildə imtina etdik. Biz kiril əlifbasında yaranmış ədəbiyyatda daim təzyiq altında olan azadlıq düşüncəmizi, mənəviyyatımızı görürük. O dövrün milli bədii nümunələrində "türk sözü, milli oyanış ovqatı, türkə sevgi məsələsi sovet qadağalarının hər üzünü görmüşdü. İdeoloji təzyiq insanların daxilinə də hökm edirdi...

Ona görə də latın əlifbasında kütləvi nəşrlərin həyata keçirilməsi siyasəti məzmunu, forması, texnologiyası etibarilə böyük mənəvi hadisədir. Sanki bu hadisə vasitəsilə xalqın mənəviyyatı, elmi düşüncəsi, ədəbiyyatı reabilitasiya alır. Həm də biz müstəqilliyimizin yazı formasını əldə edirik. Latın qrafikası dünyanın böyük hissəsində ümumişlək durumdadır. Bu xüsusda, burada universallıqla yanaşı, özündə milliliyi ehtiva edən

beynəlmiləlləşmə məsələsi də var. Eyni zamanda, türkçülük tariximizin böyük hissəsi bu əlifba ilə bağlıdır.

Prezident İlham Əliyevin siyasətinin mahiyyətinə vardığı mənəvi-tarixi ehtiyaclardan biri də xalqımızın tarixindəki mühüm ictimai-siyasi, elmi və mədəni hadisələri müasir dövrün tələblərinə uyğun səviyyədə əks etdirən Milli Ensiklopediyanın nəşri ideyasıdır. Milli Ensiklopediya tarixi, elmi-fəlsəfi, metodoloji düşüncənin inkişafı ilə əlaqədar olan bir məsələdir – müasir dünyanı bütövlükdə dərk etmək texnikasının sistemli şəkildə təqdim olunmasıdır. Bu təşəbbüs Azərbaycan xalqının tarixi mənşəyi barədə aydın, dəqiq fikirlərə gəlib çıxmağımız, keçdiyimiz inkişaf yollarını araşdırmaq, tarixi şəxsiyyətlərimizə bələdlik, dünya elminin vəziyyətini öyrənmək baxımından qiymətlidir. Dövlətimizin başçısı İlham Əliyev bu sərəncamı ilə azərbaycanlı elmi-fəlsəfi təfəkkürünün inkişafı üçün böyük bir mexanizm, layihə meydana qoymuşdur. İndi əsas məsələ prosesi qiymətləndirmək, ona sürətlə qoşulmaqdır.

Dövlətin belə mədəni-mənəvi, siyasi istiqamət aparması cəmiyyətimizin ziyalı hissəsinin, elmi müəssisələrimizin öhdəsinə mühüm vəzifələr, məsuliyyət qoyur. Bu ideya elə bir mənəvi enerji mənbəyidir ki, müntəzəm şəkildə inkişaf proseslərini qidalandıracaq, millətin mədəniyyəti, mənəviyyatı, elmi öz tarixi kökləri üzərində zənginləşəcəkdir. Bundan isə yalnız Azərbaycan xalqı yox, bütün dünyanın ictimai, elmi düşüncəsi də faydalanacaq...

Prezident İlham Əliyev vətənpərvər, dünyəvi təfəkkürü ilə, Azərbaycanı yüksək mədəniyyətli, mənəviyyatlı diyara çevirmək yolundadır. Dünya tarixində millətlər zəngin nemətləri ilə yox, məhz böyük mədəniyyətləri ilə tanınırlar. Bu gün Azərbaycanda yürüdülən siyasətin milli mahiyyəti və professionallığı, çevikliyi bütün inkişafı milli-mənəvi potensial üzərində qurmağında təzahür edir. Heydər Əliyevin bizə qoyub getdiyi zəngin irs, formalaşdırdığı böyük dövlətçilik ideologiyası elə bir bütöv kompleksdir ki, imkanlar reallaşdıqca onun tərkib hissələri, məziyyətləri də tədricən artır. Bu mənada, cənab İlham Əliyevin təqdim etdiyi həyatın

bütün sahələrinə yönəlik inkişaf konsepsiyasının tipologiyası keçmiş sovet respublikalarının heç biri ilə müqayisə oluna bilməz...

İlham Əliyev bizim liderimizdir. Müstəqilliyimizin ilk illərinin xaotik çağlarında, islahatlar dövründə yetişmiş, öz millimənəvi, elmi səviyyəsini, qabiliyyətini göstərməyə o vaxtlar imkan tapmayan, intellektual ziyalı elektoratın, sadə insanların, erməni təcavüzündən əziyyət çəkmiş minlərlə vətəndaşın, ümumiyyətlə, dünya azərbaycanlılarının düşüncəsində onun liderliyi şəksiz qəbul olunur. Və ümumən, hazırda püxtələşən gəncliyin də, gənclik dövrünü arxada qoyaraq kamilləşən nəslin də düşüncəsi budur ki, şübhəsiz, İlham Əliyev Azərbaycanı yüksəltməklə bütün azərbaycanlıların Prezidenti olacaqdır. Ölkəsinin inkişafının şahidi olan hər bir vətəndaş, xalqın sosial rifahına doğru istiqamətlənmiş siyasətin bəhrələrini gündəlik həyatında duyacaqdır.

Prezidentin andiçmə mərasimindəki nitqindən bu tezisi Azərbaycanın gələcəyi üçün əsas amal hesab etmək olar: "Mən bu gün yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə üzümü tutub deyirəm: Əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik".

Bu amal, sədaqət, bu vəd təkcə İlham Əliyevin deyil, onu Prezident seçən və axıradək müdafiə edəcək, işində yardımçı olacaq insanların fikrini ifadə edir. Yeni Prezidentin Vətənə, xalqa və dövlətə sədaqət andı, eyni zamanda, onu rəhbər seçən cəmiyyətin də andı olmalıdır – Vətənə, millətə və Azərbaycanın Prezidentinə!

Bu bizim Vətən, tarix, gələcək nəsillər qarşısında vicdan borcumuzdur. Çünki insanlıq həmişə həqiqətin tərəfində olmuşdur. Azərbaycanın və bizim Həqiqətimiz böyükdür. Onu müdafiə etməyə qadirik!

Nizami CƏFƏROV,
Dəyanət OSMANLI

MUSTAFA KAMAL ATATÜRK VƏ HEYDƏR ƏLİYEV: TARİXİ MİSSİYALARDA OXŞARLIQ

Türk dünyası həmişə bəşəriyyətə ünlü tarixi şəxsiyyətlər bəxş edib. Belə tarixi şəxsiyyətlər içərisində xalqın və millətin öndəri, milli lideri adını qazanan Mustafa Kamal Atatürk və Heydər Əliyev xüsusi yer tutur. Onlar türk dünyasının, türk xalqlarının böyük tarixi şəxsiyyətləridir. Heydər Əliyev də Mustafa Kamal Atatürk kimi öz millətini sevən, dövlətçiliyin memarı və əsgəri olan dahi şəxsiyyətdir. Bu iki tarixi şəxsiyyəti bir-birindən ayırmaq olmur. Onların həm həyatında, həm fəaliyyətlərində, həm də tarixi missiyalarında çox böyük oxşar cəhətlər vardır. Hər ikisi bahar fəslində - may ayında doğulmuş, hər ikisinin atalarının adı Əlirza olmuş, hər ikisi hərbçi kimi, dövlət xadimi kimi xalqına və dövlətinə xidmət etmiş, hər ikisi öz xalqlarının xilaskarlıq missiyasını yerinə yetirmişdir.

Mustafa Kamal Atatürklə Heydər Əliyev ayrı-ayrı zaman və məkanlarda yaşasalar da eyni bir tarixi missiyam yerinə yetiriblər. Onların millətə, Vətənə, dövlətə məhəbbəti, məqsəd və amallarında oxşarlıq bunu deməyə əsas verir. Türk dünyasının bu iki öndərinin adı həmişə qoşa çəkilməli, fəaliyyət və tarixi xidmətləri qeyd edilməlidir.

XX əsrin birinsi qərinəsində Mustafa Kamal Atatürk öz milləti və dövləti naminə etdiyini və sonrakı mərhələlərdə etmək istədiyini XX əsrin son qərinəsində Heydər Əliyev Azərbaycanda həyata keçirdi.

Şəxsiyyətin cəmiyyət qarşısındakı rolunu vaxtı ilə böyük Atatürk çox yüksək qiymətləndirərək demişdir: «Ən böyük şəxsiyyət özündən çox mənsub olduğu cəmiyyəti düşü-

nən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır».

Heydər Əliyev isə bu barədə keçən əsrin sonunda belə deyib: «Dövlətçilik haqqında düşünən adam – həm adi vətəndaş, həm də dövlət işində işləyən, xüsusən, dövlətə başçılıq edən heç vaxt öz canı haqqında düşünməməlidir». Bu fikrin daha bir nümunəsi: «Əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər mübarizə aparacağam. Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi, bir prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram».

Atatürklə Heydər Əliyev şəxsiyyətində millətə, dövlətə olan məhəbbət, şəxsi hisslərdən çox-çox yüksəkdədir. Atatürk dağılmış bir imperiyadan Türk Cümhuriyyəti yaratdı. İndi Türkiyə dünyanın qüdrətli dövlətlərindən biri sayılır. Bu səbəbdən də türk xalqı Atatürkü özünə öndər sayır.

Heydər Əliyev də dağılmış, dövlətçiliyi məhv olmaq təhlükəsi qarşısında qalmış bir məmləkətdən Azərbaycan adlı müstəqil bir dövlət yaratdı. İndi Azərbaycan dünya miqyasında öz sözünü deyə bilir. Deməli, bu missiyanı yerinə yetirən Heydər Əliyev də xalqın öndəridir. Beləliklə, Ümummilli liderimiz çətin siyasi və sosial şəraitdə demokratik və hüquqi bir dövlət quraraq özünün «şah əsəri»ni yaratdı.

«Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi və qurucusudur», «Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir», «Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır» ifadələri Heydər Əliyevin millət və dövlət qarşısında xidmətlərinin etirafıdır. İndi fəxrlə deyirik ki, zaman ötdükcə bu fikir Azərbaycan vətəndaşının hafizəsində özünə layiqli yer tutur, ümummilli fikrin ifadəsinə çevrilir.

1934-cü ildə «Atatürk – türklərin atası» soyadını qazanan Mustafa Kamal paşa tarixə təkcə türk xalqının azadlıq hərəkatının lideri kimi yox, həm də yeni türk dövlətinin banisi kimi daxil olmuşdur.

Birinci Dünya müharibəsində məğlub olan türk xalqı Qazi Mustafa Kamalın başçılığı altında Anadoluda milli azadlıq hərəkatına başladı. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə çox ağır siyasi-iqtisadi şəraitdə Türkiyə torpağı yadelli işğalçılardan təmizləndi. Bu zaman Atatürk mübarizəsini paytaxtdan yox, regionlardan – Ərzurum və Sivasdan başladı. Ərzurum və Sivas konqreslərinin qərarı ilə ilk hakimiyyət strukturları formalaşdırıldı. Böyük qələbənin qazanılmasında türk millətinin varlığı bütün dünyaya elan edildi. Atatürk bu zəfərə istiqlal savaşı nəticəsində, lakin həm də zəkası, iradəsi və uzaqgörən siyasəti nəticəsində nail oldu. Böyük öndərin sonrakı mərhələlərdə qəbul etdiyi radikal qərarlar türk xalqının qəlbindəki imperiya hisslərinə üstün gələrək, ölkəni sosial-iqtisadi inkişaf yoluna yönəldə bildi. Onun ikinci radikal addımı xəlifəliyi ləğv etmək oldu. Türkiyə demokratik inkişaf yoluna qədəm qoyaraq Avropanın qüdrətli və demokratik dövlətlərindən birinə çevrildi. Atatürk cəmiyyətin mənəvi-ideoloji sferasında da radikal dəyişikliklər etdi. Dini dövlətdən ayırdı. Əsrlərdən bəri Osmanlı imperiyası islam dininin təbliğatçısı olmuşdu. İctimai fikrin əksinə getmək o dövrdə böyük cəsurluq tələb edirdi. Amma Atatürk böyük türk dövləti yaratmaq naminə bu addımı atdı.

Latın əlifbası əsasında yeni türk əlifbasının hazırlanması, Avropa standartlarına önəm verilməsi isə Türkiyəni Avropaya yaxınlaşdırdı. Lakin onun radikal addımları cəmiyyət tərəfindən maneələrlə qarşılanmadı. Çünki xalq öz xilaskarına inanırdı.

Heydər Əliyevə də paytaxtda – Bakıda yaşamağa imkan vermədilər. O, anadan olduğu doğma torpağa – Naxçıvana qayıtdı. Burada yaşadı, Azərbaycan parlamentinə və Naxçıvan MR Ali Sovetinə deputat seçildi. Dahi öndəri də 1993-cü ildə hakimiyyətə xalqın ona inamı gətirdi. Azərbaycan xalqı onun simasında öz xilaskarını görürdü. Buna görə də Azərbaycan xalqı onun yenidən hakimiyyətə qayıdışını təkidlə tələb etdi. Heydər Əliyev 1993-cü ildə ağır bir şəraitdə hakimiyyət yükünü çiyinlərinə götürərkən dövlətçiliyin və müstəqilliyin qorun-

ması naminə həyati əhəmiyyətli qərarlar qəbul etdi. Tariximizi, adət-ənənələrimizi, dilimizi və dinimizi qorumaq üçün zəruri tədbirlər gördü. Məscidə gedərək zəvvarları təbrik etdi. Prezidentin andiçmə mərasimində Qurani-Kərimə əl basdı.

Xalqın Azərbaycan dövlətçiliyini uçurum təhlükəsiylə qarşılaşdıranları yaxşı tanıması üçün parlamentin iclaslarının dövlət televiziyası vasitəsilə birbaşa yayımını təmin etdi. Cənub bölgəsindəki separatçılıq hərəkatının qarşısını almaq üçün 1993-cü ilin avqustunda televiziya ilə əhaliyə müraciət edərək öz dərin zəkası, ağıllı düşüncə tərzi ilə xalqın gözünü açdı, onun daxildəki düşmənlərini özünə tanıtdı. Müdriklik, ağıl, millətə arxalanmaq siyasəti tarixdə ilk dəfə zora qalib gəldi. Heydər Əliyev 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında baş verəcək dövlət çevrilişlərinin qarşısını da müdrikliyi ilə aldı. Bütün bu qarşıdurmalarda o fiziki gücə yox, ağıllı siyasətə, müdrikliyə, xalqın inamına arxalandı.

Mustafa Kamal Atatürk türk toplumları içərisində Azərbaycana xüsusi qiymət verir və bizim xalqımıza çox böyük ümid bəsləyirdi. Bu xalqın dərdini öz dərdi, sevincini öz sevinci bilərək deyirdi: «Azəri türklərinin dərdləri bizim dərdlərimiz və sevincləri öz sevinclərimiz olduğu üçün onların muradlarına nail olmaları, hür və müstəqil yaşamaları bizi həddindən çox sevindirir».

M.K.Atatürk Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü münasibətilə etdiyi çıxışda Azərbaycana və digər türk dövlətlərinə münasibətini uzaqgörənliklə ifadə etmişdir: «Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz və müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var. Lakin sabah nə olacağını bu gün heç kim müəyyən edə bilməz. Nəinki Osmanlı kimi, Avstriya-Macarıstan rejimi kimi parçalana bilər, kiçilə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər qonşularından qaça bilərlər. Dünya yeni bir müvazinətə keçə bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostluğumuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Susaraq o günü gözləmək lazım deyil, hazır olmaq lazımdır. Millətlər buna necə hazırla-

şırlar, mənəvi körpüləri möhkəm saxlayırlarmı? Biz bir körpüyük. İnam bir körpüdür, xaric bir körpüdür. Köklərimizə qayıtmalı və hadisələri bölən tariximizin içində bütövlənməliyik. Onların bizə yaxınlaşmasını gözləyə bilmərik. Biziin onlara yaxınlaşmağımız lazımdır».

Xalqımızın ümummilli lideri Heydər Əliyev də türk xalqı, Türkiyə Cümhuriyyəti, Mustafa Kamal Atatürk haqqında dəyərli fikirlər söyləmişdir. O, qeyd etmişdir ki, «Türk xalqının ən böyük nailiyyəti və xoşbəxtliyi ondan ibarətdir ki, XX əsrin əvvəllərində ağır və çətin bir dövrdə xalqın lideri, böyük şəxsiyyət meydana çıxdı və onun iradəsi ilə 1920-ci ildə ilk dəfə Böyük Millət Məclisi yaradıldı. Onun zəkası, iradəsi və uzaqgörənliyi ilə 1923-cü ildə Türkiyə Cümhuriyyəti quruldu».

Müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyev Türkiyə Cümhuriyyətinin yaradıcısı dahi M.K.Atatürkə həmişə yüksək qiymət vermiş, onun dövlət quruculuğu təcrübəsini öyrənməyi dövrümüzün tələbi hesab etmişdir. Göstərmişdir ki, Türkiyə Cümhuriyyəti Atatürkün yalnız fəaliyyəti nəticəsində deyil, həm də qəhrəmanlığı nəticəsində yaranmışdır. «Mustafa Kamal Atatürk XX əsrin dünyada ən böyük şəxsiyyətlərindən biridir. Dövlət adamı kimi, siyasət adamı kimi və dövlət başçısı kimi. Ölümündən 60 il sonra da Türkiyə xalqı onun qoyduğu yol ilə gedir. Görün, yol nə qədər doğru-düzgün qurulub ki, ə yoldan nə sağa, nə də sola dönmək mümkün deyil. Bu, Mustafa Kamal Atatürkün müdrikliyini göstərir, dahiliyini göstərir, öz xalqına xidmətlərinin nəticəsini göstərir».

Mustafa Kamal Atatürkün dövlətçilik təcrübəsini XX əsrin sonlarında yaradıcılıqla Azərbaycanda həyata keçirən Heydər Əliyev böyük Atatürkün adı ilə bağlı olan Beynəlxalq «Atatürk» sülh mükafatına layiq görüldü. Həmin mükafatın təqdim olunması mərasimində çıxış edən ulu öndərimiz demişdir: «Mənə böyük Atatürkün adını daşıyan Beynəlxalq Sülh mükafatı təqdim olunub. Bu mənim üçün, bütün Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan dövləti üçün böyük şərəfdir. Mən bununla fəxr edirəm».

Türkiyənin siyasi və iqtisadi durumunda Atatürk mərhələsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Türkiyə müstəqilliyinə məhz Mustafa Kamalın zamanında qovuşdu. Türkiyənin yüksəlişi onun adı ilə bağlıdır. Osmanlı ordusunun istedadlı generalı, türk xalqının milli qəhrəmanı olan Atatürkün tarix səhnəsindəki ən böyük rolu yeni qurduğu türk dövlətçiliyi ilə əlaqədar apardığı islahatlar idi. Bu islahatlar Türkiyənin təkcə iqtisadiyyatında deyil, mənəvi dünyasında da dönüş yaratdı.

Türkiyənin tarixində çox siyasi xadimlər olub. Lakin heç birinin adı türk dövlətinin adı ilə yanaşı çəkilməmişdi. Türkiyə deyəndə Atatürk, Atatürk deyəndə Türkiyə anılır.

Müasir tariximizdə özünəməxsus yer tutan Heydər Əliyev mərhələsi də bir növ Atatürk mərhələsinin davamı kimi yaddaşlara həkk olunub. Yenilməz, tədbirli sərkərdə, dünyanı parlaq zəkası ilə heyrətə salan dövlət xadimi Heydər Əliyev tarixdə bu xüsusiyyətlərinə görə xüsusi bir iz qoymuşdur. O, Azərbaycanla Türkiyəni iki dövlət bayrağı altında yaşayan bir millət kimi səciyyələndirdi. Azərbaycan tarixinin son 35 ili, yəni 1969-cu ildən 2004-cü ilədək ölkəmizin ictimai, siyasi-iqtisadi, ictimai-mənəvi həyatında baş verən inkişaf məhz onun adı ilə bağlıdır. Ulu öndərimizin uzaqgörən və incə siyasəti nəticəsində dilimiz, milli mədəniyyətimiz, tariximiz, adət-ənənələrimiz qorunaraq bu günümüzə ötürülüb. Heydər Əliyev ömrünün sonunadək həyatın bütün sahələrində mütərəqqi islahatların təşəbbüskarı və memarı oldu. Heydər Əliyevin adı Azərbaycanla qoşa çəkilir. Azərbaycan deyəndə Heydər Əliyev, Heydər Əliyev deyəndə Azərbaycan yada düşür.

Naxçıvanla bağlı Atatürkün ideyalarının həyata keçirilməsinə Heydər Əliyev böyük töhfə vermiş, erməni daşnakları tərəfindən bu bölgənin işğal edilməsinə yol verməmiş, muxtariyyət statusunun qorunub saxlanılması üçün geniş fəaliyyət göstərmişdir. Keçən əsrin 20-ci illərində Naxçıvanın Türkiyə ilə sərhəddinin yaradılmasında, Naxçıvanın Azərbaycanın tərkibində qalmasında, onun üçüncü dövlətə verilməməsində və bunun beynəlxalq Moskva və Qars müqavilələri ilə rəsmiləş-

dirilməsində, Naxçıvana muxtariyyət statusunun verilməsində Mustafa Kamal Atatürkün böyük tarixi xidmətləri olmuşdur. «Naxçıvan türk qapısıdır. Bunu xüsusi nəzərə alaraq əlinizdən gələni yapınız»[10] tapşırığı Moskva ilə danışıqlara gedən Türkiyə nümayəndə heyəti tərəfindən uğurla yerinə yetirilmişdir.

XX əsrin sonlarında Naxçıvanın ərazi bütövlüyü pozulanda, sərhədlərinin təhlükəsizliyi üçün təhlükə yarananda, muxtariyyətin ləğv edilməsi üçün əsassız iddialar irəli sürüləndə Heydər Əliyev bunlara qarşı çıxmış, Türkiyə ilə danışıqlar aparmış, Qars müqaviləsinin Naxçıvanın muxtariyyətinin qarantı olduğunu müzakirə predmetinə çevirmiş və beynəlxalq ictimaiyyətin diqqətini bu problemə yönəltmişdir. «Naxçıvanın muxtariyyəti tarixi nailiyyətidir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq».

Bir sıra tədqiqatçıların fikirlərinə görə Heydər Əliyevlə Mustafa Kamal Atatürkü, müxtəlif mərhələlərdə yaşayan lider olsalar da, onları bir sıra ümumi cəhətlər birləşdirir;

1. Xalqa, Vətənə, milli-mənəvi irsə sədaqət, ümumbəşəri dəyərlərə hörmət, ehtiram.

2. Milli dövlət quruculuğuna rəhbərlikdə möhkəm, stabil qanunçuluqla demokratizmin üzvü olaraq əlaqələndirilməsi.

3. Gələcəyə böyük inam və öz fəaliyyətində yalnız sinxron uğurlarla kifayətlənməyib uğurlu perspektivlərin nəzərə alınması.

4. Xalqa arxalanmaq, xalq gücünə inam, xalqın və ölkənin taleyi ilə yaşamaq, xilaskarlıq missiyası və s.

Ümumiyyətlə, böyük türk dünyasının iki dahi şəxsiyyəti, tarixə iki böyük dövlət bəxş etdi. Türkiyə Cümhuriyyəti Atatürkün səngərlərdəki qəhrəmanlığının və müdrikliyinin, Azərbaycan dövləti isə Heydər Əliyev müdrikliyinin və qəhrəmanlığının nəticəsi kimi meydana gəldi. «Bir millət iki dövlət» olan Türkiyə-Azərbaycan dövlətləri və xalqları Mustafa Kamal Atatürk-Heydər Əliyev ideyaları əsasında yaşayır və fəaliyyət göstərir.

Ədəbiyyat

1. *Utkan Qocatürk. Atatürk. Bakı, 1991, s.118*
2. *«Tarix və onun problemləri» jurnalı (Xüsusi buraxılış). Bakı, 2004, s.175.*
3. *«Azərbaycan» qəzeti, 1993, 28 avqust.*
4. *Sitat Ş.Qurbanovun «Atatürk və Nərimanov» kitabından (Bakı, 2003, s.25) götürülmüşdür.*
5. *İsmət Bozdağ. Atatürkün Avrasiya dövləti. Ankara, 1999, s.31.*
6. *Heydər Əliyev Atatürk haqqında. Bakı, 2003, s.14.*
7. *Nazir Əhmədli. Mustafa Kamal Atatürk (portret cizgiləri). Bakı, 2002, s.4.*
8. *«Yeni Azərbaycan» qəzeti, 2006, 19 may.*
9. *«Azərbaycan» qəzeti, 1999, 2 noyabr.*
10. *Faruk Sümər. Mustafa Kamal paşa: Naxçıvan Türk qapısıdır. Türkiyə, «Türk dünyası» tarix dərgisi, aprel, 1992, s.5-6.*
11. *Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. c.14, Bakı, 2005, s.89.*
12. *«Azərbaycan» qəzeti, 1999, 15 aprel.*

İsmayıl HACIYEV,
akademik,
Azərbaycan MEA-nın
Naxçıvan Bölməsinin sədri

"ÜMİD KÖRPÜSÜ"

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 1990-cı ildə Naxçıvana döndüyü tarix muxtar respublikanın siyasi, sosial-iqtisadi həyatında ağrılı, bir-birindən ziddiyyətli proseslərin getdiyi zamanlara təsadüf edir. Məhz bu dönüş Azərbaycanın qədim diyarını erməni məkrindən, işğalından qurtarıb naxçıvanlıları qorudu.

Xalqımızın azadlıq ideallarının gerçəkləşməyə başladığı o vaxtlar imperiya qüvvələrinin və yerli hakimiyyətin birgə razılığı ilə Bakıda qanlı 20 yanvar faciəsi törədilmişdi. Və bu qanlı cinayət hadisəsinə elə ilkin sərt reaksiya verən də, cəsarətli bəyənatla çıxış edən də Heydər Əliyev olmuşdu. Millətin ağır günlərində dərdinə şərik çıxmaq, mənəvi cəhətdən ruhlandırmaq, insanları sarsıdıcı problem və qayğılarla üz-üzə qalan Naxçıvanı gözlənilən daxili və xarici təhlükələrdən qurtarmaq lazım gəlirdi. Sözsüz ki, bütün bu işlərdə böyük iradə və nüfuz sahibi olan bir şəxsiyyətə ehtiyac vardı. Eyni zamanda, qonşu Ermənistanın təcavüzkar siyasətini səciyyələndirən torpaq iddiaları bu bölgə üçün yeni bir şey deyildisə, yenə də özlüyündə olmazın siyasi, mənəvi gərginlik yaradırdı.

Həmin il keçirilən parlament seçkilərində Heydər Əliyev həm muxtar diyarın, həm də Azərbaycanın ali qanunvericilik orqanına deputat seçilmişdi. Bu, naxçıvanlıların, ümumilikdə respublikamızın ağır şəraitdə yaşadığı anda ən düzgün seçim idi. Sonrakı proseslərin inkişafı da göstərdi ki, həmin seçim nəinki bölgənin, hətta bütövlükdə Azərbaycanın həyatı, taleyi üçün uğurların bir təməl daşı olmuşdur. 1991- ci ildə Naxçıvan Ali Məclisinə sədr seçilməklə böyük siyasi fəaliyyətinin yeni

mərhələsinə başlayan ümummilli lider elə ilk anlardan bütün ölkə üçün mühüm siyasi-ideoloji əhəmiyyəti böyük olan qərarlar qəbul etmişdi. Heydər Əliyev o zamankı mülahizələrində «Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin dövründə üzərimə düşən vəzifənin icrasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm» -deməklə, üzərinə götürdüyü məsuliyyəti haqlı olaraq xalqın talc məsələsi sayırdı.

Azərbaycan dövlətçiliyinin xilası missiyasının ilk kontuları Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi dövrün əvvəllərində özünü biruzə verdi. İlk olaraq məhz burada dövlətçiliyin, müstəqilliyin bəzi atributları müəyyənləşdirildi muxtar respublikanın adından «Sovet Sosialist» ifadəsi çıxarıldı. Bununla yanaşı, ümdə məsələlərdən biri də tez bir zamanda Naxçıvanın qapılarını dost ölkələrə açmaq, getdikcə bərkiyən blokadanı yarmaq idi. Heydər Əliyev çıxış yollarından biri kimi özünün çoxdankı arzusunu reallaşdırmaqda – Naxçıvanla Türkiyə arasında Araz çayı üzərindən qardaşlıq körpüsü saldırmaqda görürdü. Sonralar bu körpü xilaskar insanın öz ifadəsilə «Ümid körpüsü», «Həsrət körpüsü» adlanacaq, həsrətli qardaşları bir-birinə qovuşduracaq, insanların həyata inamını artıracaqdı. Belə bir məqamda dost və qardaş ölkə olan Türkiyə ilə, eləcə də İranla danışıqlar aparıldı, ikitərəfli görüşlərin nəticəsi olaraq qısa bir müddətdə iqtisadi əlaqələrin ilk təməlləri atıldı...

Türkiyənin o zamankı baş naziri, türk dünyasının tanınmış simalarından biri olan Süleyman Dəmirəl türk xalqlarının digər bir görkəmli siyasət xadimi, dostu Heydər Əliyevi ölkəsində görmək üçün öz təyyarəsini Naxçıvana göndərdi. Türkiyə görüşlərində yenicə müstəqilliyini bərpa etmiş Azərbaycanın, o cümlədən Naxçıvanın üzləşdiyi çətinliklər müzakirə olundu, vəziyyətin yüngülləşdirilməsi ilə əlaqədar birgə çıxış yollar arandı. Bundan sonra bölgəyə qardaş ölkədən müxtəlif yardımlar gətirildi. Vətəndaşlar yavaş-yavaş sosial, mənəvi

sıxıntılardan qurtulmağa, sabaha ümidlə baxmağa başladılar. Həmin ərəfədə başqa ölkələr də Naxçıvana müəyyən yardımlar göstərirdi. Amma vəziyyəti gərginləşdirən digər təhlükəli ocaqlar də hələ yenicə közərməyə başlamışdı. Bir yandan da erməni silahlı qüvvələrinin Naxçıvandakı bəzi sərhəd yaşayış məntəqələrinə hücumları da güclənmişdi. Ölkənin sərişdəsiz rəhbərləri isə nəinki vəziyyətdən baş çıxara bilir, heç prosesləri qiymətləndirməyi belə bacarmırdılar. Bütün respublika miqyasında hərc-mərclik, xaos hökm sürürdü. Belə məqamda Naxçıvanın xarici ölkələrlə iqtisadi əməkdaşlıq əlaqələri vəziyyəti yaxşılığa doğru dəyişə bilərdi. Formalaşmış ictimai rəy ondan ibarət idi ki, bu münasibətlərin yaradılması və bölgənin blokada şəraitində normal yaşaması da yalnız Heydər Əliyevin nüfuzuna bağlıdır .

Sonralar Azərbaycan dövlətçiliyində ilk təcrübə sayılan iqtisadi islahatların aparılması da Naxçıvandan başlamışdı. Xüsusilə qeyd etmək lazımdır ki, bü qədim diyarın Türkiyə və İranla – xalqlarımızın daha da yaxınlaşması istiqamətində ilk səmərəli əməkdaşlıq əlaqələrinin qurulması bir sıra həyati məsələlərin həlli ilə təzahür etmişdir.

1992-ci ilin martında Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevin bölgəni blokada məngənəsindən xilas etmək məqsədi daşıyan Türkiyə səfəri muxtar respublikanın sosial-siyasi ehtiyaclarının həlli baxımından uğurlu nəticələrlə yadda qalmışdır. Bu səfərdən sonra Naxçıvana 100 milyon dollar məbləğində kredit ayrılmış, kommunikasiya, nəqliyyat və digər sahələrdə faydalı əməkdaşlığa əsaslanan anlaşmalar əldə edilmişdir. Bununla yanaşı, daha geniş xarakter alan dostluq münasibətlərinin dolğun şəkildə həyata keçirilməsində 1992-ci ilin mayın 28-də istifadəyə verilən və Naxçıvanı Türkiyə ilə birləşdirən 275 metrlik Sədərək – Dilucu körpüsünün açılmasının da müstəsna əhəmiyyəti olmuşdur. Bu Naxçıvanın Heydər Əliyev dövründə ümumi uzunluğu 906 metr olan körpüdən biri və ən böyüyü, ən vacibidir. Körpünün tikilməsi Türkiyə hökumətinin, onun başçısı Süleyman Dəmirəlin xalqımızın müdrik siyasətçisi Heydər Əliyevə

dostluq və qardaşlıq münasibətinin bəhrəsi idi. Müasir Azərbaycan dövlətçiliyinin banisi birbaşa öz təşəbbüsü ilə tikilmiş nəhəng körpünü ölkələrimiz arasındakı 70 illik ayrılığı aradan qaldıran «ümid, həsrət körpüsü» adlandırmaqla bir-birinə doğma, dili, mədəniyyəti, milli-mənəvi dəyərləri eyni olan insanların çoxillik arzularının doğrulmasını nəzərdə tuturdu.

Sonralar Naxçıvanın 75 illiyi münasibətilə təntənəli tədbirlərdə iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyevin körpünün açılması zərurətini belə xarakterizə edirdi: «Belə bir körpü tikmək bizim bir azərbaycanlı kimi, şəxsən mənim on illərlə qəlbimdə olan arzu idi – bizi Türkiyədən ayırdılar, Türkiyə ilə bizim cəmisi 11 kilometr, o da Naxçıvanda, sərhədimiz var, bu sərhəddən Araz çayı keçir, heç bir şey mümkün deyildir – bu fikir mənim qəlbimdə on illərlə yaşayırdı. Mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum. Biz dostumuz Süleyman Dəmirəlin və Türkiyə hökumətinin himayəsi, köməyi ilə bunu etdik. Naxçıvan Türkiyəyə açıldı. Bu, bizi xilas etməyə başladı».

Naxçıvanla Türkiyə arasında salınmış «Ümid körpüsü»nün açılış mərasimi 1992- ci il mayın 28- də, Azərbaycanın müstəqilliyi günü ilə bir tarixdə baş vermişdir. Bu tarixi hadisə böyük şəxsiyyət Heydər Əliyevin naxçıvanlılara dar gündə çörək, təhlükəsiz həyat töhfəsi olmaqla, həm də bölgənin beynəlxalq aləmə ilk çıxış vasitəsi kimi yadda qalmışdır. Təbii ki, körpünün tikilməsi və Süleyman Dəmirəlin də iştirak etdiyi açılış regionun Sədərək sərhəd yaşayış məntəqəsinin erməni həmlələrinə məruz qaldığı vaxtlara təsadüf etdiyindən, əhali arasında əhval-ruhiyyənin yüksəlməsinə də ciddi təsir göstərirdi. Körpünün açılışında Süleyman Dəmirəl qeyd etmişdir ki, burada cərəyan edən hadisənin əlamətdarlığı təkcə körpünün açılmasında deyildir. Bununla Türkiyə vasitəsilə Azərbaycan həqiqətlərini Avropaya çatdırmaq üçün yollar açılır. Hadisə 70 il bir- birilə qürbətdə, həsrətdə yaşamış qardaşlarımızı yenidən görüşdürür. Bu coşğunluğu

anlaya bilmək lazımdır. Qardaşlıq, dostluq bundan sonra daha da sıx olacaqdır. Türkiyə və Azərbaycan, Naxçıvan arasında əlaqələr genişlənəcək, adamlar bir-biri ilə yaxınlaşacaqdır. Bu körpü təkcə Azərbaycanla Türkiyəni birləşdirmir, bu Avropa ilə Asiya arasında körpüdür.

İndi o tarixi hadisənin baş verdiyi vaxtdan düz 19 il keçir. Bütün bu müddət ərzində «Ümid körpüsü» Naxçıvanın ağrılı, sevincli günlərində qardaş ölkələr – «bir millət, iki dövlət» arasında etibarlı vasitəyə çevrilmişdir. Bu gün naxçıvanlılar o mürəkkəb olayların, düşmən hiyləsinin əhatəsindən alnı açıq çıxıb yaşamaqda Dilucu-Sədərək körpüsü kimi neçə-neçə möhtəşəm dostluq abidələri yaratmış Heydər Əliyevə borcludurlar. Böyük Heydər Əliyev isə bu gün təkcə Naxçıvana, Azərbaycana deyil, bütün Cənubi Qafqaz bölgəsinə bəxş etdiyi əmin-amanlığa görə sülhün rəmzinə çevrilmiş bir öndərdir.

...Sarsıntılı anlar arxada qalmışdır. Türkiyə ilə Naxçıvan arasında iqtisadi, mədəni, elmi əlaqələr daha da genişlənmişdir. Ölkələrimizin işgüzar dairələrinin, təsərrüfat sahələrinin sağlam əməkdaşlıq münasibətləri nəticə etibarilə regionun ümumi həyatı üçün effektli irəliləyişlərin gerçəkləşməsinə gətirib çıxarmışdır. Bütün bu işlərin həyata keçirilməsində Heydər Əliyevin «Ümid körpüsü» nün rolu danılmazdır.

"Türk Dünyası İnfo" Araşdırma

TÜRK DÜNYASININ UNUDULMAZ LİDERİ

1999-cu il noyabrın 1-də ulu öndər Heydər Əliyev Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülmüşdür

Dünyanın ən qədim etnoslarından olan türklər tarixin ziddiyətli məqamlarından, şərəflə çıxaraq milli özəlliklərini,döflətçilik ideallarını qorumuş və bugünkü nəsillərə çatdıra bilmişlər. Tarixin solmaz səhifələrində qəməman türk insanın ruhu, ömür yolu və mübarizəsi fəxarətli bir yer tutur. Türkçülüyüt tarixi təmelləri üzərində zaman-zaman böyük sərkərdələr,qüdrətli dövlət xadimləri yetişmişlər.

Ulu öndərimiz Heydər Əliyev də XX yüzildə böyük Türk dünyasının böyük tarixi simalarından biridir. Bu böyüklük ümummilli liderimizin türk dünyasının birliyi istiqamətində ortaya qoyduğu ideyalarla tam təstiqini tapmışdr. Heydər Əliyevin Türk dünyasına, Türkiyə Cümhuriyyətinin banisi Atatürkə sevgi və sayğıları bu gün "bir millət, iki dövlət" kəlamı timsalında milli-mənəvi, ideoloji təmlinə çevrilərək ölkələrimiz arasında hərtərəfli bağlantıları daha qırılmaz etmişdir. Məhz bu münasibət Heydər Əliyevin illərlə apardığı milli-siyasi mübarizəyə istiqamət verən, onu milli müstəqilliyə ruhlandıran sarsılmaz qüvvə kimi müasir əlaqələrinmizin inkişafında həlledici amilə çevrilmişdir. Bu mənada, ulu öndərimizin Azərbaycana rəhbərliyinin hər iki dönəmində həyata keçirdiyi milli-mənəvi, ideoloji məzmunlu ideyalar Azərbay-

can türkünün özünə, öz böyüklüyünə qayıdışına səbəb olmuşdur.

Ulu öndərimiz Heydər Əliyev öz şəxsiyyəti ilə türkçülük düşüncəsini, ideyalarını SSRİ-nin ali rəhbərliyində çalışarkən belə həmişə fədakardıqla müdafiə etmişdir. Heydər Əliyev sovet dövləti rəhbərliyində təkcə Azərbaycan xalqının deyil, ümumilikdə ittifaq miqyasında yaşayan bütün türk xalqlarının mənafeyi uğrunda mübarizə aparır, türk dünyasının strateji problemlərinin həlli üzərində ciddiyyətlə düşünürdü. O dövrdə Heydər Əliyev Kremldə siyasi büroda təmsil olunan yeganə türk idi. Moskvada yaşadığı illərdə dünya Heydər Əliyevi «Kremldə ucalan türk bayrağı» kimi tanıyırdı.

Azərbaycan 1991-ci ilin oktyabrında dövlət müstəqilliyi nazandıqdan sonrakı dövrlərdə də ümummilli liderimiz türk xalqları ilə münasibətlərin mönkəmləndirilməsi vacibliyini böyük uzaqgörənliklə, müdrikliklə daim diqqətdə saxlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik etdiyi dövrdə ulu öndərin Türkiyə ilə əlaqələrin genişləndirilməsi istiqamətində yürütdüyü siyasət buna bariz misaldır. O ağır illərdə ulu öndərimizin bilavasitə təşəbbüsü ilə inşa edilən «Ümid körpüsü» adlandırdığı körpü də Azərbaycandan Türkiyəyə açılan yollardan biri idi. Ümummilli lider doğma Naxçıvan torpağında yaşadığı o anları belə xatırlayırdı: **«Mənim üçün bu gözəl bir dövrdür. Ona görə gözəl bir dövrdür ki, Türkiyə ilə Azərbaycan arasında əsrlər boyu həsrətində olduğumuz körpünün tikintisində iştirak etdim. O körpünün inşasını apardım və Türkiyənin böyük oğlu Süleyman Dəmirəllə, Türkiyənin millət vəkilləri ilə, nazirləri ilə birlikdə həsrət, ümid körpüsünü bir yerdə açdıq».**

Ulu öndərimiz Heydər Əliyevin türk dünyasının problemləri ilə ardıcıl şəkildə məşğul olmağa başladığı mərhələ əsasən, 1993-cü ildən sonrakı dövrü əhatə edir. Bu mərhələdə ulu öndərimiz türk dünyasının gələcəyi, birliyi ilə bağlı sistemli konsepsiya müəyyənləşdirərək ortaya qoymuşdur. Heydər Əliyevin türk dünyasının gələcəyi ilə bağlı düşüncələri ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiəsi, Türk

dünyasının birliyinin təmin olunması kimi mühüm məqamları özündə ehtiva edir. Heydər Əliyev bu məqsədlərin həyata keçirilməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmişdir.

Ümummilli liderimiz Heydər Əliyev Atatürkə, Türkiyəyə və ümumilikdə Türk dünyasına ehtiramının nəticəsi olarpaq 2001-ci ildə ölkələrimizin milli-mədəni əlaqələrinin inkişafını daha yüksək səviyyədə təmin etməyi və dahi Atatürk ideyalarının, irsinin Azərbaycanda təbliğini qarşıya məqsəd qoyan bir qurum - Atatürk Mərkəzini yaratmışdır.

Ulu öndərimizin 1999-cu il noyabrın 1-də Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi onu göstərir ki, Heydər Əliyevin Türk dünyasının birliyi yolunda böyük xidmətləri Türkiyədə də layiqincə qiymətləndirilir. Qeyd edək ki, bu beynəlxalq mükafat Atatürkün «Yurdda sülh, cahanda sülh» kəlamına uyğun olaraq regionda, beynəlxalq arenada və ölkələrarası münasibətlərdə sülh, dostluq, anlaşma, xoşməramlı əməkdaşlıq yaradılmasına töhfələrə görə görkəmli şəxsiyyətlərə verilir. Şübhəsiz, Türkiyə Cümhuriyyətinin bu ali mükafatını almaq heç də bütün böyük siyasətçilərə nəsib olmur. 1986-cı ildə təsis edilən Beynəlxalq Atatürk Sülh Mükafatı ulu öndərimiz Heydər Əliyevə qədər yalnız NATO baş katibi Josef Lunsa, Almaniyanın sabiq prezidenti Rixard Fon Veytzagerə, Yaponiya şahzadəsi Takaxito Mikasaya, Türkiyənin yeddinci prezidenti Kənan Evrenə, tanınmış ABŞ alimi Bernard Levisə, Türkiyə Qızıl Ay Cəmiyyətinə, YUNİSEF təşkilatına və Bosniyada sülhü qoruyan Türkiyə sülhməramlılarına verilmişdir. Ulu öndər Heydər Əliyev bu mükafatı alan sayca beşinci ictimai-siyasi xadim olmuşdur.

Beynəlxalq Atatürk Sülh Mükafatı verilməsi prosesi ümumilikdə 2 ilədək çəkir. 1999-cu il üçün mükafata namizədlər göstərmək hüququ olan şəxslər artıq 1997-ci ildə öz təkliflərini irəli sürmüşdülər. Namizədlər barəsində məlumatlar isə Beynəlxalq Atatürk Sülh Mükafatı Komitəsinin hər il yeniləşən komissiyasına təqdim edilmişdi. Komissiya 15 ay sürən araşdırmalardan sonra həmin mükafata məhz Heydər

Əliyevin layiq olduğu barədə tarixi qərara imza atdı. Bu zaman ümummilli liderimizin keçdiyi zəngin və mənalı ömür yolu ilə yanaşı, bütövlükdə Qafqaz regionunda sülhə, sabitliyə təminat yaradan xarizmatik lider olması faktı xüsusilə önə çəkilmişdi. Təqdimetmə mərasimi zamanı Heydər Əliyevin türk tarixini, mədəniyyətini yaxından bilməsi və təbliğ etməsi, türkdilli xalqlar arasında münasibətlərin yaxşılaşmasına əzmlə çalışması, habelə atatürkçü düşüncəni dərindən mənimsəməsi vurğulanmışdı. Həmin tarixi hadisədən 9 il keçir. Türkiyə ictimaiyyəti indi də Heydər Əliyevi təkcə Azərbaycan dövlətçiliyinin qurucusu və xilaskarı kimi deyil, yüksək humanizm prinsiplərinin, sülh, sabitlik, barış missiyasının və türkçülük ideyalarının yorulmaz mübarizi olaraq xatırlayır.

«...Mən bu gün böyük həyəcan içindəyəm, çünki Türkiyə dövlətinin qurucusu, böyük öndər Atatürkün adını daşıyan beynəlxalq sülh, barış mükafatına layiq görülmüşəm. Bu mükafatı mənə belə təntənəli şəraitdə, - ən yüksək vəzifəli şəxslərin iştirakı ilə Türkiyə Cumhuriyyətinin başçısı, əziz dostum, qardaşım Süleyman Dəmirəl təqdim etdi. Mən həyatımda çox mükafatlar almışam. Ancaq Türkiyə Cumhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan sülh mükafatını almaq mənim üçün böyük şərəfdir. Bu mükafat indiyə qədər aldığım mükafatların hamısından yüksək və qiymətlidir» – Türk dünyasının birliyi naminə misilsiz xidmətlər göstərən, bu yolda qarşısına çıxan bütün maneələrə mərdliklə sinə gərən müdrik dövlət xadimi Heydər Əliyev bu sözləri hələ 1999-cu il noyabrın 1-də – Beynəlxalq Atatürk Sülh Mükafatınına layiq görülməsi münasibətilə təşkil edilmiş möhtəşəm tədbirdə söyləmişdi...

Heydər Əliyev ideyarının layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev ümümtürk birliyinin möhkəmləndirilməsi xəttini xarici siyasətdə mühüm istiqamətlərdən biri kimi əsas götürərək, yalnız Türkiyə ilə deyil, Orta Asiyanın türkdilli dövlətləri ilə də münasibətləri gücləndirmək xəttinə üstünlük vermişdir. Regionda fenomenal liderlik

nümayiş etdirən cənab İlham Əliyev həm də türk dünyasının seçilən, rəğbət bəslənilən nüfuzlu liderlərindən birinə çevrilmişdir.

Hər bir dövlətin xarici siyasətdə xüsusi önəm verdiyi müttəfiqlik prizmasından yanaşdıqda Türkiyə-Azərbaycan münasibətlərinin zamanın sınağından şərəflə çıxdığını xüsusilə qeyd etməyə dəyər. İki qardaş ölkə – Azərbaycan və Türkiyə bu gün müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT, Avropa Birliyi, ATƏT və Avropa Şurasında bir-birinə qarşılıqlı dəstəyi verir. Tükkiyə bütün beynəlxalq tədbirlərdə Azərbaycanın mövqeyini müdafiə edərək, təcavüzkar Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxması tələbini irəli sürür. Prezident İlham Əliyev Türkiyənin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyini çıxışlarında daim təqdir edir: «Bizim münasibətlər elə səviyyədədir ki, istənilən məsələyə münasibətimizi bildiririk, müzakirə edirik. Xüsusilə Azərbaycanın ən ağrılı, ən çətin problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsini daim müzakirə edirik və öz fikirlərimizi bölüşürük...Türkiyə bu məsələdə daim Azərbaycanın yanında olubdur, Azərbaycanı dəstəkləyibdir. Biz bu dəstəyi bu gün də hiss edirik».

Dövlət başçısının 2004-cü ildə Türkiyə ilə yanaşı, Qazaxıstan və Özbəkistana rəsmi səfərləri bütövlükdə türk xalqları arasında həmrəyliyin möhkəmləndirilməsi tərəfdarı olmasını bir daha sübuta yetirir.

Çağdaş Azərbaycan-Türkiyə müttəfiqliyi bütövlükdə Cənubi Qafqaz regionunda sülh və sabitlik, iqtisadi tərəqqi sahəsində bir təməl rolunu oynayır. Azərbaycanın beynəlxalq əməkdaşlığında Türkiyə daim aparıcı mövqeyə malikdir. Xarici iqtisadi siyasətdə qardaş dövlətlə əlaqələrin genişləndirilməsi də üstün istiqamətdir. Ölkələrimiz arasında genişmiqyaslı əməkdaşlıq üçün lazımi normativ-hüquqi baza yaradılmışdır. Türkiyə Azərbaycanın qeyri-neft sektorunda ən çox kapitalı olan ölkələrdən biridir. Türk iş adamlarının Azər-

baycandakı fəaliyyətinə şərait yaratmaq məqsədilə bütün zəruri tədbirlər həyata keçirir.

Müasir dünya təcrübəsində tarixi-etnik köklərlə, eyni dil qrupu, ənənə və dəyərlərlə bir-birinə yaxın olan xalqların vahid ideya birliyi və həmrəyliyi ilə bağlı xeyli nümunə göstərmək mümkündür. Ulu öndərimiz Heydər Əliyevin təməlini qoyduğu xarici siyasət nəticəsində bu gün Azərbaycan-Türkiyə münasibətləri tamamilə fərqli, analoqu olmayan müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Hər iki qardaş ölkə mövcud münasibətləri daha yüksək səviyyəyə qaldırmaq istiqamətində ardıcıl və ciddi addımlar atır.

«Türk Dünyası İnfo» Araşdırma

BÜTÜN AZƏRBAYCANLILARIN PREZİDENTİ

Yer üzündə 300 milyondan artıq türk yaşayır. Biz bunlara türk demirik, türkdilli xalqlar deyirik. Bu bizim səhvimizdi, eybi yox, böyük səhv də deyil. Hər şey yavaş-yavaş olar, bu gün türkdilli xalqlar deyirik, sabah türk deyərik. Və bu türkdilli xalqların içində Osmanlı türkü ilə Azərbaycan türkü arasında o qədər fərq yox idi ki, Ulu Öndər Heydər Əliyev dedi ki: "Biz bir millət, iki dövlətik!" Əslində Ulu Öndər bununla bütün türk dünyası dövlətlərinin prezidentlərinə və xalqlarına mesaj verirdi ki, siz hamınız bu sözü söyləyin, yəni bütün türklər: "Bir millətdir!"

Və inanırıq ki, günlərin bir günü Ulu Öndərin söylədiyi, əstəğfürullah, "Quran" ayəsi kimi olan bu sözləri digər türk dövlətləri də söyləyəcəklər. Ən azı dünyada böyüklüyümüzü göstərmək açısından. Ən azı öz dövlətlərini və millətlərini bu zənci saçına oxşayan qarmaqarışıq dünyada qorumaq xatirinə. Və ən azı dünyada söz sahibi olmaq xatirinə.

Gəlin səmimi danışaq. Doqquz türk dövlətindən yalnız hələ ki ikisi – yəni Türkiyə və Azərbaycan dünyada söz sahibinə çevrilib. Ən böyük səbəbi də odur ki, Atatürk deyir: "Kəndinə qayıt, türk oğlu, sən kəndinə qayıdanda böyük olursan!". Və bu iki türk dövləti kəndinə qayıdıb və böyüklüyünü haqq edib.

Ulu Öndərimiz Heydər Əliyev hələ Naxçıvanda adi bir icra hakimiyyətinə rəhbərlik edən bir şəxs kimi elə addımlar atdı ki, bu, sabahkı Azərbaycanın müstəqilliyi idi, sabahkı Azərbaycanın dövlətçiliyi idi və ən başlıcası dünya türklərinin bir-birinə bağlanması idi. Bu Dahi Şəxsiyyət ilk dəfə müstəqil olmayan dövlətin bir parçasında Müstəqil Azərbaycanın dövlət

bayrağını qaldırdı. Bu Dahi Şəxsiyyət ilk dəfə Dünya Azərbaycanlılarının Həmrəylik Gününü elan elədi. Ən başlıcası, Azərbaycanla Türkiyəni bağlayan körpünü tikdi. Və bu körpünün üstündə ilk dəfə yeridi və elə bununla bütün dünya türklərinə mesaj verdi ki, mən Sizi birləşdirdim, bundan böyləsi Sizdən asılıdır.

Heydər Əliyev Türk dünyasının Atatürkdən sonra atası idi, babası idi və Tanrı bütün türkləri birləşdirəcək missiyanı onun üzərinə qoymuşdu. O da bu körpü ilə bütün dünya türklərini bir-biriylə bağladı. Heç vaxt yadımdan çıxmaz, Tatarıstanın prezidenti Şaymiyev Rusiyanın prezidenti Yeltsindən icazəsiz Ulu Öndərin görüşünə gəlmişdi. Bu da Yeltsinə bərk toxunmuşdu. Yeltsin də əsəblərini saxlaya bilməyib dedi ki, sən niyə məndən icazəsiz başqa dövlətin prezidenti ilə görüşə getmisən. Şaymiyev onda bir söz demişdi: "Heydər Əliyev biz türklərin ağsaqqalıdı və mən ağsaqqalımın yanına məsləhətə getmişdim". Mən bilmirəm Ulu Öndər Şaymiyevə nə məsləhət verib. Amma nəticəsini görürəm. Bu gün Tatarıstan əslində Rusiyanın içində ən müstəqil dövlətdir, söz sahibidir və Tatarıstanda bu gün Rusiyanın Konstitusiyasma zidd olaraq dövlət dili həm türk, həm də rus dilidir. Və Tatarıstanda əlifba da həm kiril, həm də latın əlifbasıdır. Yəni Şaymiyev Dudayev kimi millətini qırdırmadı və Tatarıstanı başqa bir istiqamətdə inkişaf elətdirdi və bu gün Tatarıstan öz iqtisadiyyatını da müəyyənləşdirir, hətta öz siyasətini də. Və hətta Rusiyanın bir subyekti olan Tatarıstan Çeçenistandakı müharibələrə on ildən çoxdur ki, əsgər göndərmir.

Heydər Əliyev hakimiyyətə gələndə 46 yaşı vardı. Möhtərəm İlham Əliyev hakimiyyətə 43 yaşında gəlib, yəni daha gənc. Amma hakimiyyətə bir gənc kimi gəlməsinə baxmayaraq, çox müdrik bir dövlət başçısı olduğunu sübut edib. Bu təkcə onun aldığı yüksək təhsildən irəli gəlmir. Bu əslində onun Böyük Dövlət Adamı olan Heydər Əliyevin həm fiziki, həm də mənəvi varisi olmasından irəli gəlir. Alparslan

Türkeşin oğluna bir nöqsan tutmuşdular ki, sən dünya bozqurdlarının lideri ola bilməzsən, çünki sən ülkü ocaqlarında eyitim görməmisən. O da gözəl bir söz söyləmişdi ki, ülkü ocaqlarında mənim atamın hər bir ülküçüyə həftədə altı saat dərsini keçiblər, amma mən doğulandan atamın dərsini görürəm.

İlham Əliyev də doğulandan Heydər Əliyevin dərsini görüb. Həm gendən gələn dərsini, həm də mənəvi dərsini.

Və bu gün Heydər Əliyevin minbir əziyyətlə qoruyub saxladığı və gələcək nəsillərə ərməğan elədiyi Azərbaycan dövlətçiliyini möhkəmlətmək, sabaha aparmaq, gələcəyə aparmaq missiyası sayın İlham Əliyevin üzərinə düşüb. Şərəflidir, amma çox çətindir. Çox çətindir yox ey, əslində müsibətdir. Bir belə əjdahalarm içində, özü də Azərbaycanı yemək istəyən əjdahaların içində, Azərbaycanı parçalamaq, məhv eləmək üçün minbir hiylə və proqram hazırlayan əjdahaların içində bu dövləti sabaha aparmaq qeyri-adi müdriklik, qabiliyyət, bacarıq, ağıl və səbr tələb edir.

Biz evimizdə oturmuşuq. Ürəyimiz istəyəndə də hökuməti söyürük, müxalif oluruq, amma dünyada baş verən hadisələrin fonunda bu dövlətin yaşamasının və belə sürətli inkişafının kökünü və səbəblərini fikirləşmirik.

Ulu Öndər türkçülüklə bağlı deyirdi: "Biz bir millət, iki dövlətik!" Və həm də deyirdi: "Mən fəxr edirəm ki, azərbaycanlıyam". Bu, bəzi adamları çaşdıra bilər. Məsələ bundadır ki, dünyada 300 milyondan artıq türkün 50 milyonundan çoxu özünü azərbaycanlı sayır. Və özünü azərbaycanlı sayanların da bir dövləti, bir paytaxtı var: dövləti – Azərbaycan, paytaxtı – Bakı. Gərək əvvəl bu dövləti, bu milləti formalaşdırasan ki, sonra böyük Turançılıqdan damşasan. Yəni halva-halva deməklə ağız şirin olmur. Gərək bu halvanı hazırlayasan. Sayın İlham Əliyev prezident seçiləndə bir qəribə söz dedi: "Mən bütün azərbaycanlıların prezidentiyəm". Bu çox çətin və məsuliyyətli bir söz idi. Bu həm də bir çox ölkələrlə münaqişəyə səbəb ola biləcək bir söz idi. Ata Əliyevin yolu ilə

gedən oğul Əliyev bütün riskləri gözünə alaraq bu sözləri söylədi. Və bununla bütün dünya azərbaycanlılarına bir mesaj verdi ki, sizin dövlətiniz var, sizin prezidentiniz var.

Haşiyə. Bir dəfə Qarsdaydım. Oradakı Azərbaycan konsulluğunda baş konsulumuz Həsən Zeynalovun qonağıydım. Və bir günün içində Türkiyədə yaşayan azəri kökənli 50-dən çox adamın Həsən müəllimə, konsulluğumuza və bizə dəxli olmayan müraciətinin şahidi oldum. Birinin evi uçub, birinin uşağı xəstədi, birinin övladı ali məktəbə daxil olmalıdı, biri işsizdi, birinə ev tikdirilməsi üçün torpaq lazımdı və sair və ilaxır. Sanki Həsən Zeynalov Qarsın icra hakimiyyətinin başçısı idi. Və Həsən Zeynalov sayın İlham Əliyevin nüfuzundan istifadə edib bu adamlara əlindən gələn köməyi əsirgəmirdi. Və onda gördüm ki, artıq dünyada yaşayan bütün azərbaycanlılar (çox qəribədir ki, mən bunu Brüsseldə də, Haaqada da, Amsterdamda da görmüşəm) sayın İlham Əliyevi özlərinin prezidenti kimi qəbul edir.

Bu gün Azərbaycan elə bir sürətlə inkişaf edir ki, artıq dünya bundan dilxor olmağa başlayıb. Çünki dünya ikinci bir qüdrətli türk dövlətini sinsiyə bilmir, daha doğrusu, sinsimək istəmir. Çünki sabah bu ikinci olmayacaq, üçüncü olacaq, beşinci olacaq, doqquzuncu, hətta on birinci olacaq. Onuncunun və on birincinin kim olacağını maraqlananlar sual versinlər, cavab verərəm. İndi ona görə demirəm ki, bir az beyinlərini işlətsinlər. Bu inkişafın özülünü Ulu Öndər qoyub. Və onun üstündəki dövləti də sayın İlham Əliyev inşa edir. Mən rəqəmlərin dili ilə danışmaq istəmirəm. Müstəqil Azərbaycanın yaranmasında Elçibəyin xidmətini heç kim dana bilməz. Bu gözəl insanın əslində məsləhətçisi və onu qoruyan Heydər Əliyev idi. Həmişə Heydər Əliyevdən fəxrlə danışan Elçibəyin evində Atatürklə Heydər Əliyevin şəklinin qoşa asıldığını hamı bilir. Və Elçibəy gördü ki, arzusunda olduğu müstəqil Azərbaycan dövləti məhv olur, ağsaqqalını dəvət elədi və ağsaqqal gəldi, bu dövləti xilas elədi. Və bu gün İlham Əliyev bu dövləti sabaha daşıyır. Bizim övladlarımıza daşıyır

və ləyaqətlə daşıyır. Və bunun nə qədər çətin olduğunu O, daha gözəl bilir.

Bir dəfə Ulu Öndər jurnalistlərlə söhbətində əlini ürəyinin üstünə qoyub dedi ki, burda elə şeylər var ki, onu deyə bilmirəm. Və bütün dərdi-kədəri o ürəyə yığırdı. O dərd-kədər qurtarmayıb, o ağrı-acı qurtarmayıb. İndi o dərdi-kədəri, o ağrı-acını sayın prezidentimiz çəkir. Amma biz bunu bilmərik.

Bu gün sayın prezidentimizin ad günüdür. Ona uzun ömür, can sağlığı, Azərbaycanın dövlətçiliyi uğrunda apardığı mübarizədə uğurlar arzulayırıq.

Sayın prezidentimiz, çox çətindir. Bunu başa düşürük. Arzu edirik ki, Ulu Öndərin dediyi ağrı-acılar getsin! Arzu edirik ki, həmin ağrı-acıları bizimlə bölüşəsiniz! Və Sizə bildirmək istəyirik ki, bu millət həmin ağrı-acınm həm Sizin ürəyinizdən, həm bu dövlətin, həm bu millətin üzərindən getməsi üçün bir əsgər kimi həmişə Sizinlə bir yerdədir və həmişə bu ağrı-acını qovacaq əmrinizə hazırdır! Bu millət Sizlədir, həm ağrı-acınızla bir yerdə, həm də sevincinizlə bir yerdə.

Bunu millət prezident seçkilərində bir daha sübut elədi. Sübut elədi ki, Sizə inanır və həmişə Sizinlədir.

Sizə bu əziz gündə Tanrınm və bu millətin alqışının yar olmasını arzulayırıq! Bir daha Sizə uzun ömür, can sağlığı və bütün dünya azərbaycanlılarının sabahı uğrunda apardığınız bu müqəddəs savaşda uğurlar arzulayırıq!

Tanrı Sizi qorusun!

Tanrı Dövlətimizi qorusun!

Tanrı Türkü qorusun!

Aqil ABBAS,
yazıçı, millət vəkili

HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASININ BİRLİYİ YOLU

Azərbaycan tarix və mədəniyyət baxımından zəngin keçmişə malikdir.

Azərbaycan geopolitik baxımdan dünyanın mərkəzində – mərkəzi materikdə, qitələrin qovuşuğunda, mədəniyyətlərin mübadilə məkanında yerləşir.

Azərbaycan tarix və mədəniyyət baxımından böyük gələcəyə malikdir.

Azərbaycan qitələrin ayrıcında deyil, məhz qovuşuğunda yerləşir.

Heydər Əliyev qədim tarix və mədəniyyətə malik Azərbaycanın övladıdır.

Heydər Əliyev çağdaş Azərbaycanın qurucusudur.

Heydər Əliyev Türk dünyasının böyük şəxsiyyətlərindən biridir.

Heydər Əliyev Azərbaycanın keçmişindəki ən yaxşı cəhətləri zərgər dəqiqliyi, mükəmməl usta seçimi ilə gələcəyə daşıyan liderdi. O sübut etdi, təsdiq etdi ki, burada – Azərbaycanda mədəniyyətlər, fərqli dünyagörüşləri heç də toqquşmaya deyil, uzlaşmaya, "anlaşmaya" – yeni biçimdə təzahür etməyə tabedir.

Heydər Əliyev haqqında danışmaq Azərbaycan, Azərbaycan haqqında danışmaq Heydər Əliyev haqqında danışmaq qədər doğmalıq daşıyır. İnsanın Vətənləşməsinin bunca gözəl örnəyi təkcə bizdə deyil, bütövlükdə dünyada nadir hadisələrdəndir. Heydər Əliyev haqqında danışmaq, yalnız düşünmək belə insanı arındırır – duruldur: necə ki, Azərbaycan haqqında,

Babək, Dədə Qorqud, Nəsimi, Şah İsmayıl haqqında düşünəndə, danışanda belə olur.

Görkəmli kumuk şairi Qaysın Quliyevin "Elbrus" şeirində belə bir məqam var:

Bəzən yuxuda da görünməyinlə
Dərdi yüngülləşib ürəyimizin ...

Heydər Əliyevi düşünmək, onunla ruhən söhbət etmək, dərdimizi yüngülləşdirir, sevincimizi artırır...

***

Baykal-Amur magistralının tikintisi, Qədim İpək Yolunun bərpası, Bakı-Tiflis-Ceyhan Əsas ixrac boru xətti layihəsi, Şərq-Qərb nəqliyyat dəhlizi, Bakı-Axalkalaki-Ərzurum dəmir yolu... – böyük ömrün ayrı-ayrı dövrlərdə Yola, Yol anlayışına, iqtisadiyyata verdiyi önəmin və böyük əzmin ifadəsi olsa gərərk.

Heydər Əliyev deyirdi: "Yol, iqstisadiyyat, mədəniyyət, bir sözlə Həyat deməkdir!" Böyük öndərin və onun layiqli davamçısı cənab İham Əliyevin prezidentiliyi dövründə çəkilən yeni körpülər, yol qovşaqları, yeraltı, yerüstü keçidlər təkcə fiziki – texniki göstəriciləri, funksiyaları ilə deyil, həm də ruhimənəvi anlamı ilə dəyərlidir. Məncə bu yeni körpülər, genişlənən yollar (o cümlədən, ölkə paytaxtının giriş yolunun genişlənməsi, Beynəlxalq Hava Limanına yeni yolun çəkilməsi, Bakı dairəvi yolunun istifadəyə hazırlanması, ucqar Xınalıq köyünə yol çəkilməsi və s.) dövlətin xalqa daha geniş açılan qolları, dövlət – xalq münasi- bətlərinin dərinləşməsi, dövlət – xalq birliyinin təntənəsidir! Bunlar gələcəyə, tərəqqiyə, qalxınmaya xidmət edir! Heydər Əliyev də, indiki prezidentimiz də "Dövlət xalq üçün olmalıdır, xalq dövlət üçün yox!" düsturunu tətbiq edən dövlət başçıları kimi tarixdə dəyərli yerlərini haqq etmişlər! Milli liderimiz də, millətmizin indiki lideri də heç zaman körpüləri yandırmaq yolunu tutmamış, belə yol

tutanların özlərini doğru yola sövq etmişlər. Son illər əfv olunan, bağışlanan, amnistiya tətbiq edilən vətəndaşlarımızın sayı dediklərimizin ən əyani sübutlarından deyilmi? Öz radikal mövqeyi ilə seçilən müxalifət mətbuatının belə prezidentimizin sərəncamı ilə Prezident sərəncamı ilə yardımla təmin edilməsi, onların dövlət nəşriyyatına borclarının dondu- rulması, hələ illər öncədən senzuranın ləğv edilməsi, Mətbuat Şurasının, Mətbuata Yardım Fondunun yaradılması və bu kimi digər tədbirlər fikrimizi bir daha təsdiq etmirmi?!

Heydər Əliyev Azərbaycana, Azərbaycanın timsalında regiona, nəticə etibarı ilə dünyaya harmoniya gətirən, düzən bəxş edən lider idi. Bu, böyük öndərə hər nə qədər milli-genetik kodlarla (Ulu Türkün bəşəri missiyası!) keçmişdisə, bir o qədər də Heydər Əliyev dühasının, iradəsinin, əzminin və üfüqügenişliyinin təntənəsi idi! Bütün digər müsbət anlamlarda olduğu kimi, bu anlamda da böyük məktəb olan Əliyev irsi ayrıca bir tədqiqat mövzusudur. Ümumiyyətlə, "Heydər Əliyev və dünya birliyi", "Heydər Əliyev və Şərq", "Heydər Əliyev və Avropa", "Heydər Əliyev və Türk dünyası", "Heydər Əliyev və dini dəyərlər", "Heydər Əliyev və gənclik", "Heydər Əliyev və ədəbiyyat", "Heydər Əliyev və dövlət idarəçiliyi", "Heydər Əliyev və toleranthq", ... bir sözlə, bütün müsbət, əməli fəaliyyət sahələri, bütün mümkün ünvan və varlıqlar Heydər Əliyevin adı ilə birgə rahatlıqla çəkilə bilir, geniş mövzu verir. Bu üfüqügenişlik – üfüqün ötəsini görmək hər insana nəsib olan tale deyil, təbii!.. Və biz bir məqalədə hər nə qədər çalışsaq da böyük ömrün böyük əməllərinə ancaq ümumi dəyərləndirmə sərgiləyə bilərik. Bu anlamda, Prezident sərəncam ilə yaradılan "Heydər Əliyev Mərkəzi"nin fəaliyyətə başlaması, orada aparılacaq sistemli araşdırmalar əvəzsiz elmi-mədəni hadisə olacaqdır!

***

Görkəmli gürcü siyasi və dövlət xadimi Eduard Şevardnadze deyirdi: "XX əsr liderlər əsridir. Heydər Əliyev əsrin lideridir." Siyasət və idarəçiliyin, bəşəri harmoniyanın ustadı olan Heydər Əliyev öz yüksək şəxsiyyəti, ləyaqəti ilə Türkiyənin, Ukraynanın, Rusiyanın, Fransanın, o cümlədən keçmiş SSRİ-nin ən yüksək dövlət mükafatlarına, orden və medallara, ayrı-ayrı dövlət və qeyri-dövlət orqanlarının, elm, mədəniyyət ocaqlarının, kütləvi informasiya vasitələrinin, həmkarlar təşkilatları və fondların mükafatlarına layiq görülmüşdü. Zəmanəmizin böyük türkünün, böyük insanının doğma Azərbaycanla yanaşı, qardaş Türkiyənin ayrı-ayrı şəhərlərində, Rusiyada, Ukraynada, Ruminyada adının əbədiləşdirilməsi ruhuna ehtiramın ifadəsidir.

Heydər Əliyev zəkası, irsi milli sərvətimizdir və milli sərvət olaraq Azərbaycanm, Türk Dünyasınm bəşər sivilizasiyasına töhfəsidir!

Heydər Əliyev millilikla bəşəriliyi, dövlət başçısı kimliyi ilə sadə xalqın nümayəndəsi olma kimliyini böyük sevgi ilə, peşəkarlıqla bağdaşlaşdırmağı bacaran şəxsiyyət idi. Doğrudan-doğruya, örnəyi deyək, fərqli konvensiyaların mövcud olduğu respublikamızda hökm sürən dini dözümlülük ortamı bir unikal fakt kimi etiraf olunmalıdır. Yaxud deyək, ordu quruculuğu ilə, dinc yanaşı yaşamağa, barışa yönəlik səylərin bir arada tutulması... hər zəkanın işi deyildi.

Heydər Əliyev general idi. Heydər Əliyev Uluslararası Atatürk Barış Ödülünü almışdı. Heydər Əliyevin Azərbaycanında bu gün Müdafiə Sənayesi Nazirliyi qurulub, hərbi büdcə də artır, İnsan Hüquqları İnstitutu da yaradılıb, insan hüquqları üzrə müvəkkillik təsis edilib, Qadın problemi üzrə Dövlət Komitəsi də yaradılıb... Eyni kurs təbii ki, cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə də davam və inkişaf edir. Bir tərəfdən hərbi büdcə işğalçı dövlətin toplam büdcəsini haqlayır, digər tərəfdən Mədəniyyət Nazirliyinin bazasında Mədəniyyət və

Turizm Nazirliyi qurulub, ölkənin mədəni həyatı canlanır, teatrlar, digər mədəniyyət ocaqları dirçəldilir; dövlət quruculuğu təkmilləşdirilir, ictimai həyata, üçüncü sektora dövlət qayğısı artır.

Həmçinin, bu gün ulu öndərin adını daşıyan fondun Heydər Əliyev adına və düşüncə miqyasına layiq şəkildə həyata keçirdiyi irimiqyaslı layihələr, proqramlar ulu ruha hörmətin, millətə xidmətin ən gözəl örnəkləridir. Fondun günü-gündən genişlənən fəaliyyəti, uluslararası ilişgiləri hər bir Azərbaycanlıya qürur bəxş edir!

***

Qoca Şərqin müdrik oğlu deyirdi "Dövlət iki şeydən sarsıla bilər: cinayət cəzasız qalanda və cinayəti olmayana cəza verilində".

Böyük öndərin harmoniya və simmetriya kursu bu gün həyatımızın bütün sahələrində öz təcallasını tapır: Dövlət siyasəti milli maraqlarla; çoxfunksiyalı, çoxvektorlu xarici siyasət kursu vətəndaş hüquq və azadlıqlarının tərəqqi etdiyi daxili siyasətlə; paytaxtın inkişafı bölgələrimizin sosial - iqtisadi inkişafı ilə har- moniya halmdadır. Necə ki, ahıllara, yaşlı nəslə qayğı, diqqətlə, gənc nəslə diqqət, qayğı bir siinmetriya içindədir.

Bu gün Bakı Qafqazın palmirasıdır. Bu gün Azərbaycan bir çox iqtisadi, mədəni göstəriciləri ilə, söz və mətbuat azadlıqlarının hüquqi təminatı ilə örnək dövlətdir!

***

Heydər Əliyevi anlamaq, duymaq, dərk etmək; Heydər Əliyev yolu ilə getmək; Heydər Əliyevçi olmaq!.. Bunlar nə qədər asan və nə qədər də çətindir!

Asandır – Heydər Əliyev izini, adını, ruhunu Azərbaycan, Türk Dünyası və bütövlükdə insanlıq adma hər yerdə görmək mümkündür.

Asandır – Heydər Əliyevin ölməz ruhunu anladan bunca yaşarı fəaliyyət müqabilində onu duymamaq mümkünmü? Heydər Əliyev irsi tükənməz xəzinədir, o irsi anlatmağa çalışan, fərqli dillərdə, fərqli müəlliflərin yazdığı onlarla kitab var, respublikamızın hər bölgəsində muzeylər var, ən başlıcası öz ölməz əsərləri mövcuddur!

Asandır – Heydər Əliyev yolu uğura, başarıya aparan yoldur.

Asandır – Heydər Əliyev yolu alternativlərdən ən yaxşısıdır!

Asandır – Heydər Əliyevçi olmaq doğru seçimdir!

Çətindir – çünki, anlamaq, duymaq üçün sevməyi, etiraf etməyi bacarmaq gərəkdir.

Çətindir – dərk etmək üçün öyrənməlisən!

Çətindir – Heydər Əliyev yolu böyük, şərəfli ömrün yoludur!

Çətindir – gərək o yolla getməyə haqqın ola, cəsarətin ola!

Çətindir – Heydər Əliyevçi olmaq üçün gərək mübarizələrə hazır olasan!

Çətindir – Heydər Əliyevçi olmaq son nəfəsinəcən Vətənə, dövlətə qulluq deməkdir!

Çətindir – çətinlikləri göz önünə almaqdır: Millət, vətən, dövlət adına!..

Heydər Əliyevçilik "get" demək deyil, "gəl" deməkdir! Bu Mövlanə Cəlaləddin Rumi fəlsəfəsidir, Şərq özümlüyüdür: Gəl, kim olursan ol, yenə gəl, yüz kərə tövbəni pozmuş olsan yenə gəl, dinsizsən gəl, isəvisən gəl, musəvisən gəl! Bizim könül bağçamızda hər kəsə yer var – yetər ki, gəl!

Yəni, anla, düz yola gəl, nəhayət doğrul, nəhayət yaxşı olanın yanında ol, pisliklərdən uzaqlaş! Nicatına inan! Yetər ki, nəhayət inan!..

Heydər Əliyev yer kürəsinin Azərbaycan üzündə ölüm hökmünü ləğv etdi, neçə-neçə ömürlük həbs cəzasına məhkum edilmişin cəzasını müəyyən müddət ilə sınırladı.

Nə xoşbəxtdir Azərbaycan yolunda olanlar, Türk Dünyası yolunda olanlar, insanlıq yolunda olanlar!

***

Heydər Əliyev "Yeni əsrdə xalqımızı yeni, müqəddəs vəzifələr gözləyir" -deyirdi.

Heydər Əliyev heç vaxt xalqımızın tarixi haqlarına sayğısını əskik etmədi, Təbrizə, bütövlükdə Güneyə sevgisini gizlətmədi!.. Təsadüfi deyil ki, *öndərimizin ən çox sevdiyi şair* Seyid Məhəmmədhüseyin Şəhriyar, ən çox sevdiyi şeir isə Səməd Vurğunun "Azərbaycan" şeiri idi! Heydər Əliyev dünya *azərbaycanlılarının konsolidasiyasının müəllifi*, xaricdə yaşayan azərbaycanlılarla işə məsul olan dövlət qurumunun yaradıcısıdır.

...Heydər Əliyev nə barədə danışırdısa sözün ən yaxşısını deyirdi, hər mövzuda peşəkarcasına danı- şırdı. Örnəyi, **"Dövlətə, millətə qarşı müxalifətdə olmaq olmaz"** fikri kimi; **"Təbabət insan biliklərinin və əməli fəaliyyətin bütün başqa sahələrindən daha artıq dərəcədə ümumbəşəri xarakter daşıyır!"** Və ya **"Televiziya, radio xalqın gözünü açır, insanları dünya ilə birləşdirir..."** kəlamı kimi...

***

Bəri başdan deyək ki, ***Türk Dünyası*** *sözünü «və» bağlayıcısı ilə mexaniki olaraq hər sözə yoldaş eləmək mümkün olsa da, ideoloji-siyasi, ruhi baxımdan hər sözü bu biçimdə yazmaq düzgün deyil. – Bu yazının başlığı elə bir dövlət və siyasi xadimin kimliyini ifadə edir ki, məhz onun əməlləri belə böyük miqyasda təhlillər aparmağa imkan verir.*

Bəllidir ki, Türk Dünyası Adriatikdən Altaylara, Uraldan Doğu Türkistana və daha ötələr olmaq üzərə böyük coğrafi məkanı əhatə edir. Bu məkanda artıq 6 müstəqil Türk Cümhuriyyəti, 1 tanınmamış Türk Cümhuriyyəti və onlarla yanaşı, Rusiya Fedarasiyasının subyekti olan cümhuriyyələr, özərk cümhuriyyət və topluluqlar var. Lakin Türk Dünyası yal-

nız coğrafi termin olaraq deyil, həm də etnokulturoloji sistem olaraq, sözün həqiqi anlamında bir Dünya olaraq mövcuddur. Türk Dünyası ərazisi, sərvətləri və əhalisi ilə nəhəng gücdür!

Türk Dünyası dedikdə heç şübhəsiz ağ saçlı tarixin uzaq keçmişində - Qızıl Səhifələrdə bir olmuş, dünyaya mədəniyyət, ədalət bəxş etmiş millətin Tanrı tərəfindən bəxş edilmiş Ata Yurdu nəzərdə tutulur. Türk Dünyası yalnız praqmatik, konkret qərarlar tələb edən, birbaşa sənəd imzalanası ünvan olmayıb həm də ruhani təmas, harmoniya tələb etməkdədir. Dədəm Qorqud, Yunus Əmrə, Xoca Əhməd Yasəvi, Nəsimi, Şəms Təbrizi, Mövlanə Cəlaləddin Rumi və onlarla başqa böyüklərimizin ruhaniyyəti, türkün haqları ilə çağdaş dünyanın gerçəklikləri arasındakı ziddiyyətli məqamlar universal düşüncə istəyir.

«Heydər Əliyev və Türk Dünyası» mövzusu ilk növbədə respublikamızın geopolitik mövqeyi və tarixi gələnəklərimizi göz önünə gətirir. İnkişafın Azərbaycan modeli, dil siyasəti, əlifba islahatı, ümumiyyətcə İslahatlar, hüquqi-demokratik cəmiyyət quruculuğu şübhəsiz ki, ilk növbədə Orta Asiyadakı cümhuriyyətlərimiz üçün örnəklər verir, necə deyərlər, daha dərin işbirliyinin «məhək daşı» olaraq, birgə inkişafın konturlarını, məqbul ortaq məxrəci biçimləndirir. Respublika Prezidentinin 2001-ci il 09 mart tarixli Sərəncamı ilə yaradılmış və cənab Heydər Əliyevin fəxri sərdliyi ilə fəaliyyət göstərən Azərbaycanda Atatürk Mərkəzi, onun üzərinə qoyulmuş vəzifələr Uluslararası Atatürk Sülh ödülünü almış dövlət başçımızın Türk Dünyası miqyasında düşüncələrinin zamanında leqallaşmasının ifadəsidir. Heydər Əliyev kimi bütöv şəxsiyyətlər dünyanı bütöv görür. Bütöv dünya isə *bütöv şəxsiyyət, bütöv cəmiyyət və bütöv millət ardıcıllığı* ilə *YOL* getməyi tələb edir. Deməli, *soy birliyi* arzularımız praktiki hal almalıdır və bu dünyanın xeyrinədir. Böyük bir məkanda sağlam təməllərə dayalı ictimai-mədəni, ideoloji-siyasi mühitin hökm sürməsi əslində bəşəriyyətin marağında olmalıdır.

Heydər Əliyev və Türk Dünyası! Bəli, Heydər Əliyevin rəhbəri olduğu respublika heç zaman əsarətdə olmamış Türkiyə

ilə yenicə müstəqilliyə qovuşmuş digər cümhuriyyətlər arasında həm coğrafi, həm də dil, adət-ənənə, mədəniyyət korpüsüdür! Türk Dünyasında ən müxtəlif sahələr üzrə uzlaşma, uyğunlaşma prosesləri bizim iştirakımızla daha asan çözülə, daha uzaqgedən sonuclar verə bilər. Bu adi məişət münasibətlərindən tutmuş, ən yüksək səviyyəli diplomatik və akademik çalışmalarda özünü göstərməkdədir.

Heydər Əliyev və Türk Dünyası... Cənab Prezidentin istər ölkə daxili addımları, istər xarici siyasət kursu qardaş cümhuriyyətlərin mənafeləri baxımından da təhlil oluna bilər. Tarixi İpək Yolunun Bərpası Layihəsi nə qədər Azərbaycanın xeyrinə işləyirsə, o qədər də Qazaxıstanın, Türkmənistanın, Özbəkistanın, Qırğızıstanın maraqlarına cavab verir. Heç quşqusuz, bu maraq layihənin iştirakçısı olan digər dövlətlər üçün də ödənir. Eyni sözləri GUAM platforması haqqında da demək olar. Beləcə biz həm qardaş cümhuriyyətləri bir daha bağdaşlaşdırır, həm də birimizin strateji müttəfiqimizi digər cümhuriyyətimizlə də işbirliyinə cəlb edirik.

...Heydər Əliyevin keçmiş SSRİ rəhbərliyində təmsilçiliyinin verdiyi təcrübə, informasiya, Türk Dünyasının əksər hissəsini əhatə edən Rusiya Federasiyasmın subyektlərini, Orta Asiya türk Cümhuriyyətlərini yaxından tanımaq, gerçəkliklərə bələdlik əvəzedilməz və daha heç kəsin «əlinə düşməyəsi» bir şansdır. Çağdaş Azərbaycanda Quruculuq İşinin Memarı, keçmiş SSRİ Dövlət Təhlükəsizliyi Orqanının Generalı, SSRİ Baş Nazirinin birinci müavini, Sov. İKP MK-nın büro üzvü, Sosialist Əməyi Qəhrəmanı olan Şəxsiyyətin malik olduğu imkanlar, potensial Türk Dünyasının İnteqrasiyasında iştirak etməsə ciddi təbəddülatların yaşanacağı şəksiz olardı. Kunayev, Rəşidov, Nazarbayev, Nişanov... – neyləməli – bu adıkeçən nüfuzlu şəxslərin heç biri ümumtürk maraqları, dövlətçilik təcrübəsi, dünya siysətinin incəliklərinə vaqifolma baxımından böyük Azərbaycanlı dövlət xadimi ilə müqayisə olunacaq dünən və perspektiv yaratmadılar. Doğrudur, indiki Qazaxıstan Prezidenti müəyyən ölçülərə gəlir və necə deyərlər formadadır

– öz müstəqil dövlətini Sabaha aparır, lakin heç şübhəsiz, o da Azərbaycan liderinin məhz onun özü və respublikası üçün zamanında etdiyi yaxşılıqları bilir. Necə deyərlər, bütün adlar Əliyevdən sonra gəlir. Əliyev ağsaqqallığı və əzəməti bu gün necə ayaqdadırsa, dünənə baxanda da qarşımıza çıxır. Bir sözlə, nəinki biz özümüz, eləcə də Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan, Başqırdıstan, Çuvaşıstan, Tatarıstan, Saxa, Altaylar... onu xatırlamaqda, ona müraciət etməkdə haqlıdırlar.

...Qədim türk yurdu Sibirin neft-qaz ehtiyatlarının mənimsənilməsində bir Azərbaycan möhürü, nəhəng Baykal-Amur Magistralının çəkilməsində və s. bir Əliyev möhürü var... Bu sətirlərin müəllifi Çüvaşıstanda, Tatarıstanda, Qazaxıstanda olarkən Əliyev adının işığında yaşadığı anları, eşitdiyi xatirələri, dilə gətirilən arzuları məmnunluqla qeyd edir. Biz bu gün Əliyevin usta siyasəti, təcrübəsi, tövsiyyələri ilə, gələcəkdə isə heç şübhəsiz o bilik, təcrübə və informasiyanın oluşdurduğu *təməl üzərində qurulan platformaya istinadən irəli* gedəcəyik.

...Xəzər bir Türk Dənizidir. Xəzər öz sərvətləri ilə də *türklüyə xidmət etməlidir. Türkmən qardaşlarımızın* dövlət başçısı Saparmurad Türkmənbaşının anlaşılmaz, bölücü Xəzər siyasəti müqabilində Əliyevin irəli sürdüyü xətt alternativlərin *ən yaxşısıdır. İqamətgahının pəncərələri Xəzərə açılan* Azərbaycan Prezidentinin Əsrin Kontraktını imzalaması da, Bakı-Tiflis-Ceyhan ƏİK-ni gerçəkliyə çevirməsi də, qardaş Qazaxıstanın bu layihəyə qoşulmasını istəməsi də gözgörəsi böyükürəkliyliyi, üfüqügenişliyi təzahür etdirir!

Türk Dünyası nüvəli Rusiya, nüvəli Çin və qeyri-sabit Əfqanıstanla, habelə gələcək kataklizmlərin vətəni İranla, İraqla, «dünya dövlətləri ailəsi»nin üzqarası «Ermənistan»la sınır qonşusudur! Türk Dünyası planetin mərkəzi materiki olan Avrasiya boyu böyük bir coğrafiyanı əhatə edən məkandır. Ən böyük imperiyalar bu materikdə qurulub. İki Dünya Müharibəsinə səhnə olmuş Avrasiya dünyanı idarəetmə nəzəriyyələri baxımından da diqqəti cəlb edir.

Bəlli nəzəriyyələrə görə *(Halford Makkinder, «Torpaq hakimiyyəti» nəzəriyyəsi)* Doğu Avropa ilə Sibir bölgəsi dünyanın *«Qəlb sahəsi»ni («Heartland»)* təşkil edir. Bu sahənin çevrəsindəki–Balkanlardan Çinə qədər uzanan sahə isə *«İç və ya Kənar Hilal» («Rimland»)* qurşağıdır. Amerika-Afrika-Yaponiya xətti isə *«Xarici Hilal» («dünya adasının peykləri»)* kimi qəbul edilir. Bu nəzəriyyəyə görə Doğu Avropada söz sahibi olan dövlət Heartlandda hakim olur. Heartlanda hökm etməksə artıq Rimlanda sahiblənmək deməkdir. Sonra da Xarici Hilal iddiası başlayır ki, bu da elə Cahan Hakimiyyətinin özüdür... Yeri gəlmişkən, ABŞ-ın da geopolitik nəzəriyyəsi məlumdur. Bunlar *«Kənar Qurşaq», «Dəniz Hakimiyyəti»* və *«Hava Hakimiyyəti»* kimi sıralanır. ABŞ nəzəriyyəçilərinə görə hakim güc Heartland yox, bu dövlətin başçılığı ilə Xaric Hilal üzərindəki ölkələrdir. Göründüyü kimi Türk Dünyası əsasən Rimlanda düşsə də, əslində bütün qurşaqlarda biz varıq. Amma gərək Qurşaqlar bizdə olsun! Siz bircə tarixin şərəfli səhifələrinə dönmüş Böyük Dövlətlərimizi xatırlayın – onlar harada yerləşirdi?!.

Heydər Əliyev şəxsiyyətinin və Türk Dünyasının miqyası uyğundur. Türkün bütün çağlarda, tarixi dönəmlərdə liderləri, başbilənləri, böyük sərkərdələri olub. Böyük yükü böyük kişilər çəkə bilər. Daha çox emosionallıqdan uzaq qərarlar tələb edən coğrafiyada inteqrasiya siyasəti Əliyev ağlı və iradəsi ilə oluşmuş siyasətin davamını tələb edir.

...Heydər Əliyevin Türk Dövlət Başçılarının Zirvə Görüşlərində, qardaş cümhuriyyət başçılarının ilə ikitərəfli görüşlərdə ümumtürk maraqları naminə istiqamətverici, cəsarətli çıxışları, sərt, güzəştsiz mövqeyi ayrıca bir söhbətin mövzusu olsa gərək...

...Biz Türk Dünyasında inteqrasiyanı təqribən Avropa Birliy modelində görürük. Avropa Birliyi modelinə gedən yol yenə təqribən Avropa Şurası tipində bir model seçimindən keçir. Belə bir Şuraya yol artıq başlanıb. Sadəcə onu inkişaf etdirmək lazımdır. Türk Dövlət Başçılarının Zirvə Görüşlərini,

TÜRKSOYu, Türk Dünyası Yazarlar və Sənətçilər Vəqfini, Dünya Türk Gəncləri Birliyini, Dünya Gənc Türk Yazarlar Birliyni, digər uyğun profilli qurum və quruluşları bir araya gətirmək; Türk Dünyası Parlament Assambleyası və s. kimi təsisatlar yaratmaq, Türk Dünyası Olimpiya Oyunları kimi kütləvi hərəkatlar yaratmaq lazım olacaq. ...Ancaq heç quşqusuz, bunlar yalnız bir vasitə olacaq. Məqsəd isə böyük Turan xəyallarını gerçəyə çevirməkdir!..

Doğru Yolda olanlara salamlarla,
Əkbər QOŞALI

ƏLİYEVÇİLİK VƏ ATATÜRKÇÜLÜK AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN SİYASİ-İDEOLOJİ ƏSASI KİMİ

Müasir dövrümüzdə Türk dünyasının vahid siyasət və mədəniyyət strategiyasının yaradılması – Heydər Əliyev siyasi kursunun təməl ideyalarındandır.

Türk dövlətlərinin belə bir strategiya ilə hərəkət etməsi isə, heç şübhəsiz, Türkiyə və Azərbaycan arasındakı münasibətlərin doğmalığından xeyli dərəcədə asılıdır. Məhz buna görə də Heydər Əliyev həmin münasibətlərin bütün vasitələrlə möhkəmləndirilməsində və daim yüksək səviyyədə, çağ saxlanılmasında israrlı idi. Bu münasibətlərin inkişafında və həmin münasibətlərin özəyində türk dövlətlərinin bir araya gətirilməsi xəttinin yeridilməsində isə Atatürk və Atatürkçülüyün nə qədər böyük əhəmiyyətə malik olduğunu Heydər Əliyev öz siyasi praktikası ilə gerçəkliyə çevirmişdir.

Heydər Əliyevin bu istiqamətdə gördüyü ən önəmli işlərdən biri də Azərbaycanda Atatürk Mərkəzinin təsis edilməsi olmuşdur: Azərbaycanda Atatürk Mərkəzi – türk dünyasının böyük öndəri, Türkiyə Respublikasının banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yeri nəzərə alınaraq, Atatürk irsinin, bütövlükdə türk tarixi və mədəniyyətlərinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədilə yaradılmışdır(9 mart 2001- ci il).

Bu tarixi hadisədən bir qədər sonra – Azərbaycan ilə Türkiyə arasında diplomatik əlaqələrin 10-cu ildönümü ərəfəsində Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin ölkəmizə ye-

ni təyin olunmuş səfiri cənab Əhməd Ünal Çeviközü qəbul edərkən, qardaş ölkənin böyük elçisinə söyləmişdi: «Çox məmnunam ki, mənim təşəbbüsümlə Azərbaycan Atatürk Mərkəzi artıq fəaliyyət göstərir. O vaxt mənə Beynəlxalq Atatürk Sülh Mükafatı veriləndən sonra düşündüm ki, bunu etmək lazımdır və buna da böyük ehtiyac varmış. Mən çox böyük bir professoru həmin Mərkəzə başqan təyin etdim. O bizim parlamentin deputatıdır. Onlara çox qədim, gözəl bir bina vermişəm»[11, s. 4-5].

Türkiyənin Azərbaycandakı keçmiş böyük elçisi cənab Əhməd Ünal Çeviköz həmin görüşdə, Azərbaycan ilə Türkiyə arasında diplomatik əlaqələr yaradılmasının on illiyinə həsr olunan mərasimdə (14 yanvar 2002-ci il) və bu yubileylə bağlı keçirilən konfransda (14 yanvar 2002-ci il) Türkiyə-Azərbaycan münasibətlərinin gəlişməsinin xüsusi bir görsəntisi kimi Azərbaycanda Atatürk Mərkəzinin təsis edilməsinə böyük önəm verərək, «Atatürk Mərkəzi vasitəsilə bu münasibətlərin daha da inkişaf etdirilməsinə ümidlər bəslədiyini bildirmişdir» [11, s. 3-6; 16-18; 67].

Azərbaycan və Türkiyə arasında diplomatik əlaqələr yaradılmasının on illiyi şərəfinə keçirilən həmin təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə-Azərbaycan münasibətlərinin tarixin bundan sonrakı bütün dövrləri üçün gərəkli olan proqram-çıxışında bəyan etmişdir: «Əvvəlki vaxtlarda dediyimiz kimi, bu gün də deyirik ki, çox böyük xoşbəxtlikdir ki, Azərbaycanın müstəqilliyini ilk tanıyan Türkiyə Cümhuriyyəti olmuşdur. Bu, eyni zamanda təbii bir haldır. Çünki bizim xalqlarımızı bağlayan dərin köklər var... On il içərisində Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı böyük sınaqlardan keçibdir. Doğrudur, bizim dostluq, qardaşlıq əlaqələrimizdə on ildə heç bir problem olmayıbdır. Çünki bizim dostluğumuz çox sağlam təməllər, dərin tarixi köklər üzərində qurulubdur. Güman edirəm ki, belə də olmalı idi. Əminəm ki, bundan sonra da heç bir problem olmayacaqdır. Amma buna baxmayaraq, on il içərisində Azərbaycan öz müstəqilliyini qoruyub saxlamaq üçün böyük smaqdan keçdi... On il biz

müstəqil dövlətlər kimi bir-birimizlə əlaqədə inkişaf etmişik. Heç şübhə yoxdur ki, bu, gələcək üçün də böyük əsasdır. *Bu gələcəyin çox möhkəm təməlini qoymuşuq. Əminəm ki, bu təməl üzərində böyük bir Türkiyə – Azərbaycan dostluğu, qardaşlığı abidəsi yaradılacaqdır.* Bu abidə gələcək illərdə də, gələcək əsrlərdə də Türkiyə – Azərbaycan dostluğunun, qardaşlığının *yenilməz rəmzi olacaqdır» [11, s. 11-12]. Bu* proqram-çıxışda ifadə olunan konsepsiya yaradıldığı vaxtdan bəri Azərbaycanda Atatürk Mərkəzinin fəaliyyətində başlıca prinsip və qayə olmuşdur. Böyük öndərin vəfatından sonra da onun Atatürk Mərkəzinə münasib bilib verdiyi binanın təmiri İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra da sürətlə davam etdirildi və 10 aprel 2004-cü ildə onun təntənəli açılışı oldu.

Azərbaycanda Atatürk Mərkəzinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə və Azərbaycanın, eyni zamanda qardaş türk respublikalarının dövlət və mədəniyyət nümayəndələri iştirak edirdi. Azərbaycan Respublikası Milli Məclisinin üzvü və Parlamentin Mədəniyyət Komitəsinin sədri, Azərbaycanda Atatürk Mərkəzinin müdiri Nizami Cəfərov Heydər Əliyevin yaratdığı və ilk fəxri sədri olduğu Atatürk Mərkəzinin açılışını ölkəmizin siyasi-mədəni həyatında, Türkiyə-Azərbaycan münasibətlərinin tərəqqisində çox mühüm hadisə kimi dəyərləndirərək, Azərbaycan Respublikasının Prezidenti, Azərbaycanda Atatürk Mərkəzinin fəxri sədri İlham Əliyevə müraciətlə söylədi:

«Atatürk Mərkəzi bu günə qədər müəyyən işlər görmüşdür. Biz bu işləri sadəcə başlanğıc hesab edirik. Atatürk haqqında kitablar buraxılmış, türk dünyasına dair müəyyən kitablar nəşr olunmuşdur. Amma bununla yanaşı, bizə bu gözəl binanın verilməsindən sonra – cənab prezident, mən bunu xüsusi vurğulamaq istəyirəm – binanın bu vəziyyətə çatmasında Sizin xüsusi xidmətləriniz və qayğılarınız vardır – dövlətimiz, xalqımız və ümumən türk dünyası üçün daha böyük həvəslə, maraq-

la və canyanğısı ilə işləyəcəyik... Biz Sizin bütün arzularınızı həyata keçirməyə həmişə hazırıq. Sizin hər bir göstərişiniz bizim üçün ideoloji, metodoloji göstəriş olacaqdır».

Mərasimdə iştirak edən Türkiyə Cümhuriyyətinin dövlət naziri Bəşir Atalay dedi: «Bu gün gənc bir liderin rəhbərliyi ilə Azərbaycanın öz iqtisadi və sosial inkişafını davam etdirərək sahib olduğu təbii sərvətləri və insan potensialı ilə bölgəsinin yüksələn gücü olması üçün sağlam addımlarla getdiyini görmək bizləri, Türkiyəni, türk xalqını məmnun etməkdədir... Atatürk Mərkəzi Azərbaycan və Türkiyə xalqları arasındakı köklü qardaşlıq tellərinin çox gözəl bir nümunəsidir və inanıram ki, bu, aramızda yeni bir körpü olacaqdır. Onun Atatürkün düşüncə sisteminin Azərbaycanda və türk dünyasında daha dərindən anlaşılmasına da xidmət göstərəcəyinə inanıram». Atatürk Yüksək Qurumunun başqanı, professor Sadıq Tural qeyd etdi ki, «Azərbaycanın mərhum prezidenti *Heydər Əliyev Atatürkün irsini gözəl bilən, təbliğ edən ən dəyərli dövlət adamı idi.* Onun Nizami Cəfərov kimi bir alimi bu mərkəzə müdir təyin etməsi, bu binanı seçməsi və cənab İlham Əliyevə belə bir böyük əmanət verməsi bizi çox sevindirir... Atatürk Mərkəzi, sadəcə azərbaycanhların deyil, hamımızmdır».

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan-Türkiyə münasibətlərinin, eyni zamanda türk dövlətlərinin müasir dünyada qarşılıqlı əlaqələr sisteminin inkişaf etdirilməsinin əsas strateji istiqamətlərini müəyyən edən çıxışında Atatürkçülüklə Əliyevçiliyin hansı ideoloji parametrlərdə qovuşduğunu, bu siyasi təfəkkür kopsepsiyasında ümumtürk birliyinin necə mükəmməl formada ifadə olunduğunu və bu konsepsiyanın Azərbaycanda Atatürk Mərkəzinin fəaliyyətində yüksək səviyyədə əks olunmasının necə böyük əhəmiyyət daşıdığını və daşıyacağını vurğulayaraq söylədi: «Mustafa Kamal Atatürk dünyanın ən görkəmli şəxsiyyətlərindən biridir. Böyük dövlət xadimi, siyasi xadimdir. Onun Türkiyə qarşısında, bütün türk dünyası qarşısında misilsiz xidmətləri olmuşdur. Ən böyük xidməti isə Türkiyə

Cümhuriyyətini yaratmasıdır. *Müasir Türkiyə Mustafa Kamal Atatürkün əsəridir. Necə ki, müasir Azərbaycan Heydər Əliyevin əsəridir...*

Bu gün Türkiyə dünyada böyük siyasi çəkiyə malik olan bir ölkədir. Türkiyənin dünya birliyində çox önəmli yeri vardır. Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyə qovuşandan sonra onu tanıyan ilk ölkə Türkiyə olmuşdur. Ondan sonra Türkiyə-Azərbaycan əlaqələri, münasibətləri günü-gündən inkişaf edir, güclənir. *Bu münasibətlərin inkişafında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xidmətləri müstəsnadır.* Məhz onun fəaliyyəti nəticəsində son on il ərzində Türkiyə-Azərbaycan münasibətləri güclənmiş, inkişaf etmişdir və bu gün ölkələrarası münasibətlərə örnək, nümunə ola bilər. Biz bu siyasətə sadiqik. Biz, Azərbaycanın yeni rəhbərləri bütün məsələlərdə Heydər Əliyevin yolu ilə gedirik. O cümlədən Türkiyə-Azərbaycan münasibətlərinin inkişafı baxımından da biz bu siyasətə sadiqik... Mən ümid edirəm və əminəm ki, burada, Azərbaycanda fəaliyyət göstərəcək Atatürk Mərkəzində Atatürkün tarixi irsi öyrəniləcək və təbliğ ediləcəkdir. Mən Atatürk Mərkəzinə uğurlar arzulayıram. Sizin hamınızı bu tarixi hadisə münasibətilə bir daha təbrik edirəm»[1].

Azərbaycan və Türkiyə dövlətləri tərəfindən belə böyük önəm verilən Atatürk Mərkəzi hazırda bir neçə mühüm fəaliyyət istiqamətlərini özündə uğurla birləşdirir. Elmi araşdırmalar və mədəniyyət təşkilatı olan Mərkəzin əsas vəzifəsi Mustafa Kamal Atatürkün irsini, onun türk dünyasındakı yerini və rolunu, türkdilli xalqların tarixi və mədəniyyətini fundamental şəkildə öyrənmək və bu xalqların zəngin sivilizasiya ənənələrini təbliğ etməkdir. Azərbaycanda Atatürk Mərkəzinin Əsasnaməsinə görə, o, Azərbaycan Respublikasının elmi-mədəni mər-

[1] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Üçüncü kitab, Bakı, Azərnəşr, 2009, s. 295-297

kəzləri ilə, digər türkdilli dövlətlərin analoji qurumları ilə, eləcə də dünyanın müxtəlif ölkələrindəki elmi mərkəzlərlə əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Mərkəz Mustafa Kamal Atatrük irsini tədqiq və təbliğ etmək məqsədilə bu işlə məşğul ola bilən elm və mədəniyyət profesionallarını müvafiq mövzuların işlənilməsinə, müəyyən edilmiş problemlərin öyrənilməsinə cəlb edir və onların elmi fəaliyyətlərinə lazımi şərait yaradır. Atatürk irsinin elm, təhsil, mədəniyyət və s. sahələrdə qorunması və inkişaf etdirilməsini təmin etmək üçün tədqiqatlar aparır. Türkdilli xalqların ictimai fikir tarixində və mədəni inkişafında Atatürk irsinin rolunun müəyyənləşdirilməsi üçün tədbirlər həyata keçirir. Aparılan tədqiqatlarm nəticələrini yaymaq və təbliğ etmək məqsədilə elmi əsərlər, məcmuələr və s. nəşr edir. Atatürk şəxsiyyəti və irsinin tədqiqinə həsr olunmuş görkəmli əsərlərə görə mükafatlar verir. Atatürk irsinə aid sənədlərin vahid arxivini və fondunu yaradır. Türkdilli dövlətlərin həyatınm müxtəlif sahələrinə həsr edilmiş tədbirlər keçirir. Respublika daxilində və respublikadan kənarda türkdilli dövlətlərin elmi və mədəniyyəti ilə əlaqədar tədqiqatlar aparan digər qurumlarla münasibətlərini qurur və onların fəaliyyəti ilə öz fəaliyyətini əlaqələndirmək üçün konfrans, müşavirə və toplantılar keçirir. Türkdilli dövlətlərin və digər xarici dövlətlərin müvafiq qurumları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Müvafiq beynəlxalq tədbirlərdə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasını təmsil edir və belə tədbirlərin Azərbaycan Respublikasında keçirilməsini təmin edir.

Homosivilizasiyanın inkişafında yeni mərhələyə – Üçüncü minilliyə dünya türk dövlətləri vahid siyasət və mədəniyyət strategiyası üzrə hərəkət etmək və bu tendensiyanı uğur və qətiyyətlə davam etdirmək zərurəti ilə daxil olurlar. Bu zərurəti başladığımız minilliyin son əsrinin əvvəllərində – bəşəriyyətin yeni dövr tarixində ilk dəfə beynəlxalq siyasət kontekstinə gətirən Mustafa Kamal Atatürk olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Türkiyə-Azərbaycan əlaqələri XXI əsrdə» forumunun iştirakçılarına, Amerika Türk Assosiasiyaları Assambleyasının XXIV qurultayına ünvanladığı məktublarda, Azərbaycanda Atatürk Mərkəzinin açılış mərasimində söylədiyi nitqində Atatürkün bu böyük siyasi uzaqgörənliyini yüksək qiymətləndirmiş, ortaq dəyərləri, örnək mədəniyyəti, fəal siyasi strategiyası ilə türk dünyasının planetin qlobal inkişafı perspektivində özünəməxsus yer tutması zərurətinə və şərtlərinə toxunmuş, türk dünyasının bütövlüyü ideyasını gerçəkləşdirmə, onu vahid, real gücə çevirmə istiqamətində Türkiyə - Azərbaycan münasibətlərini bütün sahələrdə gəlişdirməyin vacib və həlledici olduğunu bildirmişdir:

«Mustafa Kamal Atatürk təkcə Türkiyə haqqmda deyil, bütün türk dünyası haqqında düşünmüşdür. O cümlədən Azərbaycanda yaşanan olaylar da onu hər zaman narahat edirdi, düşündürürdü və azərbaycanlı qardaşlarına olan məhəbbəti, hörməti, sevgisi bizim hamımıza bəllidir... Ölkələrimiz arasında bütün sahələrdə uğurlu əməkdaşlıq, işbirliyi mövcuddur. Siyasi, iqtisadi, hərbi, mədəni – bütün sahələrdə münasibətlərimiz inkişaf edir və bu bizi çox sevindirir.

Bu gün Türkiyə və Azərbaycanda dünyanın ən böyük layihəsi – Bakı-Tbilisi-Ceyhan layihəsi həyata keçirilir. Bu layihə bizi daha da sıx bağlayacaq, daha da sıx birləşdirəcəkdir. Regional əməkdaşlıq üçün gözəl şərait yaradacaqdır. Ümumiyyətlə, regionda bundan sonra gedən proseslərə böyük təsir göstərəcəkdir.

Bizim gücümüz birliyimizdədir. Azərbaycan müstəqil ölkə kimi yaşamağa başlayandan sonra biz hər zaman Türkiyənin dəstəyini hiss etmişik və ümummilli liderimiz Heydər Əliyevin həmişə kəlamını yadda saxlayırıq: Biz bir millət, iki dövlətik. Türkiyə harada, Azərbaycan orada, Azərbaycan harada, Türkiyə orada olmalıdır. Əminəm ki, bundan sonra da belə olacaqdır»[2].

---

[2] İlham Əliyev. İnkişaf – məqsədimizdir. Üçüncü kitab, Bakı, Azərnəşr, 2009, s. 296-297

Azərbaycan dövlətinin bu perspektivli strategiyasının humanitar siyasət sahəsində elmi-konseptual prinsiplərinin hazırlanması olduqca vacibdir. Burada əsas istinad mənbəyi – Mustafa Kamal Atatürkün və Heydər Əliyevin iyirminci yüzilin əvvəllərindən və sonundan gəlib vahid məqsəddə bir-birini tamamlayan irsidir. Bu irs – artıq çağdaş türk dünyasının vahid strategiyasını müəyyən etməyə qadir olan siyasi sərvətdir. XX əsrin son on illiyində Mustafa Kamal Atatürkün böyük uzaqgörənliklə söylədiyi fikirləri tarix həqiqətə çevirdi. Ancaq yeni reallıqlarla şərtlənən bu çətin, ziddiyyətli dövrdə Heydər Əliyev kimi bir siyasətçinin məqsədyönlü fəaliyyəti lazım gəldi ki, həmin strategiyanı davam etdirmək, həyata keçirmək mümkün olsun. XX əsrin doxsanıncı illərindən başlayaraq məhz Heydər Əliyevin xidmətləri sayəsində dünya türk dövlətlərinin əlaqələrinin inkişafı üçün əlverişli şərait və bu şəraitdən istifadə etmək imkanları yaranmışdır.

Türk dünyasının fəxri Heydər Əliyevin türk xalqlarının dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının iştirakçılarına təbrikində söyləmişdir: «Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir»[3].

Heydər Əliyevin siyasi təfəkkürünün, öncəgörücülüyünün parlaq və bariz nümunəsi olan bu fikirlərdə türk dünyasının müasir dünya inkişafında özünə yer alması, beynəlxalq arenada yüksəlməsi və bu mövqedən vahid universal strategiyasını irəli sürməsi, hər bir türk dövlətinin həm ümumtürk, həm dünya bir-

[3] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər, fərmanlar. 25-ci kitab, Bakı: Azərnəşr, 2008, s. 427-428

liyində uzlaşdırılmış siyasi xətlə çıxış etməsi konsepsiyası nikbin və realist ifadəsini tapmışdır.

Böyük mütəfəkkir siyasətçi çox dəqiq hədəfləmişdi ki, yalnız bu konsepsiyanın şərtləri daxilində, onun prinsiplərinə əməl etməklə, bütün siyasi səyləri bir araya gətirib hamını qane edən düzgün müəyyənləşdirilmiş məqsədlərə tabe etməklə türk dünyası buraya daxil olan dövlətlərin öz müstəqilliklərini qorumaq və möhkəmləndirməyə kömək edən milli siyasəti ilə ümumbəşəri amaclara yönəli siyasətin harmoniyasını tapa və öz iradəsini ortaya qoyan, yeridən nüfuzlu qlobal gücə çevrilə bilər.

Türk dünyası böyük, güclü, seçkin bir sivilizasiya məkanı, yaradıcı, mütərəqqi ruhlu bir siyasi sistem kimi öz orqanikası ilə planetin qlobal inkişafı perspektivində aparıcı, yönəldici qüvvəyə çevrilə bilər.

Tamamilə qanunauyğundur və fərəhlidir ki, bu gün Azərbaycanda və türk dünyasında Heydər Əliyevin yeritdiyi bu məqsədyönlü siyasəti türk dövlətlərinin ümumtürk birliyinə çalışan və onun avanqardı olan siyasət və mədəniyyət xadimləri ilə birlikdə, onlarla çiyin-çiyinə və demək olar ki, daha aktiv formada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev davam və inkişaf etdirir.

Prezidentin Azərbaycana rəhbərliyinin elə ilk ilində atdığı bir sıra uğurlu addımlar, onun Qazaxıstan, Özbəkistan və Türkiyə respublikalarına səfərləri, Heydər Əliyevin siyasi kursuna uyğun gələn, bu kursun perspektivinə inamı daha da yüksəldən qərarlar qəbul etməsi – həmin ölkələrdə, habelə digər türk dövlətləri ilə sıx əməkdaşlıq, nəticəli müttəfiqlik istiqamətində yeni mərhələnin başlamasına sübutdur.

Türk dünyasının həmrəyliyi və inteqrasiyasının tarixi zərurət olduğunu Bakıda keçirilən Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumu da təsdiqlədi: "Forumun yekun sənədi olan Bakı Bəyannaməsi Azərbaycan və Türk diaspor təşkilatının birgə fəaliyyət strategiyasından irəli gələnməsələlərini həlli məqsədilə həyata keçiriləcək tədbirlərlə bağlı

tövsiyyələri özündə əks etdirir. Sənəddə Azərbaycan və Türkiyənin, habelə bütün türk dünyasının milli maraqlarının müdafiəsi, xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin ictimai-siyasi fəallığınm artırılınası, onların təşkilatlanması prosesinə dəstək verilməsi, insan hüquq və azadlıqlarımn təmin olunması, lobbi quruculuğu sahəsində əməkdaşlığm inkişafı, azərbaycanlı və türk iş adamlarının forumlarının keçirilməsi, xarici investorların Azərbaycan və Türkiyəyə investisiya qoymağa təşviq edilməsi ilə bağlı məsələlər öz əksini tapmışdır.Hazırda bu sferaya daxil olan məsələlərin həyata keçirilməsi yönümündə aparılan işlər isə həqiqətən türk dünyasının birliyinin aydın perspektivi olduğunu göstərir"[4].

Böyük ənənəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyularaq mütəmadi keçirilən Türk dövlət və cəmiyyətlərinin dostluq, qardaşlıq və əməkdaşlıq qurultayları türk dünyasının qlobal inteqrasiyaya doğru inkişafında addım-addım irəliləyişdir. Bu qurultaylarda qardaş ölkələr və xalqlar arasında bütün sahələrdə qarşılıqlı əlaqələrin dərinləşdirilməsi, inteqrasiya proseslərinin gücləndirilməsi, təhlükəsizliyin və sabitliyin bərqərar edilməsi, türkdilli dövlətlərin beynəlxalq aləmdə möv-qeyinin möhkəmləndirilməsi naminə görüləcək işlərlə bağlı faydalı ideyalar ortaya qoyulur, dəyərli təşəbbüslər irəli sürülür, vahid məqsədlərin ümumi strategiyası və onun prinsipləri müəyyənləşdirilir.

Türk dünyasının birliyi ideyası, dünya türk milli dövlətlərinin vahid siyasi-kültür strategiyası konsepsiyası bu gün xüsusilə Azərbaycanda, Türkiyədə və digər qardaş türk respublikalarında həm siyasi hakimiyyət, həm də ictimai-humanitar səviyyələrdə özünü göstərməkdədir. Təbii ki, böyük və müstəqil dövlətçilik təcrübəsi olan, dünya türklüyünün ana vətəni, bu

---

[4] Nizami Cəfərov, Osman Musayev, Dəyanət Osmanlı. Türk dünyasının yeni lideri, Bakı, Çaşıoğlu, 2009

ideologiyanı ən çətin dövrlərdə belə qoruyub inkişaf etdirən Türkiyə Cümhuriyyətində həmin ideya və konsepsiya daha möhkəm təməllərə və özünügerçəkləşdirmə gücünə malikdir. Bu siyasət Türkiyədə müasir dünya reallıqlarına uyğun olaraq öz ölçüsündə, lakin ardıcıl və sistemli şəkildə aparılır. Hazırda Türkiyə və Azərbaycan bu həyati əhəmiyyət daşıyan məsələdə tam yekdildir.

Bir çox iqtisadi, siyasi, mədəni layihələrin həyata keçirilməsi yalnız hər iki dövlətin həmin strategiya əsasında ardıcıl səy göstərməsi nəticəsində mümkün olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan və Özbəkistana səfərindən sonra bu ölkələrdə də sıx əməkdaşlıq istiqamətində xeyli canlanma baş vermişdir. Türkiyə və Azərbaycanın səsinə digər qardaş türk respublikalarından hay verildikcə dünya türk dövlətlərinin birliyi öz sarsılmaz mövqeyini daha əsaslı şəkildə nümayiş etdirə biləcəkdir.

Beləliklə, dünya türk milli dövlətlərinin vahid siyasi-kültür strategiyasının əsas prinsiplərini Əliyevçilik və Atatürkçülük təməlində müəyyənləşdirməyə çalışaraq, qənaətlərimizi tezislər şəklində belə ümumiləşdirə bilərik:

1. Dünya türk milli dövlətlərinin birliyi ideyasının kökündə bu dövlətləri yaratmış türk xalqlarının etnogenetik təməli, ulu sivilizasiya qaynaqları, böyük dövlətçilik təcrübəsi və ənənəsi; bütün tarix boyu davam etmiş etnomədəni əlaqələri, tarixi diferensiasiya proseslərində itirmədikləri, qoruyub saxladıqları və daim inkişaf etdirdikləri ortaq dəyərləri dayanır. Bu elə bir möhkəm özüldür ki, tarixin ən amansız dövrlərində belə sarsılmamış, məqam düşdükcə bərkimiş, hazırda isə güclü energetik potensiyasını yenidən və daha məqsədyönlü şəkildə hərəkətə gətirmək qüdrətindədir. Müstəqil Türkiyə və Azərbaycan dövlətlərinin qurucuları Mustafa Kamal Atatürk və Heydər Əliyev bu tarixi missiyanı dərk edərək, həmin ideyanı həyata keçirməyin strategiyasını yaratmışlar. Artıq bu gün Türkiyə dövlət rəhbərlərinin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, eyni zamanda digər türksoylu dövlət

başçılarının ümumi səyi ilə həmin strategiyanın dünya reallıqlarına uyğun olaraq yeridilməsi mümkünləşir. Azərbaycanın və türk dünyasının lideri Heydər Əliyevin azman fəaliyyəti nəticəsində yeni dövr üçün bu ideyanın gerçəkləşməsindən ötrü bünövrə qoyulmuşdur. Artıq türk dünyasının yeni lideri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu təməl üzərində fəaliyyətin və inkişafın uğurlu perspektivlərini açmaqdadır.

II. Planetmiqyaslı qlobal inteqrasiya prosesləri dünya türk milli dövlətlərinin bir sistem olaraq həmin proseslərdə iştirak etməsini, müttəfiqliyin ən yüksək səviyyəsində öz bütövlüyünü və birliyini təzahür etdirməsini tarixi zərurətə çevirir. Yoxsa qloballaşma prosesinə türk sivilizasiyası öz orqanikasında deyil, yalnız elementlər qismində, konqlomerat şəklində, diffuziya halında sorula bilər. İnteqriləşmənin, sintezləşmənin bu stixiyasından qorunmaq, universal-qlobal sivilizasiya mühitində, planetin həyat rejiminin yeni məkan-situasiyasında yaşamaq və çiçəkləmək üçün türk sivilizasiyasının kifayət qədər güclü potensialı var.

III. Azərbaycan öz tarixi-coğrafi mövqeyinə görə elə məkanlaşıb ki, burada Şərq və Qərb mədəniyyətlərinin ən müxtəlif məzmunlu və keyfiyyətli tendensiyaları konsentrasiya olunub, ümumdünya türkçülük hərəkatının əsas ideologiyaları burada doğularaq yayılıb. Bu mənada Azərbaycan – həm sırf milli mədəniyyətin, həm əlaqəli regional mədəniyyətlərin, həm ümumtürk mədəniyyətinin, həm dünya mədəniyyətlərinin qovuşduğu qlobal əhəmiyyətli geosivilizasiya məkanıdır. Buna görə də Azərbaycan ümumdünya türkçülük hərəkatının mərkəzi və ya mərkəzlərindən bir olaraq öz tarixi funksiyasından çıxış edir və etməlidir.

IV. Türk milli dövlətləri və xalqları artıq əsası qoyulmuş vahid siyasi-kültür strategiyası ilə hərəkət edərək, bu strategiyada öz mənafelərini uzlaşdırmağı bacarmalı və həmin koordinasiya olunmuş strategiyasını müasir dünya inkişafının aparıcı tendensiyalarından birinə çevirməlidir. Türkün Böyük olmağa həm yaşı, həm ağlı, həm gücü çatır. Sərvətli torpağı

ayağının altında. Bərəkətinə hərəkət verən Allahı da başının üstündə.

V. Türk dünyasının bütövlüyü hər bir türk dövlətinin müstəqilliyinin qorunmasının və möhkəmləndirilməsinin, öz milli mədəniyyətini inkişaf etdirməsinin başlıca şərtidir. Türk milli mədəniyyətlərinin harmoniyası – onların hər birinin özgürlük kompleksini yaşatması və ümumtürk mədəniyyətinə təbii sintez olunması ilə baş tutur.

VI. Dünya türk milli dövlətlərinin birliyini aktuallaşdıran – həm də onların qarşılaşdığı problemlərin beynəlxalq səviyyədə həll edilməsində bir-birinə yardımçı olmaları, dayaq durmalarıdır. Ümumdünya türk bir-likləri ən yüksək, sözükeçər, məqsədəyetər səviyyədə təşkilatlandırılmalıdır. Ümumdünya türkçülük hərəkatının əsas məqsədlərindən biri– təkcə Azərbaycanın deyil, bütün türk dünyasının ən böyük problemi olan *Qarabağ məsələsini həll etmək* olmalıdır. Qarabağ – adi problem deyil, bütün türk dünyasının beynəlxalq nüfuzu onun həllindən xeyli dərəcədə asılıdır.

VII. Türk dünyasının birliyi və onun vahid siyasi-kültür strategiyasından çıxış etməsi konsepsiyası türk respublikalarında bu və ya digər səviyyədə diqqət mərkəzindədir və işlənməkdədir. *Türkiyədə və Azərbaycanda isə Atatürk və Heydər Əliyev xəttinə sadiq olan dövlət siyasətinin tərkib hissəsidir.*

VIII. Əliyevçilik və Atatürkçülük – siyasi liderə inamla hərəkət edərək, milli dövləti parçalanmalardan qoruyaraq modernləşdirməyin, onu ən inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmağın, həmin dövlətlərlə qarşılıqlı münasibətləri yüksək səviyyədə qurmağın, demokratiya, insan azadlığı və vətəndaş cəmiyyəti ideallarına, ümumbəşəri dəyərlərə sadiqliyin ideologiyasıdır. *Əliyevçilik – azərbaycançılığın ideoloji sistemində onun aparıcı istiqaməti, başlıca prinsipi, milli dövlət quruculuğunun əsas dayağıdır.*

Rahid S. ULUSEL,
fəlsəfə elmləri doktoru, professor

AZƏRBAYCANDA ATATÜRK MƏRKƏZİ:
HEYDƏR ƏLİYEVİN ATATÜRKƏ VƏ TÜRK DÜNYASINA BÖYÜK EHTİRAMI

Ummmilli lider Heydər Əliyevin düşüncəsində türk dünyasımn görkəmli dövlət xadimlərinə, unudulmaz şəxsiyyətlərə, mütəfəkkirlərə xüsusi bir ehtiram var idi. O, böyük Atatürkün şəxsiyyətinə və irsinə, xidmətlərinə də yüksək sayğılar bəsləyirdi. Çağdaş müstəqil Azərbaycanm qurucusu Heydər Əliyev Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün dövlətçilik təcrübəsini Azərbaycanın milli dövlət quruculuğu prosesində daim xatırlamışdır. Atatürk Mərkəzini yaratmaq fikri də bütün türklərin mütəfəkkir insanına zamanında gördüyü işlərə görə cəmiyyətimizdə minnətdarlıq hissinin ifadəsidir. Türk dövlətlərində bu tipli mər-kəzlərin yaradılması ideyası çoxdan mövcud olsa da ilkin olaraq dövlət qurumu kimi Azərbaycanda gerçəkləşmişdir.

Ümummilli lider Heydər Əliyev Atatürkə, Türkiyəyə və türk dünyasına ehtiramının əlaməti olaraq, 9 mart, 2001-ci il tarixli sərəncamla qardaş Türkiyə ilə tarixi, milli-mənəvi, mədəni bağlılığımızın inkişafı üçün mühüm əhəmiyyət daşıyan bir təsisat – Azərbaycanda Atatürk Mərkəzini yaratmışdır. Mərkəzin fəxri sədri Azərbaycan Respublikasının Prezidentidir. Prezidentin sözügedən sərəncamında və mərkəzin əsasnaməsində bu, birmənalı şəkildə vurğulanır. Atatürk Mərkəzin yaradılması zərurəti konkretdir. Bu mənada, sərəncamda qeyd olunur kimi, təsisat «Türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün türk tarixində tutduğu mühüm yeri nəzərə alaraq, Ata-

türk irsinin, ümumiyyətlə, türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədi» daşıyır.

Mərkəzin fəaliyyəti ilə tanışlıqdan aydın olur ki, qurum ictimai fikri türk dünyası və Atatürklə bağlı tarixi hadisələrə, tədqiqata, yeni münasibətlərə yenidən yönəltməyi istiqamət olaraq seçmişdir. Burada türk dünyasının tarixi, mədəniyyəti və bu sferaya daxil ola biləcək digər məsələlər araşdırılır və nəşr olunur.

Ulu öndər 4 iyul, 2001-ci il tarixli digər bir sərəncamla isə görkəmli türkoloq alim, tədqiqatçı, prof. dr. Nizami Cəfərovu bu mərkəzə müdir təyin etmişdir. O vaxtdan etibarən mərkəzdə görkəmli türkolq alimin rəhbərliyi ilə bir sıra ürəkaçan işlər görülmüşdür. Atatürk Mərkəzinin müdiri sıradan bir elm adamı, millət vəkili deyil, o, Azərbaycanda və Türk dünyasında kifayət qədər nüfuz qazanmış türkoloq-alim, ictimai xadimdir. Onun elmi araşdırmaları və kitabları dünya türkoloqları, tədqiqatçılar üçün impulsveriçi örnək kimi həmişə diqqət mərkəzindədir. Ulu öndər Heydər Əliyev rəsmi görüşlərin birində Atatürk Mərkəzinin yaradılması münasibətilə demişdi: ***«Çox məmnunam ki, mənim təşəbbüsümlə Azərbaycanda Atatürk Mərkəzi artıq fəaliyyət göstərməkdədir. O zamanlar mənə Beynəlxalq Atatürk Sülh Mükafatı verilərkən düşündüm ki, belə bir qurumu yaratmaq gərəkdir və buna da böyük ehtiyac varmış. Mən çox böyük bir professoru o mərkəzə başkan təyin etdim. O, bizim parlamentin millət vəkilidir. Onlara çox gözəl və tarixi bir bina verdim».*** Və belə ünlü elm xadiminin yeni quruma rəhbər təyin edilməsi həm də onu göstərirdi ki, Heydər Əliyev türk xalqlarının elmi, mədəni tarixinin, Türk dünyası ölkələrinin əzəli, müasir bağlılıqlarının öyrənilməsi məsələsində ciddi dayanmışdı və mərkəzin fəalliyyətindən bu sahədə çox nəticə gözləyirdi.

Mərkəzdə Türk dünyasının tarixi, mədəniyyəti və bu sferaya daxil ola biləcək digər məsələləri araşdırmaq da nəzərdə tutulmuşdur. Bu elm, mədəniyyət ocağında ictimai fikri türk dünyası və Atatürklə bağlı tarixi hadisələrə, araşdırmalara, gə-

lişən münasibətlərə yenidən yönəltmək də bir istiqamət olaraq seçilmişdir.

Eynilə Azərbaycanda Atatürkə olan ehtiram kimi, Türkiyədə də türk dünyasının çağdaş lideri Heydər Əliyev şəxsiyyətinə böyük sevgilər hər zaman duyulur. Bu qarşılıqlı münasibətlər milli azadlıq mübarizləri, dövlət qurucuları Atatürk və Heydər Əliyev ideyalarına xalq, dövlət səviyyəsində məhəbbətin bütün türk dünyası üçün örnək təzahürüdür.

Bu mənada, Atatürk irsini, türk dünyasındakı çağdaş prosesləri öyrənən belə bir mərkəzin yaradılması qərarı Heydər Əliyevin yalnız Atatürk Sülh Mükafatını alarkən deyil, ondan əvvəl və sonra irəli sürdüyü uyğun ideyaların nəticəsi olaraq meydana çıxmışdı. Türk dünyasının müasir lideri Heydər Əliyevin yaratdığı və ilk fəxri sədri də özü olduğu bu mərkəz indi onun atatürkçülük barədə fikir və mülahizələrini əsas ideya-istiqamət kimi seçərək, öz məqsədləri çərçivəsində uğurla fəaliyyət göstərməkdədir.

Türk dövlətlərində bu tipli mərkəzlərin yaradılması ideyası çoxdan vardır. Ancaq müxtəlif zamanlarda İctimai əsaslarla belə təşkilatlar yaradılsa da, onlarm fəaliyyəti hiss olunmur. Türkiyədə böyük təcrübəsi olan bu cür mərkəzlər də çoxdur. Ancaq Azərbaycandakı mərkəz o təcrübələrin heç birisini birbaşa mənimsəmək yolu ilə getmir. Onun öz prinsipləri var, fəaliyyətində Azərbaycan dövlətinin türk dünyasına yönəlik siyasətinin istiqamətləri əsasdır.

İntellektual elm, mədəniyyət təşkilatı

Azərbaycanda Atatürk Mərkəzi elm, mədəniyyət təşkilatı, müəyyən qədər akademik bir təsisat deməkdir.

Mərkəzin strukturu elədir ki, burada həyata keçirilən vəzifələr xüsusi bir əhəmiyyətə malikdir və ümdəsi Türk dünyasının müxtəlif siyasi, ictimai, mədəni təşkilatları ilə əlaqələri daha da gücləndirmək, müasir türk dünyasında gedən prosesləri öyrənmək, XX əsrin əvvəllərində və sonunda Atatürk və Heydər Əliyevin Türk dünyasının birliyi uğrunda

istimai-siyasi, milli mübarizə tarixini dərindən araşdırmaq, təbliğ etməkdir. Ona görə də Türk dünyasının bu tarixi liderlərinin dövlət qurmaq uğrunda apardıqdarı mübarizələr mərhələlərlə tədqiqat obyektinə çevrilir, izahı verilir, yayınlanır. Bir sözlə, görülmüş işlər də, məqsədlər və perspektivə planlaşdırılan məsələlər də çoxdur. Burada kollektivin hər bir üzvü çalışır ki, Atatürk Mərkəzi Azərbaycanda bir intellektual institut kimi daha da möhkəmlənsin.

Mərkəzin əsasnaməsi 13 avqust 2001-ci il tarixdə qəbul olunmuşdur. Və burada əsas vəzifə və funksiyalar bir neçə bənddə konkret təsbitini tapmışdır. Həmin funksiyalar bunlardır:

Mustafa Kamal Atatürk irsini tədqiq və təbliğ etmək məqsədilə bu işlə məşğul ola bilən elm və mədəniyyət xadimlərini müvafiq mövzuların işlənməsinə cəlb edir və onların elmi fəaliyyətinə lazımi şərait yaradır;

Atatürk irsinin elm, təhsil, mədəniyyət və s. Sahələrdə qorunması və inkşaf etdirilməsini təmin etmək üçün tədqiqatlar aparır;

Türkdilli xalqların ictimai fikir tarixində və mədəni inkşafında Atatürk irsinin rolunun müəyyənləşdirilməsi üçün tədbirlər həyata keçirir;

Aparılan tədqiqatların nəticələrini yaymaq və təbliğ etmək məqsədilə elmi əsərlər, məcmuələr və s. nəşr edir;

Atatürk şəxsiyyyəti və irsinin tədqiqinə həsr olunmuş görkəmli əsərlərə görə mükafatlar verir;

Atatürk irsinə aid sənədlərin vahid arxivini və fondunu yaradır;

Türkdilli dövlətlərin həyatının müxtəlif sahələrinə həsr edilmiş tədbirlər keçirir;

Respublika daxilində və respublikadan kənarda türkdilli dövlətlərin elmi və mədəniyyəti ilə əlaqədar tədqiqatlar aparan digər qurumlarla münasibət qurur və onların fəaliyyəti ilə öz fəaliyyətini əlaqələndirmək üçun konfrans və müşavirələr keçirir;

Türkdilli dövlətlərin və digər xarici dövlətlərin müvafiq qurumları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;

Müvafiq beynəlxalq tədbirlərdə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasını təmsil edir və belə tədbirlərin Azərbaycan Respublikasında keçirilməsini təmin edir.

Atatürk Mərkəzində dil, ədəbiyyat və mədəniyyət, ictimai-siyasi və beynəlxalq münasibətlər şöbələri və redaksiya fəaliyyət göstərir. Hər bir şöbənin funksiyasına görə, mərkəzin əhatə dairəsinə əsasən informasiyalar, analitik informasiyalar çap etmək, dil, ədəbiyyat, tarix, siyasi-ideoloji və digər uyğun məsələlər daxildir. Ümumi təfsiri belə vermək mümkündür:

Dil, ədəbiyyat və mədəniyyət şöbəsi Atatürk İrsini, Türkiyə Cümhuriyyətinin, ümumən türk xalqlarının dil, ədəbiyyat və mədəniyyətinin, elm və təhsilinin araşdırılmasını təmin edir.

İctimai-siyasi şöbə Türkiyə Cümhuriyyəti və türksoylu xalqların tarixi, içtimai fikri, dövlətçilik ənənələri və ictimai-siyasi həyatının öyənir, türksoylu xalqların ictimai fikir tarixində Atatürk irsinin rolunun müəyyənləşdirilməsi ilə bağlı tədqiqatlar aparır və bunu təbliğ edir.

Beynəlxalq əlaqələr şöbəsi Atatürkün Türkiyənin və türksoylu xalqların tarixindəki yerinin öyrənilməsi və təbliğ olunması, türk respublikaları, muxtar respublikaları və topluluqlarında fəaliyyət göstərən analoji qurumlarla mərkəzin qarşılıqlı faydalı əməkDaşlığının qurulması kimi məsələləri əhatə edir.

Redaksiya isə elmi əməkdaşları tərəfindən hazırlanmış kitabların, mərkəzin rüblük orqanı olan «Bülleten»in nəşrini təşkil etmək və yaymaq, mərkəzin təbliği ilə əlaqədar informasiyaların toplanması və sistemləşdirilməsi işi ilə məşğul olur, mətbuat xidmətinin funksiyalarını həyata keçirir.

Mərkəzdə şöbə və əməkdaşların elmi, ictimai fəaliyyəti elə qurulmuşdur ki, burada «elmimiz də dövlətçiliyimizə xidmət etməlidir» tezisi hakim düşüncəyə çevrilmişdir. Prof.

dr. Nizami Cəfərovun təbirincə desək, mərkəzimiz bir ideya, fikir müşaviri kimi dövlətçiliyimizə lazım olan köməyi göstərməlidir və göstərir də.

Məlum həqiqətdir ki, Azərbaycanın müasir dövlətçilik ideologiyasını ümummilli lider Heydər Əliyev müəyyənləşdirmişdir və indi bu ideologiya Prezident İlham Əliyev tərəfindən yeni dinamika ilə davam etdirilir. Müasir dünya daha genişmiqyaslı, ictimai-siyasi proseslər daha çox dəyişkəndir. Dünyada ideyalar, siyasi proseslər, məqsədlər, münasibətlər də müxtəlifdir. Bu baxımdan, mənbəyi Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideologiyası olan elmi-ideoloji mərkəz kimi fəaliyyətimiz Türkçülük, Atatürkçülük, Azərbaycançılıq prinsipləri miqyasında geniş (həm də konkret) əhatə dairəsinə malikdir.

Bakıda Atatürkün evi

Atatürk Mərkəzinin yerləşdiyi bina qədim tikilidir və Atatürkün adını əbədiləşdirir. Tarixin, talenin işidir ümummilli lider Heydər Əliyev Ataktürk Mərkəzini yaratdı, prinsiplərini müəyyənləşdirdi, açılış mərasimini isə onun varisi İlham Əliyev gerçəkləşdirdi. Bu, həm də o deməkdir ki, Atatürk Mərkəzinin - «Atatürkün evi»nin Bakıda yaradılması və fəaliyyətə başlaması hər iki böyük şəxsiyyətin adı ilə bağlıdır.

Azərbaycanda Atatürk Mərkəzinin təntənəli açılış mərasimi 2004-cü il aprelin 10-da olmuşdur. Ölkəmizin həyatında əlamətdar hadisə kimi yadda qalan tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin və Azərbaycanın dövlət, hökumət nümayəndələri, xarici qonaqlar, türkdilli ölkələrin Bakıdakı səfirləri iştirak etmişlər.

Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə təntənəli açılış mərasimi göstərdi ki, mərkəzin yaradılması ideyası, fəaliyyəti türkçülük amallarına nəzərən türk dünyasının birliyi istiqamətində atılmış mühüm addımdır.

Azərbaycan Prezidenti İlham Əliyev Atatürkə sayğılarını ifadə edərkən müasir Türkiyəni onun tarixi əsəri adlandırmış-

dır: «***Mustafa Kamal Atatürk Türk dünyasının ən görkəmli şəxsiyyətlərindən biridir. Böyük dövlət xadimi, siyasi xadimdir. Onun Türkiyə qarşısında, bütün türk dünyası qarşısında misilsiz xidmətləri olmuşdur. Ən böyük xidməti isə Türkiyə Cumhuriyyətini yaratmasıdır. Müasir Türkiyə Mustafa Kamal Atatürkün əsəridir. Necə ki, müasir Azərbaycan Heydər Əliyevin əsəridir».***

Ölkələrimiz arasındakı siyasi, iqtisadi, mədəni əlaqələrin bugünkü səviyyəsi deməyə əsas verir ki, Heydər Əliyev Atatürkün tarixi, mədəni irsinin öyrənilməsinin Azərbaycanda dövlət quruculuğu üçün əhəmiyyətini duyaraq ölkəmizdə belə bir mərkəzin olmasını milli təəssübkeşlik hissindən çıxış edərək irəli sürmüşdür. İdeya gerçəkləşənə qədər də milli öndər müxtəlif məqamlarda Atatürk haqqında özünün çox maraqlı, dəqiq və aydın mülahizələrini söyləmişdir. Bu, Azərbaycanın milli dövlətçilik tarixində artıq bərkimiş ana ideologiyada türkoloji mühitin meydanının genişlənməsi kimi nəzərdə saxlanılmalıdır.

Mərkəzin açılışında Azərbaycan Prezidenti İlham Əliyev türk dünyasının dövlətləri arasında əlaqələrin inkişafı, ölkəmizdə Atatürk təcrübəsinin öyrənilməsinin zəruriliyi barədə fikirlərini söyləmişdir. Mərkəzə qayğı məsələsinə gəldikdə isə, ümümən türk xalqlarının daha da yaxınlaşması siyasətində bu gün Heydər Əliyevsizlik duyğusu olsa da, onun ideyalarının öz axarında həyata keçirilməsi Prezident İlham Əliyevin həmişə diqqətində olacaq bir xəttdir. Bu mənada, dövlətimizin başçısının türkdilli ölkələrə – Qazaxıstana, Özbəkistana, Türkiyəyə xüsusi maraq doğuran səfərləri, əhatəli görüşləri Azərbaycanın türk dünyasında yerinin, nüfuzunun gələcəkdə də möhkəmlənməsi ilə bağlı çox böyük nəticələr verir. Hadisələr və çağdaş ideologiya diqtə edir ki, müasir türk dünyasında gedən proseslər də qarşılıqlı surətdə öyrənilməlidir. Yəni millət öz öndərlərinin mübarizə təcrübəsindən bəhrələnməlidir. Çünki «bir millət, iki dövlət»in sevinci də, ağrıları da, mübarizə və yaşam yolları da eynidir. Xalqlarımız, dövlətlərimiz bir-birinin dayağıdır. Prezident

İlham Əliyevin dediyi kimi, ***«Azərbaycan müstəqil yaşayandan sonra biz hər zaman Türkiyənin dəstəyini hiss etmişik və ümummilli Liderimz Heydər Əliyevin bir kəlamını həmişə yadda saxlayırıq: Biz bir millət, iki dövlətik. Türkiyə harada, Azərbaycan orada, Azərbaycan harada, Türkiyə orada olmalıdır. Əminəm ki, bundan sonra belə olacaqdır. Bilirsiniz ki, Heydər Əliyev, eyni zamanda, Atatürk Beynəlxalq Sülh Mükafatı ilə təltif edilmişdir. Mən o mərasimi çox yaxşı xatırlayıram. O, orada böyük bir nitq söylədi və qeyd etdi ki, müxtəlif dövrlərdə çoxlu ordenlər, medallar, mükafatlar almışdır. Amma dedi ki, mənim üçün bu mükafat indiyə qədər aldığım bütün mükafatlardan qiymətlidir, doğmadır və əzizdir.Bu da təbiidir. Çünki Heydər Əliyev Atatürkün mədəni, tarixi irsinə həmişə sadiq olan bir şəxsiyyət idi və bugünkü Azərbaycan məhz bu yol ilə gedir».***

Ümumtürk məkanındakı çağdaş münasibətlərdən belə nəticə çıxarmaq daha düzgün olar ki, Prezident İlham Əliyevin dövlətçilik düşüncəsində türk dünyasının, xalqlarımızın hərtərəfli əlaqələrində, həmrəyliyində Atatürkün və Heydər Əliyevin təcrübələri əsasında zənginliyi təmin etmək missiyası da vardır. Və məhz bu xüsusiyyətə görə Azərbaycan Prezidenti siyasi fəaliyyəti ilə Türk dünyasının birliyi, sıx əməkdaşlığı uğrunda müqəddəs ideallara xidmət edir. Bu mənada, Prezidentimizin türk dünyasına, Qazaxıstana, Özbəkistana və Türkiyəyə çoxsaylı səfərləri, türkdilli dövlətlərin Azərbaycanın öndərliyi ilə həyata keçirilən transmilli layihələrdə iştiraka cəlb edilməsi məsələləri tam dolğunluğu, sistemliliyi ilə cəmiyyətin içində xüsusi maraq dairəsi yaradır.

Türk dövlətləri arasındakı münasibətlər zəngin, çoxçeşidlidir. Bunlar iqtisadi və mədəni şəkildə də təzahür edə bilər. Çox zaman türkdilli xalqlarm görüşündə müxtəlif respublikaların başçıları çəkinərək siyasi-ideoloji məsələləri yox, mədəni məsələləri müzakirəsini təklif etmişlər. Amma Heydər Əliyevin düşüncəsinə görə, türk xalqları arasındakı əlaqələr təkcə mədəni, iqtisadi məsələləri deyil, həm də

ictimai-siyasi, məsələləri əhatə etməlidir. Bu düşüncəni Prezident İlham Əliyev öz siyasətinin prioritetinə çevirmişdir.

Cəmiyyətin intellektual, ziyalı hissəsi dövlətimizin siyasətini, müstəqillik və inkişaf uğrunda mübarizəsini, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ənənələrini təbliğ etmək, Azərbaycanın beynəlxalq aləmdə, eləcə də türk dünyasında yerini müəyyənləşdirmək yönümündə rəhbərinə öz köməyini göstərməlidir. Çünki dünyanın problemləri getdikcə qloballaşır, mədəniyyətlər bir-birinə inteqrasiya olunur, bununla yanaşı, bütün sahələrdə rəqabətlər də artır.

Müasir siyasət onu öyrədir ki, biz bu proseslərdə dünya birliyinin üzvü kimi, Azərbaycanın təcrübəsinə uyğun olaraq iştirak etməliyik. Atatürk Mərkəzi də bir elm və mədəniyyət ocağı olaraq Azərbaycan dövlətinin rəhbərinin Türk dünüasının birliyinə, inkişafına yönəlik siyasətinin həyata keçirilməsində Heydər Əliyev ideyalarına daim sadiqlik nümayiş etdirir. Bu baxımdan, AMEA-nın müxbir üzvü, Atatürk Mərkəzinin müdiri, millət vəkili Nizami Cəfərov açılış mərasimində rəhbərlik etdiyi qurumun fəaliyyətinin nə qədər məsuliyyət tələb etdiyini önə çəkərək demişdir: ***«Atatürkü öyrənmək yalnız türk dünyasının, ümumən dünyanın dahi siyasi xadimlərindən birinin tarixi xidmətlərini şükranlıqla xatırlamaq ehtiyacının nəticəsi deyil, eyni zamanda, müstəqil dövlət quran türkdilli ölkələr üçün böyük siyasi ideoloji təcrübə verir.***

Atatürk Mərkəzinin açılması Azərbaycan dövlətinin qurucusunun çox böyük arzularından biri idi. Amma biz əsas bu işi görəcəyik ki, bu arzulara sadiq olacağıq və bizim böyük rəhbərimiz, milli liderimiz necə buyurmuşsa, onu yerinə yetirməyə çalışağcağıq».

Mərasimdə iştirak edən Türkiyənin o vaxtkı dövlət naziri Bəşir Atalay da öz çıxışında belə bir mərkəzin yaradılmasını Heydər Əliyevin Atatürkə, Türkiyəyə, ümumən Türk dünyasına doğma münasibətinin ifadəsi olduğunu vurğulamış, qurumun Azərbaycan və Türkiyə xalqları arsında dostluğu, qardaşlığı daha da möhkəmləndirən bir körpü rolunu oynayacağını bildirmişdir: ***«Atatürk Mərkəzi Azərbaycan və Türkiyə xalqları arasındakı köklü qardaşlıq tellərinin çox gö-***

zəl bir nümunəsidir və inanıram ki, bu, aramızda yeni bir körpü olacaqdır. Onun Atatürkün düşüncə sisteminin Azərbaycanda və türk dünyasında daha dərindən anlaşılmasına da xidmət göstərəcəyinə inanıram».

Atatürk Yüksək Qurumunun başqanı Sadıq Turalın çıxışında da ulu öndər Heydər Əiyevin türkçülüyə böyük xidmətləri şükranlıqla xatırlanmış, mərkəzin yaradılması qərarını Prezident İlham Əliyevin şəxsində bütün türklərə böyük əmanət adlandırılmışdır: ***«Azərbaycanın mərhum prezidenti Atatürk irsini gözəl bilən, təbliğ edən ən dəyərli dövlət adamı idi. Onun Nizami Cəfərov kimi bir alimi bu mərkəzə müdir təyin etməsi, bu binanı seçməsi və cənab İlham Əliyevə belə bir böyük əmanət verməsi bizi çox sevindirir. Biz onu rəhmət və minnətdarlıqla anırıq. Atatürk Mərkəzi sadəcə, azərbaycanlıların deyil, hamımızındır»,***

Atatürk Mərkəzinin rəhbərinin düşüncəsinə görə, daha bir mühüm vəzifə Azərbaycanda müstəqil dövlət quruculuğu prosesini Türkiyə təcrübəsi ilə müqayisəli öyrənməkdir. Və bu bir devizdir – Tarix nümunə təcrübə götürməkdən ötrüdür.

Atatürk irsi, Türk dünyasının tarixi və mədəniyyəti yayınlarda

2001-ci ildən bu yana, əsasnaməsi təsdiq olunduqdan sonra mərkəz kifayət qədər məhsuldar fəaliyyətə başladı. Bu məhsuldarlığın miqyasını xarakterizə edən, cəmiyyətə göstərən tədbirlər, nəşrlər böyük bir ədəbiyyat siyahısından ibarətdir. Hazırda mərkəz Atatürk, atatürkçülük, türk xalqlarının ədəbiyyat və mədəniyyət nümunələrinin araşdırılması və yayınlanması işilə, keçirdiyi elmi konfrans və simpoziumlarla öz vəzifəsini layiqincə həyata keçirməkdədir

AMEA-nın müxbir üzvü, millət vəkili, professor Nizami Cəfərovun rəhbərliyi ilə mərkəz öz fəaliyyəti dövründə türk dünyası və atatürkçülüklə bağlı cəmiyyətin ehtiyac duyduğu məsələləri həmişə diqqətdə saxlamışdır. Bu sahədə nəzərə-

çarpacaq elmi tədqiqatlar aparılmış, zəruri ədəbiyyatların nəşrini reallaşdırılmış və bu proses indi də davam etdirilir. Azərbaycan Türkiyə münasibətlərinə dair ayrı-ayrı nəşrlərin çapı Azərbaycan və Türkiyə oxucusu üçün yeni və təqdirəlayiq ədəbiyyatlardır.

Mərkəzin fəaliyyətinin digər göstəricisi və yayınlayıcısı olan «Azərbaycanda Atatürk Mərkəzi Bülleteni»ləri hər rüb ardıcıl olaraq nəşr olunmuşdur. Burada Mərkəzin özünün keçirdiyi və iştirak etdiyi çoxsaylı tədbirlər, görüşlər, konfranslar, müşavirələr, təqdimatlar, elmi əməkdaşların araşdırma mAterialları və digər uyğun yazılar əksini tapır. Bu baxımdan, Atatürk Mərkəzinin təşəbbüsü ilə keçirilən, yaxud mərkəz müdirinin, onun müavininin və kollektivin iştirak etdiyi tədbirləri də xüsusilə qeyd etmək yerinə düşər. Mərkəzin konfrans salonunda indiyədək 300-dən çox görüş, təqdimat, elmi konfrans və simpoziumlar keçirilmişdir ki, bunların əksəriyyəti bilavasitə prof. dr. Nizami Cəfərovun təşəbbüsü və təşkilatçılığı ilə baş tutmuşdur.

Hazırda Atatürk, onun silahdaşları, Türk dünyası tarixi, mədəniyyəti ilə əlaqədar, böyük şəxsiyyətlərimiz, dövlət qurucularımız haqqında yeni kitabların hazırlanması işi davam etdirilir. Bütün bunlar isə Azərbaycanda kütləvi oxucunu, həmçinin elmi ictimaiyyəti türkçülüyün, atatürkçülüyün müxtəlif aspektləri, bütün dünyada tanınan böyük türklərin həyat və fəaliyyəti ilə tanışlığa geniş imkan yaratmaqdır. Və əsas məqsədlərdən biri də odur ki, Azərbaycan cəmiyyəti tərkib hissəsi olduğu türk dünyasının şanlı dövllətçilik tarixini dərindən öyrənsin və xalqlarımızın böyük şəxsiyyətlərini tanısın, onlarla fəxr etsin.

Türk dünyasının böyük öndərləri Mustafa Kamal Atatürkün XX əsrin əvvəllərində, Heydər Əliyevin XX əsrin sonlarında dövlət qurmaq və onun bütövlüyünü, müstəqilliyini müdafiə etmək barədə ideyalarının tədqiqində mərkəzin müdiri prof. dr. Nizami Cəfərov o qədər konkret və orijinaldır ki, elmi, ictimai fəaliyyətində Azərbaycan və Türk dünyası təcrübəsində dövlət qurmağın fəlsəfi mahiyyəti, tarixi

proseslərin ana meylləri çeşidlənmiş olur. Alimin dəyərləndirmələrinə görə, müstəqil, inkişaf etmiş müasir Türkiyənin və yeni müstəqil Azərbaycanın timsalında Atatürkün və Heydər Əliyevin dövlətçilik təcrübələrinin paraleləri, ümumtipoloji cəhətləri çoxdur. Odur ki, Atatürk Mərkəzinin gördüyü ən mühüm işlərdən biri də bu aspekdə müqayisə texnologiyalarını hazırlamaqdır.

Beynəlxalq faliyyətin konturları

Azərbaycan dövləti olaraq, beynəlxalq əlaqələrimizdə Türk dünyası faktoruna da böyük önəm verilir. Türk dünyası və Türkiyənin timsalında münasibətlərimiz xalqlarımızın tarixi, etimoloji, mədəni-mənəvi birliyindən rişələnir və yeni çağda ümummilli lider Heydər Əliyevin «Biz bir millət, iki dövlətik» milli-ideoloji məzmunu böyük olan tarixi kəlamı anlamına və formasım almışdır.

Prezident İlham Əliyev tarixi bağlılığı möhkəm olan xalqlarımızın çağdaş əlaqələrinə milli aspektdən, Heydər Əliyev kursuna sədaqət nümayiş etdirrməklə, Türk dünyasına diqqətin milli, ideoloji konturlarını müəyyənləşdirmişdir: ***«Biz ümumi kökləri olan bir xalqıq, bir dilimiz, bir dinimiz var. Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər həmişə dostluq və qardaşlıq kimi səciyyələndirilmişdir. Əsrlər boyu bizi ayırmaq istəsələr də, bu cəhdlər nəticə verməmişdir. İndi də heç bir qüvvə bizi ayırmaq iqtidarında deyil. Azərbaycanın dost və qardaş münasibətinə daha böyük ehtiyacı var».***

Bu yanaşma bir qədər geniş, həm də konkret anlamda Prezident İlham Əliyevin Türkiyə ilə birlikdə türk dünyasına, türk xalqlarına, ümumi etnik-mədəni dəyərlərimizə doğma münasibətidir. Və dövlətimizin başçısının bu kimi baxışları Atatürk Mərkəzinin beynəlxalq fəaliyyətinin ideya-istiqamətində mühüm şərt olaraq götürülür.

Fəaliyyət göstərdiyi müddət ərzində Atatürk Mərkəzi Azərbaycanın, Türkiyənin, Türk dünyasının əsas Atatürk mərkəzləri, elmi, mədəni qurumlarla səmərəli əməkdaşlıq

qurmuş və hazırda özünün beynəlxalq əlaqələrinin miqyasını daha da genişləndirməyə çalışmışdır. Ötən 10 il ərzində prof. dr. Nizami Cəfərovun təmsilçiliyi ilə mərkəzin beynəlxalq tədbirlərdə, konfranslarda iştirakını xüsusilə əhəmiyyət daşıyan məsələlər sırasında qeyd etmək lazımdır.

Bu kimi tədbirlərdə prof. dr. Nizami Cəfərov mərkəzi layiqincə təmsil etmiş, nəticə olaraq bir sıra beynəlxalq səviyyəli qurumlarla ikitərəfli əməkdaşlıq və elmi tədqiqat işlərinin mübadiləsində anlaşma əldə olunmuşdur.

Bu gün, elə sonrakı dövrlər üçün də Atatürk Mərkəzinin perspektivə nəzərdə tutduğu, dəqiqliklə əməl etdiyi digər doğal prioritet istiqamət də aydın və birmənaladır – Azərbaycan Prezidenti İlham Əliyevin Türk dünyasında qarşılıqlı əlaqələrin yaradılması və zənginləşməsi sahəsində xidmətlərini işıqlandırmaq, bu sahədə digər türk respublikalarında aparılan işləri araşdırmaq. Cəmiyyətə bəllidir ki, Heydər Əliyevin Türk dünyasının birliyi, qardaşlığı ideyasım davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti ali məqsədlərə xidmət edir. Və Türk dünyasının müasir liderlərindən biri olmaq şərəfini qazanmış şəxsiyyətlərdəndir. Bu mənada, Nizami Cəfərovun Atatürk Mərkəzində həyata keçirdiyi siyasət və bu siyasi düşüncədən irəli gələn əsas prinsip belədir - mərkəz Azərbaycan dövlətinin siyasətini, müstəqillik uğrunda mübarizəsini, Heydər Əliyevin yaratdığı ənənələri təbliğ etməli, Azərbaycanın türk dünyasında nüfuzunun yüksəldilməsi işində öz köməyini göstərməlidir. Və şübhəsiz göstərir də...

Osman MUSAYEV,
Dəyanət OSMANLI,
Altay CƏFƏROV

TÜRKÜN BÖYÜK OĞLU

Uzun illər qovuşmağının həsrətində olduğumuz Azərbaycanın da həqiqi müstəqilliyi tək bir adamın adı ilə bağlıdır – böyük Heydər Əliyevin. Xoş və gözəl bir təsadüfün nəticəsidir ki, Heydər Əliyev canı qədər sevdiyi Türkiyənin quruluş tarixinin yaşıdıdır.

Özünün İstanbul səfərlərindən birində söylədiyi nitqində dəyərli Heydər Əliyev Qazi Mustafa Kamalın Türkiyə üçün önəmini belə açıqlamışdı: "Bu cümhuriyyəti yaradan, onun banisi, qurucusu, böyük öndər Mustafa Kamal Atatürkün xidmətləri bu gün hər kəsin gözləri önünə gəlir. O, hər kəsin ürəyindədir. Onun zəkası, iradəsi, uzaqgörənliyi ilə 1923-cü ildə Türkiyə Cümhuriyyəti yarandı. Biz bu tarixə, bu xidmətlərə sizin kimi həmişə minnətdarıq və sona qədər, ömür boyu minnətdar olacağıq". Türkiyə ictimaiyyəti qarşısında tarixin və qalib bir millətin güvən duyğularının riqqətə gəldiyi azman şəxsiyyət haqqında çağdaş dünya siyasətinin ən ünlü, aparıcı şəxslərindən birinin səmimi etiraflarını sevgi ilə qarşıladı. Zatən biz də Heydər Əliyevi Türk dünyasının lideri kimi qəbul etmişik.

Mən bir qələm əhli və siyasətə yaxın adam kimi tez-tez bu iki tarixi şəxsiyyətin taleyi və Tanrı tərəfindən vəzifələndirildiyi missiya arasında paralellər aparmışam. Oxşarlıqlar qayət dürüst və çoxdur. Ötən yüzilin əvvəlində Osmanlı Türkiyəsini ətrafındakı tamah dişini qıcayan dövlətlərin irticasından xilas edərək kəndi istiqlal və istiqrarını haqq etmiş layiq bir dövlətə çevirən Atatürk və həmin yüzilin sonunda qardaş Azərbaycanı müharibə və məhrumiyyətlər girdabından

əfsanəvi Simurq quşu kimi alaraq müstəqilliyinə yetirən Heydər Əliyev.

O, nəhəng bir yazıçı kimi ölkəsinin bugununü yazmış, istedadlı fırça ustası tək millətinin gələcəyini doğru-dürüst cizmişdir. Zati-aliləri möhtərəm İlham Əliyev doğru buyurmuşdur ki, müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Bəli, müstəqilliyi dəftər-kitabda qazanmaq şərt deyil. Əsas məsələ onu dönməz prosesə çevirmək, bu ağacın yetirdiyi şirin meyvədən hər bir azərbaycanlının barınmasını mümkün etmək, vətəndaşı olduğun ölkə üçün bir qürur mənbəyinə çevirməkdir. Ulu öndər bunu bacardı. Böyük keçmişi olan bir türk dövlətinin çağdaş tarixinə öz möhürünü basdı. Azərbaycanı yeni dünyanın – Qərb demokratik dəyərləri və Şərqin vazkeçilməz əxlaq qaydalarının hakim olduğu bir dünyanın ən öncül, qüdrətli və perspektivli müsəlman ölkələrindən birinə çevirdi.

Mən Heydər Əliyevlə şəxsi tanışlıq və dostluq payını bölüşən xoşbəxt insanlardanam və bu şərəfin qürurunu ömrüm boyu daşıyacağam. 1998-ci il oktyabrın 30-da İstanbulun "Hilton" hotelində vəqfimizin düzənləmiş olduğu "Bakı-Ceyhan boru xətti" konfransına dəvətimizi qəbul edən ulu öndər möhtəşəm bir çıxış etdi. Konfransda Türkiyənin ünlü siyasətçiləri, iş adamları, nazirlər, millət vəkilləri iştirak edirdilər. Zati-aliləri özünün natiqlik istedadı, mükəmməl və dərin incələmək qabiliyyəti, şəxsi harizması, auditoriyanı duymaq və inandırmaq bacarığı ilə bütün məclis əhlini heyran etdi. Qarşımızda sovet-kommunist idarəçiliyi dönəmində dövlətçilik təcrübəsi ilə Kremlin zirvəsinə ucalmağı bacarmış canlı əfsanə, Türkün fəxri danışırdı.

Həmin tarixi gündə – "Hilton" hotelinin ali qonaqlar salonunda tədbirdən məmnun qaldığı sezilən Heydər Əliyev mənə xitabən – Əziz dostum, -söylədi və vəqfimizin heyətinə müraciətlə: -Mərmərə Qrupu mənim şəxsimdə öz dostunu qəbul edə bilər, - dedi. Türk dünyasınm bunca böyük bir oğlunu özümüzə dost qəbul etməkdən bəxtiyar dünyada nə ola

bilərdi ki?! Həmin görüş sonrası zati-aliləri - Məni də bu vəqfə üzv qəbul edin, - deyə, buyurdu. Vəqfimizin rəyasət heyəti onu böyük sevgi ilə özünün Şərəf başqanı seçdi. Həmin tarixi gündən sonra biz hər il Mərmərə Qrupunun fəaliyyəti ilə bağlı dəyərli başqanımıza hüzurlarında hesabat verirdik. Onun əməyimizə qoyduğu qiymətin bizlər üçün çox böyük önəm və dəyəri vardı: "Mən Mərmərə Qrupu Vəqfinin fəaliyyətindən çox razıyam. Gördüyünüz işləri çox yüksək qiymətləndirirəm. Güman edirəm ki, bundan sonra daha böyük işlər görəcəksiniz. Arzu edirəm ki, vəqfiniz Türkiyə ilə Azərbaycanın dostluq və qardaşlıq əlaqələrinin inkişafına yeni-yeni töhfələr versin. Mən vəqfinizin fəxri sədri olmağımdan iftixar duyuram". Hər görüş sonrası aldığımız bu cür dəyər, qədir və vəfa payı bizləri yeni üfüqlərə daşıyırdı.

Vəqfimizin idarə heyətinin qərarı ilə 10 iyul 1999-cu ildə Heydər Əlirzaoğlu "Günümüzün ən tolerantlı adamı", 29 mart 2001-ci ildə isə "XX əsrin Dövlət adamı" mükafatına layiq görülmüşdü.

Ulu öndər Heydər Əliyev Türk dünyasının sevdalısı, vurğunu idi. Bütün türkdilli xalqların eyni mədəni-mənəvi çətir altında bir araya gəlməsini alqışlayırdı. Bu yöndən hər il düzənlədiyimiz Avrasiya iqtisadi zirvələrinə göstərdiyi həssas münasibət və ilgi tam başadüşülən və təbii idi. O bizi heç vaxt yaddan çıxarmaz, yola saldığı yüksək heyətlə öz xeyir-dualarım da məktub şəklində ərməğan edərdi. Heydər Əlirzaoğlu Qərbə nə qədər yaxın olsa, Avropa dəyərlərinə inteqrasiyanı milləti üçün həyati zərurət hesab etsə də, bütün ruhu ilə dərk edirdi ki, Azərbaycanın istiqbal və irəliləyişi qan qardaşlarının yanındadır.

Daha bir tarixi paralel gətirmək istərdim. Avqust ayı tarix boyu türklər üçün taleyüklü qərarların qəbul edildiyi bir ay olmuşdur. 1071-ci ilin avqustunda Anadoluya qədəm qoyan türklər 1922-ci ilin avqustunda onu qan içində çalxamağa can atan düşmənlərini qovub Anadoludan çıxartdı. 1928-ci ilin 9 avqust günü böyük Atatürk İstanbulun Gülhanə parkında keçirilən bir tədbir zamanı millətə xitab edərək ərəb əlifbasından latına

keçməyin zərurətini anlatmış və bunu bir vəzifə olaraq tapşırmışdı: "Arkadaşlar, bizim ahəngli, gözəl, zəngin dilimiz yeni türk hərfləri ilə özünü göstərəcəkdir. Yeni əlifbanı sürətlə öyrənin!" Beş il bundan əvvəl Azərbaycan türkləri latın əlifbasını rəsmən qəbul etdilər. Bu, ulu öndər Heydər Əliyevin israrı və əzmi sayəsində gerçəkləşdi. Atatürkün 73 il əvvəl İstanbulda uzaqgörənliklə söylədikləri Heydər Əliyevin 2001-ci il avqustun 9-da həmvətənlərinə xitabən dedikləri ilə necə də səsləşir: "Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qovuşması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi".

Azərbaycana latın əlifbasını gətirən ulu öndər Heydər Əliyev bununla bütün türk dövlətləri məkanına ortaq ünsiyyət, ortaq mədəni-mənəvi yüksəliş bəxş etmişdir. Biz bunu çox yüksək dəyərləndiririk. Zira, türk soyluların anlaşa bilməsi üçün ortaq əlifbanın mövcudluğu mühüm şərtdir. Beləliklə, latın əlifbasını öz hüquqlarında bərpa etməklə nəinki Azərbaycan xalqı, eləcə də bütün türkdilli xalqların mədəni tarixində hadisə yaratmış Heydər Əliyevin misilsiz xidmətlərini nəzərə alan Mərmərə Qrupu Vəqfi 2002-ci ilin iyun ayında azərbaycanlı deputatların da qatılmış olduğu bir toplantı düzənləyərək Azərbaycana və türk dünyasına bacarıqla rəhbərlik etdiyinə görə ilin "Baş Müəllim Atatürk" ödülünü Azərbaycanın böyük övladı, türk dünyasının fəxri, möhtərəm Heydər Əliyevə təqdim etmək barədə yekdil qərar çıxardı. Həmin mükafatı Bakıda - kəndi məqamında dəyərli cümhurbaşqanına təqdim etdik. O, mükafatımızın çox böyük mənəvi dəyəri olduğunu, rəsminin Atatürklə birgə verildiyindən çox böyük qürur duyduğunu dilə gətirdi: "Siz mənə "Baş Müəllim Atatürk" mükafatını verdiniz. Bu, böyük bir mükafatdır. Siz bilirsiniz ki, mən Atatürk adına Beynəlxalq Sülh Mükafatı laureatıyam. Mən bunu məmnuniyyətlə qəbul edirəm, çünki Atatürkün ideyalarını yaymaq, təbliğ etmək və xalqımıza çatdırmaq, həm də bu ideyalardan faydalanmaq, istifadə etmək sahəsində çox işlər görmüşəmETəqdim etdiyiniz hədiyyə də çox

qiymətlidir. O mənada ki, siz Azərbaycanın cümhurbaşqanı kimi məni Atatürklə bir yerdə təsvir edibsiniz".

Türkiyə-Azərbaycan dostluq və qardaşlığının ən qururverici səhifələrinin müəllifi Heydər Əliyevdir. O, iki ölkə arasındakı ən çeşidli münasibətlərin gəlişməsində bir insanın ömrünə və qüvvəsinə yetəcəyindən də artıq iş gördü. O, Türkiyəyə məhəbbətini gizlətmirdi: "Dünya da bilir, qoy hamı da bilsin – Türkiyə Azərbaycan üçün ən yaxın ölkədir, türk xalqı ilə Azərbaycan xalqı arasında dostluq, qardaşlıq əlaqələri böyük, zəngin tarixə malikdir. Bu gün bir daha bəyan edirəm ki, bu dostluğumuz əbədidir, sarsılmazdır". O, "bir millət, iki dövlət" tezisini fəlsəfi siqlətlə zənginləşdirərək ölkəsinin xarici siyasətinin ana xəttinə çevirdi. Türkiyə-Azərbaycan siyasi-diplomatik və iqtisadi-mədəni əməkdaşlığı özünün çağdaş səviyyəsinə görə əbədi liderimizə borcludur. Çünki həmin münasibətlərin qarşılıqh fayda və maraqlardan dolayı əsas və mən deyərdim, taleyüklü bağlarım – mənəvi tellərini məhz Heydər Əliyev yaratdı.

Böyük təcrübəsi, iradəsi, qətiyyəti, sülhsevərliyi, xalqına, millətinə, Yer üzünün bütün insanlarına, türkçülüyə, türk tarixinə və mədəniyyətinə sevgisi və vətəncanlığı Heydər Əliyevi fərqləndirən və bütün dəyərlərin fövqünə ucaldan özgün məziyyətlərindən idi.

Heydər Əliyev xəyalları gerçəyə çevirən lider idi. Memarı olduğu Bakı-Ceyhanı əfsanədən reallığa çevirməyi bacardı. Dünyanın bir çox güclü dövlətlərinin köklü maraqlarının kəsişdiyi bu layihə Azərbaycan üçün çox mühüm geosiyasi və geoiqtisadi faktora çevrildi. Əbədi liderimiz bunu görürdü və elə məhz bu cür də düşünüb qurmuşdu. O bilirdi ki, qara neft Azərbaycana, xalqına ağ günlər yaşadacaq, ölkəsini nəinki Türk aləminin, bütövlükdə dünya birliyinin öncülləri sırasına çıxaracaqdır.

Üç ildir ki, dünya öz varlığını Heydər Əliyevsiz yaşadır. O millət xoşbəxtdir ki, onun övladları tarix kitablarını vərəqləyərkən bu cür fövqəlinsanın, vətənkeş dövlət xadiminin canıbir, qanıbir azərbaycanlısı olduğunu öyrənəcək və bundan intəhasız qürur duyacaq. Nə mutlu ki, belə bir qürur və iftixardan bizlərə də pay

düşür. Çünki Heydər Əliyev tək azəri türklərinin deyil, – "mən türkəm" iftixarını bölüşən hər bir türkün, bütün Türk dünyasının mənəvi mirasıdır. O, qosqoca tarixin hələ də azman şəxsiyyətlər yetirməyə qadir olduğunu öz varlığı ilə isbatlayan nadir dühalardan biri idi.

Hər bir insanın qəlbində ən həzin xatirələrinin uyuyub ünvan tapdığı bir hücrə var. Ürəyimi isidən, şirin duyğularımı hər yada düşdükcə çalxalayan, köksümü qabardan həmin xatirələrin bir qismi də Türk dünyasının iftixarı və həmişəyaşar möcüzəsi sayılan Heydər Əliyevlə bağlıdır.

O öz gedişi ilə kainatın müvazinətini pozmağa qadir seçilmiş insanlardan idi. Bu gün qəlbimizdə dərin şırımlar açmış həmin yoxluğun tək təşnəsi onun siyasi və mənəvi irsini dəyanətlə sürdürən dəyərli cümhurbaşqanı İlham Əliyevdir. O, layiqli övlad olduğunu mahir siyasətçi, məharətli diplomat, təcrübəli iqtisadçı, vətənini, torpağını, millətini ulu öndərimiz qədər sevən layiqli dövlət başçısı olmağı ilə sübut etməkdədir.

Bəli, bu gün Azərbaycansevərlər, Heydər Əliyevisevərlər rahat nəfəs ala bilərlər; iki qitənin – Avropa ilə Asiyanın qovuşuğunda pərvəriş tapmış bu şanslı ölkənin sükanı etibarlı və qüvvətli əllərdədir. Zati-aliləri cənab İlham Əliyev Azərbaycanı və azərbaycanlıları unudulmaz Heydər Əliyevin hüdudlarını cizdiyi üfüqlərə çatdıracaqdır.

Akkan SUVER,
Türkiyə, Mərmərə Qrupu
Vəqfinin başqanı

PREZİDENT İLHAM ƏLİYEVİN TÜRK DÖVLƏTLƏRİ ARASINDA BİRLƏŞDİRİCİLİK MİSSİYASININ TÜRK DÜNYASI ÜÇÜN FAYDASI BÖYÜKDÜR

Ötən əsrin sonlarına doğru müstəqil dövlətçiliyini bərpa etmiş Azərbaycan Respublikası eyni tarixi kökə, dinə, dil qrupuna, oxşar mental dəyərlərə malik xalqlarla münasibətlərini tamamilə yeni müstəvidə qurmaq imkanı əldə etmişdir. Respublikamız bu gün bütövlükdə türkdilli xalqlara məxsus ortaq dəyərlərin, müsbət ənənələrin daşıyıcısı olaraq, onların vahid məqsəd və ideyalar ətrafında konsolidasiyasını gerçəkləşdirmək əzmi nümayiş etdirir. Bütün mənalı həyatı boyu türkdilli xalqların qədim tarixi keçmişinin, milli-mənəvi dəyərlər sisteminin müdafiəsində dayanmış ümummilli liderimiz Heydər Əliyevin layiqli siyasi davamçısı – Azərbaycan Prezidenti cənab İlham Əliyevin ötən üç illik fəaliyyəti bu baxımdan diqqəti xüsusi cəlb edir.

Prezident İlham Əliyevin milli ideologiya və milli-mənəvi dəyərlər probleminə dair baxışları onun siyasi portretinin əsas cizgilərindəndir. Dövlət başçısının üç il müddətində bununla bağlı irəli sürdüyü prinsiplər, müəyyənləşdirdiyi strateji xətt, atdığı konkret addımlar onun Azərbaycanı türk dünyasının konsolidasiya və əməkdaşlıq mərkəzinə çevirmək üçün əzmkar fəaliyyət göstərdiyinin əyani təsdiqidir. Prezident İlham Əliyevin bu sahədəki xidmətlərinin yalnız ümümtürk dəyərlərinə – mədəniyyətinə, ədəbiyyatına, folkloruna, incəsənətinə yüksək qayğı, diqqət nümunəsi kimi dəyərləndirilməsi bu fəaliyyətin gerçək miqyası üçün kifayət qədər dar çərçivədir. Görülən bu işlər, sadəcə, qayğı və diqqət nümunəsi olmaqla məhdudlaşa bilməz – bütün bunlar ulularımızdan bizə gəlib çatan müqəddəs irsin göz bəbəyi tək qorunaraq gələcək nəsillərə əmanət

edilməsi, azərbaycançılıq və türkçülük məfkurəsinin, əxlaqının, baxışlar sisteminin bütün dünyada təbliği, qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın mühüm tərkib hissəsidir.

Bu baxımdan 2006-cı ilin sentyabr ayında Ankarada keçirilən Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı Prezident İlham Əliyevin türk dövlətləri arasında birləşdiricilik missiyası həyata keçirən və bu sahədə böyük uğurlar qazanan lider olduğunu bir daha təsdiqləmişdir. Dövlət başçısı Azərbaycanda müşahidə olunan iqtisadi inkişaf prosesinin, həyata keçirilən qlobal enerji layihələrinin bütövlükdə türk dünyasının mənafeyinə xidmət etdiyini həmin toplantıda bir daha önə çəkmişdir: **«Bu gün Azərbaycanda baş verən proseslər, Azərbaycanın həyata keçirdiyi böyük, nəhəng layihələr öz növbəsində bütün türk dünyasma, onun möhkəmlənməsinə töhfəsini verir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri dünyada və təbii ki, bizim bölgədə vəziyyəti tam dəyişdirmişdir. Bu layihələr bölgənin uzunmüddətli inkişaf strategiyasmı müəyyən edəcəkdir. Bizim həm iqtisadi, həm də siyasi mövqelərimizi möhkəmləndirəcək və artıq bunu görürük. Azərbaycanı və Türkiyəni birləşdirən yollar, enerji dəhlizləri, Qars-Tbilisi-Ceyhan dəmir yolu layihəsinin həyata keçirilməsi dünyada tamamilə yeni bir vəziyyət yaradacaqdır. Biz bundan çox səmərəli şəkildə istifadə etməliyik».**

Hazırda Azərbaycan inkişafının elə yüksək mərhələsindədir ki, respublikamızın bütün həyati əhəmiyyətli sahələrdə qazandığı uğurlar bütövlükdə türk dünyasının tərəqqisinə böyük töhfədir. Cənubi Qafqazda həyata keçirilfən qlobal enerji və kommunikasiya layihələrinin lokomotivi qismində çıxış edən Azərbaycan dünyada kifayət qədər tanınsa da, bu sahədə hələ çox iş görülməli, erməni lobbisinin, bütövlükdə anti-azərbaycançı şəbəkənin respublikamıza qarşı apardığı əks-təbliğatın qarşısı daha müasir, səmərəli vasitələrlə alınmalıdır. Tarixən erməni lobbisinin yalan və iftira üzərində qurulmuş çirkin

təbliğat kampaniyasından zərər çəkmiş türk dünyasının, xüsusilə Türkiyə və Azərbaycanın əməkdaşlığı həm də bu sahədə effektiv əks-hücumun təşkili baxımından zəruridir. Dövlət başçısı bu zərurəti hələ 2006-cı ilin 16 martında Bakıda keçirilmiş Dünya azərbaycanlılarının II qurultayında xüsusi önə çəkmişdir. Azərbaycana strateji müttəfiq olan Türkiyə ilə diaspor quruculuğu və lobbiçilik sahəsində fəaliyyətin əlaqələndirilməsi də həmin qurultayın yaddaqalan və vacib qərarlarındandır.

Qurultayın qətnaməsində də vurğulandığı kimi, tarixən bir-birinə qırılmaz tellərlə bağlı olan xalqlarımız çətin məqamlarda çiyin-çiyinə verərək, qardaş köməyini bir-birindən əsirgəməmişlər. İki qardaş ölkənin diasporlarının fəaliyyətinin əlaqələndirilməsi ciddi uğurlara yol açaraq, xüsusilə Avropa Şurası çərçivəsində Ermənistanın ciddi diplomatik uğursuzluqlara duçar olmasına gətirib çıxarıb. Dünyadakı türk diaspor təşkilatları ilə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində müəyyən addımlar atılmış, Azərbaycan və türk diasporlarının eyni mövqedən çıxış etməsi, birgə aksiyalar keçirməsi təmin edilmişdir. Qurultayda bu sahədə aparılan işlərin davam etdirilməsi, birgə fəaliyyət strategiyasının hazırlanması üçün türk və Azərbaycan diaspor təşkilatlarının müştərək forumunun keçirilməsi də tövsiyə olunmuşdur. Dövlət başçısı cənab İlham Əliyev Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayındakı çıxışında həmin forumun gələn ilin birinci yarısında məhz Bakıda keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir. Forumun keçirilməsində məqsəd Türkiyə və Azərbaycan diasporlarının birgə fəaliyyətini bir daha təhlil edib onları istiqamətləndirməkdir.

"Türk Dünyası İnfo" Araşdırma

TÜRKDİLLİ XALQLAR ARASINDA ƏMƏKDAŞLIĞA TÖHFƏ

Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı ortaq türk keçmişindən ortaq türk gələcəyinə mənəvi körpü oldu.

Bəşər sivilizasiyasının qədim etnoslarından olan türklər tarixin ən çətin imtahanlarından, sınaqlarından daim üzüağ çıxmış, öz mövcudluğunu, milli varlıq və özünəməxsusluğunu hifz etmiş, dövlət qurmaq, müstəqil yaşamaq kimi halal haqqı uğrunda mərdliklə mücalidə aparmış, torpağını, qürurunu, namusunu hifz edərək müqəddəs bayrağını göylərə qaldırmışdır. Tarixin minilliklərlə ölçülən salnaməsinin hansı səhifəsini vərəqləsək, orada bir türk sərkərdəsinin, bir türk liderinin şərəfli ömür yolu parlaq ulduz tək parlayaraq qəlbimizi nura boyayacaq.

Çağdaş dünya nizamı tarixən din, dil, adət-ənənə, mədəniyyət ortaqlığı olan türk xalqlarının birliyini bu gün də obyektiv zərurət kimi önə çıxarır. Bu gün analoqu olmayan strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş Azərbaycan-Türkiyə münasibətləri bütövlükdə türk dünyasının vahid məram və məqsədlər ətrafında konsolidasiyasına layiqli töhfədir. Qədim köklərə bağlı bu əlaqələrin bütün sahələrdə sürətlə inkişafı Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Heydər Əliyevin isə "Biz bir millət, iki dövlətik" tezislərinin doğrulduğunu əminliklə söyləməyə əsas verir.

Türk dövlət və cəmiyyətlərinin Bakıda keçirilmiş XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı da mühüm nəticələrlə yadda qalmaqla, türkdilli xalqlar arasında çoxtərəfli əlaqələrin dərinləşdirilməsi, ümumilikdə, türk xalqlarının vahid məqsədlər uğrunda səfərbər olunmasına əlverişli imkanlar açır.

Ötən əsrin sonlarına doğru müstəqil dövlətçiliyini bərpa etmiş Azərbaycan Respublikası eyni tarixi kökə, dinə, dil qrupuna, oxşar mental dəyərlərə malik xalqlarla münasibətlərini tamamilə yeni müstəvidə qurmaq imkanı əldə etmişdir. Respublikamız bu gün bütövlükdə türkdilli xalqlara məxsus ortaq dəyərlərin, müsbət ənənələrin daşıyıcısı olaraq, onların vahid məqsəd və ideyalar ətrafında konsolidasiyasını gerçəkləşdirmək əzmi nümayiş etdirir. Bütün mənalı həyatı boyu türkdilli xalqların qədim tarixi keçmişinin, milli-mənəvi dəyərlər sisteminin müdafiəsində dayanmış ümummilli liderimiz Heydər Əliyevin layiqli siyasi davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyevin ötən fəaliyyəti bu baxımdan diqqəti xüsusi cəlb edir.

Cənab İlham Əliyevin milli ideologiya və milli-mənəvi dəyərlər probleminə dair baxışları onun siyasi portretinin əsas cizgilərindəndir. Dövlət başçısının son 4 il müddətində bununla bağlı irəli sürdüyü prinsiplər, müəyyənləşdirdiyi strateji xətt, atdığı konkret addımlar onun Azərbaycanı türk dünyasının konsolidasiya və əməkdaşlıq mərkəzinə çevirmək üçün əzmkar fəaliyyət göstərdiyinin əyani təsdiqidir.

Cənab İlham Əliyevin bu sahədəki xidmətlərinin yalnız ümumtürk dəyərlərinə – mədəniyyətinə, ədəbiyyatına, folkloruna, incəsənətinə yüksək qayğı, diqqət nümunəsi kimi dəyərləndirilməsi bu fəaliyyətin gerçək miqyası üçün kifayət qədər dar çərçivədir. Görülən bu işlər, sadəcə, qayğı və diqqət nümunəsi olmaqla məhdudlaşa bilməz – bütün bunlar ulularımızdan bizə gəlib çatan müqəddəs irsin göz bəbəyi tək qorunaraq gələcək nəsillərə əmanət edilməsi, azərbaycançılıq və türkçülük məfkurəsinin, əxlaqının, baxışlar sisteminin dünyada təbliği, qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın mühüm tərkib hissəsidir. Çağdaş dünya təcrübəsində tarixi-etnik köklərlə, eyni dil qrupu, ənənə və dəyərlərlə bir-birinə yaxın olan xalqların vahid ideya birliyi və həmrəyliyi ilə bağlı çoxsaylı nümunələr gətirmək mümkündür. Uzağa getməyək, elə MDB çərçivəsində slavyan xalqlarının tarixi köklərdən qaynaqlanan mənəvi yaxınlığı və

təəssübkeşlik hissi buna əyani sübutdur. Minilliklər boyu yol gəlməklə tarixin sərt dolanbaclarından üzüağ çıxmış, milli dövlət qurmaq, müstəqil yaşamaq haqlarını əzmlə qorumuş türkdilli xalqların ideya-mənəvi birliyini təmin edən amillər isə daha çoxdur. Təməl prinsipində Atatürkün "Yurdda sülh, cahanda sülh" tezisi dayanan türkçülük ideologiyası möhkəm ideoloji istinad nöqtəsi kimi daha geniş coğrafi ərazidə türkdilli xalqları bir-birinə daha sıx şəkildə bağlayır, onlarda milli kimlik şüurunu, həmrəylik, təəssübkeşlik hisslərini və duyğularını gücləndirir. Bu birlik və həmrəylik, eyni zamanda çoxqütblü əməkdaşlığın subregional inteqrasiya modelini - türkdilli dövlətlərin müxtəlif qlobal enerji və kommunikasiya layihələrinin gerçəkləşdirilməsi naminə birgə səy göstərməsini, geniş iqtisadi əlaqələr qurmasını təmin edir.

Azərbaycan Prezidenti İlham Əliyev ümumtürk birliyinin möhkəmləndirilməsi xəttini xarici siyasətdə mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirərək, təkcə Türkiyə ilə deyil, Orta Asiyanın türkdilli dövlətləri ilə münasibətləri gücləndirmək xəttinə üstünlük verir. Dövlət başçısının 2004-cü ildə Türkiyə ilə yanaşı, Qazaxıstan və Özbəkistana rəsmi səfərə getməsi, bütövlükdə türkdilli xalqlar arasında birliyin gücləndirilməsi tərəfdarı kimi çıxış etməsi bunu bir daha təsdiqləyir. Regionda fenomenal liderlik nümayiş etdirən cənab İlham Əliyev həm də türk dünyasınm seçilən, rəğbət bəslənilən nüfuzlu liderlərindən birinə çevrilmişdir.

Prezident İlham Əliyevin fəaliyyətini yaxından izləyənlər təsdiqləyə bilər ki, bu gün Azərbaycan türk dövlətlərinin inteqrasiyası prosesinin, sadəcə, iştirakçısı deyil, həm də ən fəal təşəbbüskarlarındandır. Rəsmi Bakı Avropa və ümumilikdə Qərb, habelə Rusiya ilə mövqeləri yaxınlaşdırmaqla bərabər, türk dünyasının mənəvi birliyinin siyasi təzahürünə nail olmaq, dünya qarşısına bütün cəhətlər üzrə daha üstün sivilizasiya ilə çıxmaq zərurətini diqqətdən kənarda qoymur.

Türkdilli respublikaların birliyi istiqamətində səylərin son illər daha da intensivləşdirilməsi bu qənaəti bir daha gücləndirir. Son illər regionda və dünyada cərəyan edən

siyasi-iqtisadi proseslər də türk xalqlarının birliyini aktual məsələ kimi gündəmə gətirir.

Türkdilli xalqların bu və digər məsələlərdə əməkdaşlıq etməsini şərtləndirən mühüm amillərdən biri də onların əlverişli coğrafi məkanda yerləşmələri, ümumdünya əhəmiyyətli enerji və kommunikasiya imkanlarına malik olmalarıdır. Dünya siyasətinə getdikcə artan təsir imkanları ilə türkdilli dövlətlərin önündə dayanmaq imkanı qazanmış Azərbaycanın bütövlükdə Avrasiya məkanında sülh, tərəqqi və əməkdaşlıq mərkəzinə, beynəlxalq miqyaslı enerji-kommunikasiya layihələrinin lokomotivinə çevrildiyi getdikcə daha qabarıq sezilir.

Hazırda aparıcı dünya dövlətlərinin regiondakı siyasətini məhz Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinə nəzərən müəyyənləşdirməsi Prezident İlham Əliyevin Azərbaycanın müstəqilliyinin möhkəmləndirməsi yolunda apardığı gərgin işin əməli nəticəsi hesab oluna bilər. Bu layihə faktiki olaraq təkcə Azərbaycanın deyil, ümumilikdə Cənubi Qafqaz-Mərkəzi Asiya regionunun gələcək taleyi, habelə Avropanın enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyət kəsb edir. BTC Qərbə inteqrasiya kursu seçmiş türkdilli dövlətlərin iqtisadi əməkdaşlığının uğurlu göstəricisi olmaqla yanaşı, həm də enerji təhlükəsizliyi modelinə çevrilməkdədir. Tarixi İpək Yolunun bərpası, Avropa Birliyi tərəfindən ciddi dəstək alan TRASEKA layihəsi, Şərq-Qərb nəqliyyat dəhlizi layihələri respublikamızın Orta Asiyanın türkdilli xalqları üçün geosiyasi önəmini daha da artırır. Azərbaycan getdikcə sülh və əməkdaşlıq mərkəzinə çevrilir və belə bir müsbət imicin formalaşmasında türkdilli xalqların respublikamızda keçirilən beynəlxalq toplantılarının əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.

Respublikamızda müşahidə olunan dinamik iqtisadi tərəqqi ilə paralel şəkildə demokratik-hüquqi islahatların da dönmədən davam etdirilməsi, bu iki təmayülün ümumi strateji inkişaf kursunun prioritet xətti kimi nəzərdən keçirilməsi Azərbaycanı qlobal əhəmiyyətli tədbirlərin mərkəzinə çevirmişdir. Ölkədə mövcud olan yüksək dini, siyasi, milli-

etnik tolerantlıq mühiti də bu prosesdə öz sözünü deyir. Cənab İlham Əliyev türkdilli xalqların möhkəm birliyi baxımından vacib istinad mənbəyi olan sağlam islami dəyərlərin də ictimai şüurda möhkəm intişar tapmasına çalışır.

Azərbaycan Prezidentinin türkdilli xalqların ideya birliyinin təmin edilməsi istiqamətindəki fəaliyyətinin ən başlıca səbəblərindən biri də bu gün az qala bütün dünyanı cəfəng, iftira xarakterli təbliğatmın təsiri altına salmağa çalışan, nəinki Türkiyə və Azərbaycana, bütövlükdə böyük türk dünyasına qənim kəsilən bədnam erməni lobbisinə qarşı effektiv əks-hücumun təşkili zərurəti ilə şərtlənir. Türk dövlətlərinin, xalqlarının, diaspor təşkilatlarının vahid məqsədlər uğrunda mübarizə aparması, ideoloji-siyasi cəbhədə eyni nöqtəyə vurması, çirkin erməni təbliğatına qarşı mütəşəkkil mübarizəyə qoşulması cənab İlham Əliyevin başlıca məqsədlərindən biridir. Rəsmi Bakının son üç ildə tarixi, siyasi və dini baxımdan Azərbaycana yaxın olan türkdilli respublikalarla ikitərəfli və çoxtərəfli münasibətlərin genişləndirilməsi təşəbbüsləri də məhz bu məqsədə xidmət edir.

Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının Azərbaycanda keçirilməsi də bütün türk dünyası üçün əlamətdar hadisədir.

Xatırladaq ki, hələ türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultay zamanı Prezident İlham Əliyev növbəti toplantının Bakıda keçirilməsi təşəbbüsünü irəli sürmüşdür. İlk dəfə olaraq Türkiyədən kənarda keçirilən və 3 gün çəkən qurultay isə Azərbaycanın dövlət başçısının verdiyi hər bir vədə yüksək səviyyədə əməl etdiyini göstərir. Qurultayın gedişi, ilk növbədə, Azərbaycanla Türkiyə arasındakı əlaqələrin bütün sahələrdə sürətlə inkişaf etdiyini və ümummilli liderimiz Heydər Əliyevin irəli sürdüyü "bir millət, iki dövlət" tezisinin tam doğrulduğunu deməyə əsas verir. Bu gün iki qardaş dövlətin strateji müttəfiqliyi bütövlükdə Cənubi Qafqaz regionunda sülh və sabitlik, habelə iqtisadi tərəqqi üçün əsaslı zəmin rolunu oynayır. Azərbaycanın beynəlxalq əməkdaşlığında Türkiyə daim aparıcı mövqeyə malikdir, xarici iqtisadi siyasətdə qardaş dövlətlə əlaqələrin geniş-

ləndirilməsi üstün istiqamətdir. Türkiyə Azərbaycanın qeyri-neft sektorunda ən çox kapitalı olan ölkələrdəndir. Rəsmi Bakı türk iş adamlarının Azərbaycandakı fəaliyyətinə şərait yaratmaq məqsədilə bütün zəruri addımları həyata keçirir. Ticarət dövriyyəsinin həcminə görə də Türkiyə Azərbaycanın bir nömrəli tərəfdaşı olaraq qalır.

Azərbaycanda hazırda həyata keçirilən siyasi kursun Türkiyə üçün strateji əhəmiyyət kəsb etdiyini də xüsusi vurğulamağa ehtiyac yoxdur. Məhz ulu öndərimiz Heydər Əliyevin prinsipiallığı və qətiyyəti nəticəsində Bakı-Tbilisi-Ceyhan neft kəməri reallaşmışdır və bu qlobal enerji layihəsinin qardaş ölkənin iqtisadiyyatına böyük təkan verəcəyini Türkiyədə yaxşı bilirlər. Azərbaycan Prezidenti cənab İlham Əliyev Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayındakı dərin məzmunlu çıxışında bu məsələyə xüsusi toxunmuşdur: "Biz qardaş Türkiyənin infrastruktur və tranzit imkanlarından istifadə edərək, öz resurslarımızla dünya bazarlarına çıxırıq. Bu, bizi gücləndirir, əlavə maddi imkanlar yaradır, müstəqil siyasət aparmaq üçün bizə çox gözəl şərait yaradır. Eyni zamanda, bütün türk dünyasını birləşdirir.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri dünya miqyaslı layihələrdir. Bu layihələr bütün bölgədə coğrafi-siyasi və iqtisadi vəziyyəti köklü şəkildə bizim xeyrimizə dəyişdirmişdir. Bu layihələr həyata keçdikcə bizim xalqlarımız bundan çox böyük fayda götürür. Biz Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft-qaz yataqlarından səmərəli istifadə etməklə Türkiyə ərazisi ilə dünya bazarlarına çatdırırıq. Bu yeni iqtisadi, enerji dəhlizlərinin açılması bizim müstəqilliyimizi daha da gücləndirir".

Prezident İlham Əliyev həmçinin vurğulamışdır ki, tarixən bir-birinə qırılmaz tellərlə bağlı olan xalqlarımız çətin məqamlarda çiyin-çiyinə verərək, qardaş köməyini bir-birindən əsirgəməmişlər. İki qardaş ölkənin diasporlarının fəaliyyətinin əlaqələndirilməsi böyük uğurlara yol açmış, Ermənistanın ciddi diplomatik uğursuzluqlara düçar olmasına gətirib çıxarmışdır. Dövlət başçısı konkret olaraq erməni

lobbisinin qondarma "soyqırımı" məsələsi ilə bağlı ABŞ Konqresində başladığı prosesin dayandırıldığını razılıqla qeyd etmişdir: "Türkiyə dövlətinin, türk xalqının fəal çalışmaları nəticəsində Amerika Konqresinin Xarici Əlaqələr Komitəsində qəbul edilmiş ədalətsiz qərarın müzakirəsi dayandı və onun davamı olmadı. Yəni bu, Türkiyənin gücü hesabına mümkün oldu. Amma burada, əlbəttə ki, müxtəlif amillərin mövcudluğu vacibdir. Təbliğat, bizim həqiqətə əsaslanmış sözlərimiz və eyni zamanda, bizim gücümüz. Bizim gücümüz isə birliyimizdədir. Biz nə qədər güclü olsaq, bizim həqiqətimiz də bir o qədər üstün olacaqdır. O qədər də bizim sözümüzü eşidəcək, bizim sözümüzlə hesablaşacaqlar. Ona görə bir daha mən bu məsələyə qayıtmaq istəyirəm ki, bizim birliyimiz ölkələrimizin gələcəyi üçün başlıca şərtdir və bizim gücümüz bundadır".

Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı dünyadakı türk diaspor təşkilatları ilə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində mühüm addım olmuşdur. Qurultayda səslənən fikirləri belə ümumiləşdirmək olar ki, Azərbaycan və Türkiyənin xaricdəki diplomatik nümayəndəlikləri, diaspor təşkilatları bu və digər mühüm faktlardan maksimum səmərəli yararlanmalı, Ermənistanın ifşası istiqamətində fəal iş aparmalıdırlar.

Dövlət başçısı cənab İlham Əliyevin bəyan etdiyi kimi, regionda milli düşmənçilik və ədavət yaradan Ermənistanın separatçı hərəkətlərinin, erməni diasporu və lobbisi tərəfindən irəli sürülən cəfəng iddiaların, tarixi saxtakarlıqların qarşısının alınması iki müttəfiq dövlətin – Türkiyə və Azərbaycanın diaspor və lobbi təşkilatlarının üzərinə düşən ən vacib vəzifələrdən biridir. Ümid etmək olar ki, Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı bu sahədə əməkdaşlığın daha da dərinləşməsinə yeni imkanlar açacaqdır.

Samir ELMANOĞLU

TÜRK DÜNYASINI BİRLƏŞDİRƏN LİDER

Ötən əsrin sonlarında müstəqil dövlətçiliyini bərpa etmiş Azərbaycan Respublikası eyni tarixi kökə, dinə, dil qrupuna, oxşar mental dəyərlərə malik xalqlarla münasibətlərini tamamilə yeni müstəvidə qurmaq imkanı əldə etmişdir. Respublikamız bu gün bütövlükdə türkdilli xalqlara məxsus ortaq dəyərlərin, müsbət ənənələrin daşıyıcısı olaraq, onların vahid məqsəd və ideyalar ətrafında konsolidasiyasını gerçəkləşdirmək əzmi nümayiş etdirir. Bütün həyatı boyu türkdilli xalqların qədim tarixi keçmişinin, milli-mənəvi dəyərlər sisteminin müdafiəsində dayanmış ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı - Azərbaycan Prezidenti cənab İlham Əliyevin son 5 illik fəaliyyəti bu baxımdan diqqəti xüsusi cəlb edir.

Dünya təcrübəsində tarixi-etnik köklərlə, eyni dil qrupu, ənənə və dəyərlərlə bir-birinə yaxın olan xalqların vahid ideya birliyi və həmrəyliyi ilə bağlı çoxsayh nümunələr gətirmək mümkündür. Minilliklər boyu yol gəlməklə tarixin sərt sınaqlarından üzüağ çıxmış, milli dövlət qurmaq, müstəqil yaşamaq haqlarını əzmlə qorumuş türkdilli xalqların ideya-mənəvi birliyini təmin edən amillər isə daha çoxdur. Təməl prinsipində dahi Atatürkün "Yurdda sülh, cahanda sülh" tezisi dayanan türkçülük ideologiyası möhkəm ideoloji istinad nöqtəsi kimi daha geniş coğrafi ərazidə türkdilli xalqları bir-birinə sıx şəkildə bağlayır, onlarda milli kimlik şüurunu, həmrəylik, təəssübkeşlik hisslərini və duyğularını gücləndirir. Bu birlik və həmrəylik eyni zamanda, çoxqütblü əməkdaşlığın subregional inteqrasiya modelinin - türkdilli dövlətlərin müxtəlif qlobal enerji və kommunikasiya layihələrinin gerçəkləşdirilməsi naminə birgə səy göstərməsini, geniş iqtisadi əlaqələr qurmasını təmin edir.

Azərbaycan Prezidenti İlham Əliyev ümumtürk birliyinin möhkəmləndirilməsi xəttini xarici siyasətdə mühüm istiqamətlərdən biri

kimi müəyyənləşdirərək, təkcə Türkiyə ilə deyil, Orta Asiyanın türkdilli dövlətləri ilə münasibətləri gücləndirmək xəttinə üstünlük verir. Dövlət başçısı türkdilli xalqların oxşar milli irsinə, ülvi və pak dəyərlərinə, mental xüsusiyyətlərinə həm də ümumi müqaviməti və səfərbərliyi təmin edən güclü ideoloji-siyasi təsir vasitəsi kimi yanaşır. Cənab İlham Əliyevin fəaliyyətini yaxından izləyən hər kəs təsdiqləyə bilər ki, bu gün Azərbaycan türk dövlətlərinin inteqrasiyası prosesinin sadəcə iştirakçısı deyil, həm də ən fəal təşəbbüskarlarındandır. Rəsmi Bakı Avropa və ümumilikdə Qərb, habelə Rusiya ilə mövqeləri yaxınlaşdırmaqla bərabər, türk dünyasının mənəvi birliyinin siyasi təzahürünə nail olmaq, dünya qarşısına bütün cəhətlər üzrə daha üstün sivilizasiya ilə çıxmaq zərurətini diqqətdən kənarda qoymur. Türkdilli respublikaların birliyi istiqamətində səylərin son illər daha da intensivləşdirilməsi bu qənaəti bir daha gücləndirir. Son illər regionda və dünyada cərəyan edən siyasi-iqtisadi proseslər də türk xalqlarının birliyini aktual məsələ kimi gündəmə gətirir.

Ölkə başçısı İlham Əliyev dünya siyasətinə təsir imkanları olan türkdilli dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, inkişaf etdirmək, beynəlxalq təşkilatlarda Azərbaycanın mövqelərini gücləndirmək istiqamətində mühüm addımlar atmışdır. Türk dövlətlərinin, xalqlarının, diaspor təşkilatlarının vahid ideya və məqsədlər uğrunda mübarizə aparması, ideoloji-siyasi cəbhədə eyni mövqe nümayiş etdirməsi, bədnam erməni lobbisinə qarşı mütəşəkkil mübarizəyə qoşulması cənab İlham Əliyevin ən çox səy göstərdiyi məsələlərdəndir. Rəsmi Bakının tarixi, siyasi və dini baxımdan Azərbaycana yaxın olan türkdilli respublikalarla ikitərəfli və çoxtərəfli münasibətlərin genişləndirilməsi təşəbbüsləri də məhz bu məqsədə xidmət edir. Dövlət başçısı bu zərurəti hələ 2006-cı ilin martında Bakıda keçirilmiş Dünya azərbaycanlılarının II qurultayında xüsusi önə çəkmişdir. Azərbaycana strateji müttəfiq olan Türkiyə ilə diaspor quruculuğu və lobbiçilik sahəsində fəaliyyətin əlaqələndirilməsi də həmin qurultayın yaddaqalan, vacib qərarlarındandır.

2006-cı ilin sentyabr ayında isə Ankarada keçirilən Türkdilli dövlətlərin və topluluqların X dostluq, qardaşlıq və əməkdaşlıq qu-

rultayı dövlət başçısı İlham Əliyevin türk dövlətləri arasında birləşdiricilik missiyası həyata keçirən və bu sahədə böyük uğurlar qazanan lider olduğunu bir daha təsdiqləmişdir. Forumdakı çıxışında bədnam erməni təbliğatına qarşı hücum diplomatiyasının vacibliyini diqqətə çəkən cənab İlham Əliyev demişdir: "Bəzi hallarda bizim haqqımızda süni şəkildə mənfi rəy formalaşdırılır və bunun arxasında Türkiyə və Azərbaycana qarşı düşmənçilik mövqeyi tutan erməni lobbisinin fəaliyyəti dayanır. Biz bunu çox gözəl bilirik və hiss edirik. Bizim əleyhimizə çox böyük, mütəşəkkil, böyük maliyyə dəstəyinə malik olan və bəzi riyakar siyasətçilər tərəfindən dəstəklənən erməni lobbisi fəaliyyət göstərir. Biz onların təbliğatını ifşa etməliyik, darmadağın etməliyik, ancaq müdafiə naminə yox. Biz hücüm etməliyik, çünki həqiqət bizim tərəfimizdədir" - deyən dövlət başçısı cənab İlham Əliyev türk dünyasına qarşı aşkar düşmənçilik siyasəti aparan bədnam ermənilərin yerində oturdulması vacibliyini önə çəkmişdir. Azərbaycan Prezidenti həmin toplantıda eyni zamanda, Türkdilli dövlətlərin və topluluqların X dostluq, qardaşlıq və əməkdaşlıq qurultayındakı çıxışında həmin forumun 2007-ci ildə Bakıda keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir.

2007-ci ilin mart ayında Bakıda Azərbaycan və türk diaspor təşkilatlarının I forumunun keçirilməsi də iki qardaş və dost ölkənin xaricdəki diaspor təşkilatları qarşısında duran strateji vəzifələri müzakirə etmək, bu sahədə fəaliyyətin səmərəli koordinasiyasına nail olmaq məqsədi daşımışdır. Qurultayda Azərbaycan və Türkiyənin diaspor təşkilatlarının daha sıx əməkdaşlıq etməsini, bədnam erməni lobbisinə qarşı fəal mübarizə aparmasını nəzərdə tutan razılaşmalar, bəyanatlar qəbul olunmuşdur.

2007-ci ilin dekabrında Bakıda keçirilmiş Türkdilli dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı isə respublikamızın bütövlükdə türkdilli dövlətlərin konsolidasiya və əməkdaşlıq mərkəzinə çevrildiyini göstərmişdir. Bir qayda olaraq Türkiyədə keçirilmiş belə qurultayın ilk dəfə Azərbaycanda təşkili, respublikamızın türk dünyasındakı həlledici rolundan, artan nüfuzundan irəli gəlmişdir. Ümumiyyətlə, qurultayın başlıca məqsədi türk dövlət və cəmiyyətləri arasında dostluq, qardaşlıq və

əməkdaşlıq əlaqələrini inkişaf etdirmək, onların arasında informasiya mübadiləsinə nail olmaq, iqtisadi inkişaf sahəsində qarşılıqlı əməkdaşlığı genişləndirən tədbirlər görmək, türk dövlət cəmiyyətlərinin ümumi problemlərinin birlikdə həlli yollarını araşdırmaq olmuşdur. Türkdilli dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının Azərbaycan paytaxtında keçirilməsi vahid məqsəd, amal uğrunda həyata keçirilən işlərin yeni mərhələsinə çevrilmişdir.

Qurultay həmçinin Türkdilli Dövlətlər Birliyinin yaradılması üçün zəruri elmi, ideoloji, institusional və hüquqi zəminin formalaşdırılmasına başlamaq məqsədi ilə müvafiq konsepsiyanın hazırlanmasını vacib hesab etmişdir. Eyni zamanda, türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşü daimi katibliyinin yaradılması ideyası alqışlanmış, bu təklifin türk dünyası arasında dostluq, əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə, xalqlarımızın qədim tarixə malik çoxəsrlik qardaşlıq münasibətlərinin inkişafına təkan verəcəyinə əminlik ifadə edilmiş, bu istiqamətdə tədbirlər görmək tövsiyə olunmuşdur.

Qurultayın mühüm sənədlərindən biri də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olmuşdur. Həmin sənəddə göstərilmişdir ki, münaqişə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, azərbaycanlılara qarşı erməni işğalçıları tərəfindən törədilmiş soyqırımı və terror aktlarının, eləcə də digər cinayətlərin beynəlxalq miqyasda ifşası istiqamətində türkdilli ölkələr tərəfindən birgə tədbirlərin görülməsi təmin edilməli, Azərbaycana mənəvi-psixoloji və siyasi dəstək gücləndirilməlidir.

Türkdilli dövlətlər arasında münasibətlərin yüksələn xətlə inkişaf edərək bütün həyati əhəmiyyətli sahələrdə nailiyyətlərə yol açması adekvat olaraq onların kütləvi informasiya vasitələri arasında əlaqələrin də müasir dövrün tələbləri səviyyəsində qurulmasını, ümumi maraq və mənafelər naminə fəaliyyətin əlaqələndirilməsini zərurətə çevirmişdir. Ulu öndər Heydər Əliyevin anadan olmasının 85 illiyi ilə əlaqədar 2008-ci ilin mayında Bakıda keçirilən Türkdilli Ölkələrin Xəbər Agentlikləri Birliyi Baş Məclisinin "Türkdilli ölkələrin əlaqələrinin inkişafında xəbər agentliklərinin əməkdaşlığının

rolu" mövzusundakı VII iclası bu baxımdan bir sıra mühüm nəticələrlə yadda qalmışdır. Şübhəsiz, Bakıda belə bir mühüm tədbirin keçirilməsi türkdilli dövlətlərin mediasındakı oxşar və fərqli cəhətləri müqayisəli təhlil etməkdən, daha da yaxınlaşdırmaqdan, mövcud əlaqələri dərinləşdirməkdən ibarət olmuşdur. Türkiyənin, Qazaxıstanın, Qırğızıstanın, Şimali Kiprin, Rusiya Federasiyasının, Tatarıstan və Başqırdıstan respublikaları və Ukraynanın Krım Muxtar Respublikasının nümayəndələrinin iştirak etdiyi tədbirdə ümumən türk dünyasında mətbuatın vəziyyəti, qarşıda duran məqsəd və vəzifələrlə bağlı fikir mübadiləsi aparılmış, əməkdaşlıq istiqamətləri müəyyənləşdirilmişdir. Tədbirdə xüsusi vurğulanan fikirlərdən biri də bu olmuşdur ki, türkdilli ölkələr arasında siyasi, iqtisadi və humanitar əlaqələrin inkişafı ilə müqayisədə, xəbər agentliklərinin əməkdaşlığı hələ arzuolunan səviyyədə deyildir. Ümumiyyətlə, türk dövlətlərinin mətbuatı bu sahədə fəaliyyətlərini əlaqələndirməklə, erməni lobbisinin apardığı cəfəng və əsassız təbliğata qarşı daha kəsərli, sistemli və ardıcıl mövqe tutmalı, daim hücum mövqeyində olmalıdırlar. Bunu hər iki ölkənin ümumi maraq və mənafeyi diktə edir.

Bu günlərdə Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci sammitinin keçirilməsi isə ümumtürk birliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü strategiyanın uğurlu davamıdır. Xatırladaq ki, ilk dəfə 2006-cı ildə türkdilli ölkələrin dövlət başçılarının sammitində Prezident Nursultan Nazarbayev Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması ideyasını irəli sürmüşdür. Ortaq mədəni irsə, dinə, dilə malik olan dövlətləri bir araya gətirdiyi üçün assambleya böyük əhəmiyyətə malikdir.

Milli Məclisdə baş tutan sammitdə türk dövlətlərinin əməkdaşlığı istiqamətində mövcud potensialdan daha səmərəli istifadə vacibliyi vurğulanmışdır. Sammit iştirakçılarının ümumi fikri bundan ibarət olmuşdur ki, türkdilli dövlətlərin yerləşdikləri bölgələrin dünya siyasətində və iqtisadiyyatında artan rolu türkdilli xalqlar ailəsinin bütün üzvləri arasında sıx birliyi, əməkdaşlığı zəruri edir. Qeyd olunmuşdur ki, eyni kökdən olan, ortaq milli-mədəni dəyərləri

bölüşən dost və qardaş xalqların parlament məclisi ölkələr arasında siyasi, iqtisadi, mədəni, humanitar münasibətlərin genişlənməsinə kömək göstərəcək, ölkələr üçün ümumi olan bir çox problemlərin həllinə yol açacaqdır. Türkdilli Ölkələrin Parlament Assambleyası parlamentlərarası ünsiyyətin demokratik forumu kimi təşəkkül tapacaq, bölgələrin əmin-amanlıq və inkişaf ərazilərinə çevrilməsi məqsədi ilə müxtəlif təşəbbüslərin irəli sürülməsinə və həyata keçirilməsinə əlverişli şərait yaradacaqdır.

Sammitdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmış, assambleyanın nizamnaməsi, katibliyinin əsasnaməsi, təşkilatın büdcəsi təsdiqlənmiş, baş katib və onun müavinləri seçilmişdir. Sammitin birinci ümumi iclasının Bakı bəyannaməsi də qurumun gələcək fəaliyyətinin ümumi prinsip və məqsədlərini, mahiyyətini özündə ehtiva edir. Yeni yaradılmış assambleyanın baş katibliyinin Bakıda yerləşməsi də ölkəmizin bu sahədə oynadığı müstəsna rola verilən adekvat qiymətdir.

Nəhayət, Türkdilli ölkələrin dövlət başçılarının bu günlərdə Naxçıvanda keçirilmiş IX zirvə görüşü Türkiyə, Azərbaycan, Qazaxısan və Türkmənistan arasında münasibətlərin keyfiyyətcə yeni mərhələdə intensiv inkişafı, ümumi səylərin vahid məqsədlər naminə səfərbər olunması baxımından mühüm nəticələrlə yadda qalmışdır. Faydalı müzakirələrlə tarixə düşən zirvə toplantısında türk dövlətləri arasında hərtərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin yaradılması vacibliyi önə çəkilmişdir. Eyni zamanda, türkdilli dövlət başçıları ildə iki dəfə - rəsmi və qeyri-rəsmi görüşmək barədə razılığa gəlmişlər. Görüşdə imzalanmış Naxçıvan bəyannaməsinə görə isə yaxın perspektivdə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması nəzərdə tutulur.

Dövlət başçısı İlham Əliyev zirvə toplantısındakı dərin məzmunlu çıxışında türkdilli dövlətlərin birliyini zəruri edən amilləri bir daha diqqətə çəkmişdir: "Biz bilirik ki, beynəlxalq müstəvidə öz mövqeyini müdafiə etmək bəzi hallarda o qədər də asan olmur. Biz birlikdə olsaq, müəyyən məsələlərdə vahid mövqedən çıxış etsək və bu birliyi mütəmadi işlərlə möhkəmləndirsək, bizim beynəlxalq mövqelərimiz daha da güclü olacaqdır. Çünki türkdilli ölkələrdə

bütün imkanlar vardır - təbii sərvətlər, neft-qaz yataqları, əlverişli coğrafi vəziyyət, güclü iqtisadiyyatlar, insanların istedadı, mövcud olan yeni infrastruktur. Bütün bu imkanları biz əgər bir yerə toplasaq və bir yerdə cəmləşdirsək, türkdilli ölkələr dünya miqyasında böyük gücə çevriləcəkdir. Bu gücə çevrilmək üçün biz səmərəli işləməliyik. Bu, bizim əlimizdədir, bizim iradəmizdən asılıdır. Mən çox şadam ki, bizim aramızda olan birlik son illər ərzində daha da güclənir".

Rəhbəri olduğum "Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi" (ATXƏM) İctimai Birliyi də cəmiyyət üçün faydalı olan müxtəlif təşəbbüslərlə çıxış edərək türkdilli xalqlar arasında hərtərəfli inteqrasiyanın təmin olunmasına, habelə iqtisadi-siyasi və mədəni əməkdaşlığın dərinləşməsinə çalışır. Təşkilat türk dövlətlərinin siyasi, mənəvi və mədəni birliyinə xidmət edən müxtəlif səmərəli təşəbbüslərlə çıxış edir, mühüm tarixi günlərlə bağlı mədəni-kütləvi tədbirlər keçirir. İctimai birliyin fəaliyyəti eyni zamanda, türkçülük ideyalarının bəşəriyyətin xilasına xidmət etdiyini, türkdilli dövlətlərin regionda yalnız sülh, iqtisadi tərəqqi və inkişaf, habelə demokratik idealların təntənəsi naminə birləşmək niyyətini nümayiş etdirməyə yönəlmişdir.

Bu günlərdə ATXƏM-in dəvəti ilə İstanbulda fəaliyyət göstərən "Azeri Kültür Evi" dərnəyinin üzvləri, türk iş adamları, tarixçilər və sənət adamlarından ibarət nümayəndə heyəti Azərbaycanda olmuşlar. Səfərdə məqsəd Bakıda keçirilən Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci plenar iclası və Naxçıvanda Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü ərəfəsində türk ictimai qurumları ilə daha sıx əlaqələr qurmaqdan, müştərək diaspor fəaliyyətini genişləndirməkdən ibarətdir. Səfər çərçivəsində qonaqlar Quba, Salyan və Gəncədə də olmuş, Azərbaycanın tarixi yerlərini, o cümlədən Qubadakı soyqırımı məzarlığını, Gəncədə Cavadxan məqbərəsini, Şah Abbas məscidini, habelə dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsini ziyarət etmişlər. Azərbaycanın regionları ilə tanışlıqdan sonra qonaqlar mətbuat nümayəndələri üçün təəssüratlarını bölüşərək məmnunluqla bildirmişlər ki, neft gəlirlərindən səmərəli faydalanmaqla iqtisadiyyatını ildən-ilə inkişaf etdirən, bütün sahələrdə yeniləşən Azərbay-

canın türk dünyasının mənəvi, siyasi, iqtisadi birliyini möhkəmləndirən böyük layihələrə imza atması son dərəcə sevindiricidir.

Bütün bunlar deməyə əsas verir ki, 2008-ci ilin 15 oktyabrında xalqın iradəsi ilə ikinci müddətə Azərbaycan Prezidenti seçilmiş cənab İlham Əliyev türkdilli dövlətlərlə əlaqələrin daha geniş coğrafi arealda genişləndirilməsinə çalışmaqla, bütövlükdə türk dünyasının qəbul etdiyi, hesablaşdığı, rəğbət bəslədiyi birləşdirici lider statusunda çıxış edir. Bu əzmkar fəaliyyət milli-dini yaxınlıq amili və təəssübkeşlik prinsiplərindən bir qədər də irəliyə gedərək, bütövlükdə türkdilli xalqların dünya siyasətindəki tarixi yerini, beynəlxalq proseslərə təsir imkanlarını və nüfuzunu təmin etməyə yönəlmiş müqəddəs amal, məsuliyyətli və əzmkar missiyadır.

İlham İSMAYILOV,
"Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi" İctimai Birliyinin sədri

Mündəricat

Heydər Əliyev – Azərbaycanın Atatürkü 3
Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə 31
Mustafa Kamal Atatürk və Heydər Əliyev: Tarixi missiyalarda oxşarlıq 75
"Ümid körpüsü" 83
Türk dünyasının unudulmaz lideri 88
Bütün Azərbaycanlıların prezidenti 94
Heydər Əliyev və Türk Dünyasının Birliyi yolu 99
Əliyevçilik və Atatürkçülük Azərbaycan-Türkiyə münasibətlərinin siyasi-ideoloji əsasi kimi 111
Azərbaycanda Atatürk mərkəzi: Heydər Əliyevin Atatürkə və türk dünyasına böyük ehtiramı 124
Türkün böyük oğlu 137
Prezident İlham Əliyevin türk dövlətləri arasında birləşdiricilik missiyasının türk dünyası üçün faydası böyükdür 143
Türkdilli xalqlar arasında əməkdaşlığa töhfə 146
Türk dünyasini birləşdirən lider 153

TÜRK DÜNYASININ BİRLİYİ İDEYASI
VƏ
HEYDƏR ƏLİYEV

«Elm və təhsil» nəşriyyatının direktoru:
***professor* Nadir MƏMMƏDLİ**

Dizayn: **Zahid Məmmədov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**

Yığılmağa verilmiş **25.03.2011.**
Çapa imzalanmış **25.04.2011.**
Şərti çap vərəqi **10,5.** Sifariş № **105.**
Kağız formatı **60x84 1/16.** Tiraj **600.**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.